# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 210 (8803) CÜMƏ, 1 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İlham Əliyevin qətiyyəti - Azərbaycanın Zəfəri



"...Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu".

Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2021-ci il sentyabrın 27-də, Vətən müharibəmizin başlanmasının bir il tamamında, müqəddəs şəhidlərimizin Anım günündə xalqa müraciətində qürurla səsləndirdi bu fikirləri.

## Qələbəyə inamla

2020-ci il sentyabrın 27-də başlayan və cəmi 44 gün sürən Vətən müharibəsi Azərbaycanın ulu tarixinə şanlı Zəfər kimi həkk olundu. Düz 30 ildir ki davam edən, xalqımızın həyatında olmazın ağrı-acılarla müşayiət olunan Qarabağ münaqişəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, mükəmməl hərbi taktikası sayəsində Qələbə ilə başa çatdı.

Yenilməz baş sərkərdənin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu düşmən tapdağında qalan dədə-baba torpaqlarımızı işğaldan azad etdi, "Dəmir yumruğ"un sayəsində düşməni qarşısında baş əyməyə, təslimçilik bəyanatına imza atmağa məcbur etdi.

Əslində, Azərbaycan dövləti qətiyyətli lider İlham Əliyevin ötən 18 il ərzində məharətlə qurduğu güclü iqtisadiyyat, qüdrətli ordu, malik olduğu yüksək beynəlxalq nüfuz sayəsində Böyük Qələbəyə doğru hər gün inamla irəliləyirdi.

Qarabağın qurtuluşunu qarşısına prioritet məqsəd kimi qoyan Prezident İlham Əliyev bu müqəddəs məqsədə çatacağımızın yaxın olduğunu, Azərbaycan xalqına, keçmiş məcburi köçkünlərə, hələ 2016-cı il Lələtəpə zəfəri zamanı bəyan etmişdi: "...Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq".

2019-cu ildə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında Azərbaycan Prezidentinin səsləndirdiyi "Qarabağ Azərbaycandır!" qələbə nidalı bəyanat isə 30 ildir torpaqlarımızı işğal altında saxlayan mənfur düşmənin bağrına qan saldı...

*Ardı 7-ci səh.*



## Azərbaycan-Çin tərəfdaşlığı yüksək səviyyədədir

### Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının yaranması günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Bu gün Çin özünün hərtərəfli və dinamik inkişafı ilə dünyanın qabaqcıl ölkələri sırasında qərar tutmuşdur. Sizin uzaqgörən rəhbərliyiniz altında həyata keçirilən irimiqyaslı proqramlar, infrastruktur layihələri ölkənin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun gündən-günə artmasına, Çinin yüksəlişinə xidmət edir. Təşəbbüsünüz ilə ərsəyə gələn "Kəmər və yol" nəhəng transmilli əməkdaşlıq platforması Avrasiya məkanında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə töhfə verir.

Çin Azərbaycan üçün etibarlı tərəfdaş və dost dövlətdir. COVID-19 pandemiyası dövründə ölkələrimizin qarşılıqlı etimad və həmrəylik nümayiş etdirərək bir-birini dəstəkləməsi möhkəm dostluq münasibətlərimizin bariz nümunəsidir.

Biz Azərbaycan-Çin münasibətlərinin inkişafına, əməkdaşlığımızın daha da dərinləşməsinə xüsusi əhəmiyyət veririk. Bu mənada qədim və zəngin ənənələrə malik əlaqələrimizin genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir. Çin şirkətlərinin ölkəmizin Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının bərpası və yenidən qurulması işlərində iştirakı, nəqliyyat, logistika, infrastruktur, investisiya, enerji və digər sahələrdə əldə etdiyimiz yaxşı nəticələr və gələcək perspektivlər Azərbaycan-Çin tərəfdaşlığının yüksək səviyyəsindən xəbər verir.

Əminəm ki, həm "Kəmər və yol" layihəsi çərçivəsində atdığımız addımlar, həm də ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı etimad və dəstəyə əsaslanan faydalı əməkdaşlığımız bundan sonra da birgə səylərimizlə müvəffəqiyyətlə davam edəcək və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2021-ci il*

## Yakub Kulhanek İlham Əliyevə minnətdarlığını bildirdi



Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çex Respublikasının xarici işlər naziri Yakub Kulhaneki qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüş zamanı 2015-ci ildə Azərbaycan Respublikası ilə Çex Respublikası arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədən irəli gələn əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsinin vacibliyi vurğulandı. Qeyd edildi ki, Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanekin Azərbaycana səfəri postpandemiya dövründə münasibətlərimizin perspektivlərinin nəzərdən keçirilməsi, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, ticarət, iqtisadiyyat, investisiya qoyuluşu, nəqliyyat, enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradır.

Yakub Kulhanek Çex Respublikası əsgərlərinin Əfqanıstandan təxliyə edilməsi işində Azərbaycanın göstərdiyi köməyə görə minnətdarlığını bildirdi.

## İctimai-siyasi sabitlik, dinamik iqtisadi inkişaf və əlverişli biznes mühiti

### Azərbaycanı xarici şirkətlər üçün cəlbedici edən əsas şərtlərdir

Aparılan iqtisadi islahatlar Azərbaycanda həm də əlverişli biznes mühiti formalaşdırmışdır. Bu hesaba ölkədə ən müxtəlif sahələrdə, xüsusən qeyri-neft sektorunda çalışan işgüzar sahibkarlar təbəqəsi yaranmışdır. Təsadüfi deyil ki, bu gün qeyri-neft sektorunda istər məhsul istehsalı, istərsə də xidmət sahələri üzrə özəl sektorun payı kifayət qədər yüksəkdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, təkcə cari ilin yanvar-avqust aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 2,6 faiz artaraq 32,1 milyard manata, sənayedə qeyri-dövlət sektorunun payı 81,3 faizə çatmışdır. Təbii ki, qısa zamanda ölkədə özəl sektorun bu səviyyədə inkişafı aparılan uğurlu islahatlar nəticəsində yaranan əlverişli biznes mühiti ilə bağlıdır.

Ölkəmizdə yerli sahibkarlarla yanaşı, xarici iş adamlarının da fəaliyyət göstərməsi üçün geniş imkanlar var. Münbit investisiya mühiti və sahibkarların hüquqlarının qanunla qorunması xarici iş adamlarını Azərbaycana cəlb edən əsas şərtlərdir. Elə bu səbəbdən Azərbaycan MDB məkanında ən çox əcnəbi kapitalın qoyulduğu ölkələrdən sayılır.

*Ardı 9-cu səh.*

## Milli Məclis Vətən müharibəsinin ildönümü ilə əlaqədar bəyanat qəbul edib



Milli Məclis Azərbaycan xalqının Vətən müharibəsinin ildönümü ilə əlaqədar bəyanat qəbul edib. Milli Məclisin sentyabrın 30-da keçirilən iclasında qəbul olunan bəyanatda deyilir:

*Bax: səh. 4*

# Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş xaricdə təhsil ənənəsi Azərbaycan müstəqillik qazandıqdan sonra da uğurla davam etdirilmişdir. "Qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyası təhsillə əhatənin və ona əlçatanlığın artmasına, bu çərçivədə gənclərin qabaqcıl xarici təhsilə cəlbinin müxtəlif proqramlarla dəstəklənməsinə mühüm imkanlar yaratmışdır.

Təcrübə göstərir ki, təhsilin keyfiyyətinin yüksəlməsi Azərbaycanda iqtisadi tərəqqinin daha da sürətlənməsi üçün güclü potensial yaratmışdır. Xüsusilə gənclərin xarici təhsilə cəlbi ölkənin sosial-iqtisadi həyatına, eləcə də insan kapitalının milli sərvətdə payının böyüməsinə, təhsilin məzmun və keyfiyyətinin yaxşılaşmasına, Azərbaycan Respublikası ali təhsil müəssisələrinin akademik potensialının güclənməsinə əhəmiyyətli töhfə vermişdir.

Postpandemiya və yeni strateji dövrün çağırışları, həmçinin milli inkişaf məqsədlərimiz nəzərə alınmaqla ölkənin rəqabət və inkişaf sahəsində sürətlə irəliləməsi üçün yüksək intellekt cəmiyyətin əsas güc mənbəyinə çevrilməli, yenilikçi təbəqənin iqtisadi fəallıq və idarəçilikdə rolu möhkəmlənməlidir. Bu məqsədlə Azərbaycan gənclərinin ehtiyac duyulan istiqamətlər üzrə qabaqcıl xarici ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsil alması davamlı olmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sürətli inkişaf üçün zəruri olan müasir bacarıqlara malik insan kapitalının yaradılması, bu çərçivədə istedadlı gənclərin xarici ölkələrdə təhsil almasına dövlət dəstəyinin davam etdirilməsi, habelə uğurlu təcrübəyə əsaslanan effektiv maliyyələşmə modelinin formalaşdırılması məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramının layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.
2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# Azərbaycan Respublikası prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası prokurorluğunun aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Musayev Elnur Novruz oğlu - Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi

Əliyev Vüqar Nurəddin oğlu - Azərbaycan Respublikası Baş Prokurorluğunun Xüsusi Müsadirə Məsələlərinin Əlaqələndirilməsi İdarəsinin rəisi

Sultanov Eldar Aslan oğlu - Azərbaycan Respublikası Baş Prokurorluğunun Sənədlərlə və Müraciətlərlə İşin Təşkili İdarəsinin rəisi

Əhmədov Mübariz Hüseyn oğlu - Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamının 1-ci hissəsində "Rüfət Məmmədov" sözləri "Rövşən Nəcəf" sözləri ilə, "Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini" sözləri "Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini, Azərbaycan Respublikası maliyyə nazirinin müavini" sözləri çıxarılsın.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Çex Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# Kürdəmir rayonunun Ağsu-Kürdəmir-Bəhrəmtəpə (26 km)-Qarasaqqal-Cəyli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Ağsu-Kürdəmir-Bəhrəmtəpə (26 km)-Qarasaqqal-Cəyli avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,0 (altı) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# A.M.Əsgərovun "Azərbaycan" nəşriyyatının baş direktoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağabəy Məmməd oğlu Əsgərov "Azərbaycan" nəşriyyatının baş direktoru vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# Şeyxülislam Allahşükür Paşazadə Rusiyada keçirilən VIII Parlament Forumunda videokonfrans formatında iştirak edib



Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə sentyabrın 30-da Rusiya Federasiyasının Yaroslavl şəhərində keçirilən VIII Parlament Forumunda videokonfrans formatında iştirak edib. Forumda Rusiya Federasiyasının dövlət hakimiyyəti orqanlarının, Rusiya və xarici ölkələrin tanınmış ictimai, təhsil, elmi-tədqiqat müəssisələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun şəxsi dəvəti ilə Parlament Forumuna qonaq qismində dəvət olunan MDB Dinlərarası Şurasının həmsədri Şeyxülislam Allahşükür Paşazadə tədbirdə onlayn çıxış edib.

QMİ-nin sədri çıxışında xüsusi vurğulayıb ki, ənənəvi dinlərin mənəvi dəyərləri bəşəriyyəti qarşılıqlı anlaşmaya, dünya miqyasında əməkdaşlığa, sülh və sabitliyinin möhkəmləndirilməsi işinə öz dəyərli töhfəsini verməyə dəvət edir. Bildirib ki, hazırkı mürəkkəb dövrdə cəmiyyətlərdə həmrəylik və qarşılıqlı anlaşmaya nail olmaq yönündə mədəniyyətlərarası, dinlərarası dialoq, habelə dövlət, dini və ictimai qurumların əməkdaşlığı xüsusi önəm kəsb edir.

Parlament Forumu çərçivəsində "Rusiya xalqlarının tarixi-mədəni irsinin dinlərarası dialoq prosesinə töhfəsi" mövzusunda keçirilən paneldə 2022-ci ilin mayında Sankt-Peterburqda baş tutacaq Mədəniyyətlərarası və dinlərarası dialoqa dair Ümumdünya Konfransına hazırlıq məsələləri müzakirə edilib.

# *Yakub KULHANEK:* "Çexiya şirkətləri azad olunmuş ərazilərdə bərpa və quruculuq prosesində iştirakda maraqlıdır"

Sentyabrın 30-da xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan Respublikasına işgüzar səfəri çərçivəsində Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanek ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, xarici işlər nazirləri arasında təkbətək başlayan görüş hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş formatda davam edib.

Çexiya nümayəndə heyətini salamlayan nazir Ceyhun Bayramov ölkəmizin Çex Respublikası ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirib və bu xüsusda "Azərbaycan Respublikası ilə Çex Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasında önəmli rolunu qeyd edib.

İkitərəfli səfər mübadilələrinin əlaqələrin inkişafına töhfə verdiyini qeyd edən nazir Ceyhun Bayramov çexiyalı nazirin cari səfərinin, bu çərçivədə keçirilmiş görüş və tədbirlərin əhəmiyyətini vurğulayıb.

Nazir Yakub Kulhanek rəhbərlik etdiyi nümayəndə heyətinin dostcasına qarşılanmasından məmnunluq bildirərək, Azərbaycanın Çexiya üçün vacib tərəfdaş ölkə olduğunu qeyd edib. O, səfər çərçivəsində biznes-forumun açılışında iştirakını məmnunluqla qeyd edərək, hər iki tərəfdən çox sayda şirkətin iştirak etdiyi bu tədbirin ölkələrimiz arasında iqtisadi münasibətlərin inkişafı üçün önəmli olduğunu bildirib.



Tərəflər ölkələrimiz arasında siyasi dialoqun davamlılığı, iqtisadi-ticarət sahələrində mövcud potensiala uyğun olaraq əlaqələrin inkişafının vacibliyi, o cümlədən ölkələrimiz arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın fəaliyyəti, parlament ölçüsü üzrə əlaqələrin genişləndirilməsi, habelə humanitar, turizm sahələrində münasibətlərin daha da inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan postmünaqişə mərhələsi və ən son vəziyyət, o cümlədən Azərbaycan tərəfinin Ermənistan işğalından azad etdiyi ərazilərində həyata keçirdiyi bərpa, quruculuq, reinteqrasiya işləri barədə məlumat verib. Nazir həmin ərazilərdə Ermənistan tərəfindən onilliklər ərzində məqsədli şəkildə basdırılan minalar və bu ciddi təhdidin ağır nəticələrindən danışıb. Azərbaycan tərəfinin ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın icrası ilə bağlı gördüyü tədbirlər barədə qarşı tərəfə məlumat verilib.

Yakub Kulhanek bölgədə sülh və təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğulayıb və Çexiya şirkətlərinin bərpa və quruculuq prosesində iştirak etmək marağını ifadə edib.

Nazirlər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Görüşdən sonra Azərbaycan Respublikasının və Çex Respublikasının xarici işlər nazirlərinin iştirakı ilə mətbuat konfransı keçirilib.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan və Çexiya azad edilmiş ərazilərin bərpasında böyük əməkdaşlıq potensialına malikdir"

Azərbaycan Respublikası və Çex Respublikası azad edilmiş ərazilərin bərpası sahəsində böyük əməkdaşlıq potensialına malikdir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanek ilə keçirdiyi birgə brifinqdə deyib.

C.Bayramov bildirib ki, brifinqdən əvvəl keçirilmiş görüşdə o, çexiyalı həmkarını Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ermənilər tərəfindən törədilən dağıntılar, ərazilərin minalanması və mina xəritələrinin Azərbaycana təqdim edilməməsi barədə məlumatlandırıb.

# Ermənistanın delimitasiya prosesini ləngitməsi lazımsız gərginliyə səbəb olur

"Əlbəttə, otuz il ərzində Azərbaycan ilə Ermənistan arasında sərhədlərin müəyyən edilməməsi, delimitasiya və demarkasiya prosesinin həyata keçirilməməsi normal hal hesab edilə bilməz. Bunun əsas və yeganə səbəbi torpaqlarımızın uzun illər ərzində işğal altında olmasıdır".

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanek ilə birgə keçirdiyi mətbuat konfransında deyib.




Nazir bildirib ki, Azərbaycan Respublikası beynəlxalq hüquq normaları əsasında öz ərazi bütövlüyünü bərpa etdi və Ermənistan ilə Azərbaycan arasında olan 400 kilometrə yaxın sərhədi də nəzarətə götürdü. "Hazırda bu məsələ delimitasiya prosesi vasitəsilə həyata keçirilməlidir. Bildiyiniz kimi, Azərbaycan bu məsələ ilə bağlı bir neçə dəfə təşəbbüslə çıxış edib. Ancaq Ermənistan tərəfi prosesi ləngidir və bu da lazımsız gərginliyə səbəb olur", - deyə nazir vurğulayıb.

Ceyhun Bayramov bildirib ki, Azərbaycan beynəlxalq hüquq normaları prizmasından çıxış edir, bir-birinin ərazi bütövlüyünə, suverenliyinə hörmət, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərini rəhbər tutur. Hesab edir ki, Azərbaycan ilə Ermənistan arasında sabit və inkişafa yönəlmiş mühitin formalaşması üçün bu yanaşmanın alternativi yoxdur.







# Sosial Xidmətlər Agentliyi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında razılaşma sənədi imzalanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) arasında "Əsas yardım - qeyri-qida vasitələrinin ianə edilməsi haqqında" razılaşma sənədi imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi agentliyin sədri Vüqar Behbudov və BMT QAK-ın Azərbaycandakı nümayəndəsi Quido Ambroso imzalayıb.

V.Behbudov bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu ötən il Vətən müharibəsində tarixi Zəfər əldə etdi, torpaqlarımızın Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına cəmi 44 gün ərzində son qoydu. Qüdrətli ordumuzla döyüş meydanında bacarmayan Ermənistan silahlı qüvvələri cəbhədən xeyli uzaqda yerləşən şəhər və rayonlarımızı müxtəlif növ silahlarla, o cümlədən raketlərlə atəşə tutdu, mülki şəxsləri qətlə yetirdi, infrastruktur obyektlərinə, mülki əhaliyə külli miqdarda ziyan vurdu.

Qeyd olunub ki, Ermənistan silahlı qüvvələrinin təcavüzündən zərər çəkmiş ailələrə BMT QAK tərəfindən müvafiq ləvazimatlar formasında humanitar yardım göstərilməsi nəzərdə tutulub.

Bu məqsədlə oktyabr ayında Gəncə şəhərində, Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Goranboy rayonlarında yaşayan və erməni təcavüzündən zərər çəkmiş ailələrə BMT QAK-ın yardımı olaraq qeyri-ərzaq dəstləri paylanılacaq. Humanitar yardımların ailələrə çatdırılması, bu sahədə nəzarət-monitorinqin həyata keçirilməsi işləri Sosial Xidmətlər Agentliyi tərəfindən yerinə yetiriləcək.

Q.Ambroso budəfəki yardımların digər humanitar yardımlardan həcminə görə ciddi fərqləndiyini qeyd edib. Ümumi dəyəri 738 min ABŞ dolları olan qeyri-qida vasitələrinin ianə edilməsində ciddi nəzarət-monitorinq sisteminin olacağı, prosesə həmin regionlarda humanitar yardımlarla bağlı ixtisaslaşmış əməkdaşların cəlb ediləcəyi bildirilib.

## Milli Məclisin iclasında

# Vətən müharibəsi tariximizin qəhrəmanlıq, şərəf və milli qürur səhifəsidir

## Parlamentin payız sessiyası öz işinə başladı

Sentyabrın 30-da Milli Məclisin 2021-ci ilin payız sessiyasında ilk plenar iclası keçirildi. Milli Məclisin Sədri Sahibə Qafarova payız sessiyasını açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Spiker deputatları payız sessiyasının başlaması münasibəti ilə təbrik etdi və fəaliyyətlərinin səmərəli olmasını arzuladı.




Spiker Sahibə Qafarova bildirdi ki, sentyabrın 27-də ölkəmizdə Anım günü qeyd edildi. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq Bakı şəhərində keçirilmiş yürüşdə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, respublukamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva iştirak etdilər.

Həmin gün Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyuldu. Dövlət başçısı xalqa etdiyi müraciətində ədalət, ləyaqət və milli qürur uğrunda 44 günlük Vətən müharibəsində böyük Qələbəmizi şərtləndirən amillər haqqında geniş məlumat verdi, 30 il ərzində torpaqlarımızı işğal altında saxlamış, həm işğal, həm də müharibə dövründə dinc əhaliyə qarşı qanlı cinayətlər törətmiş erməni faşizminin iç üzünü açıb göstərdi, bundan sonra Azərbaycan dövlətinin qalib dövlət kimi, Azərbaycan xalqının qalib xalq kimi əbədi yaşayacağını bəyan etdi.

Sahibə Qafarova dedi ki, möhtərəm Prezidentimizin bu sözləri hər birimizin ürəyindən xəbər verirdi: "... Əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!

...Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Milli Məclisin Sədri öz adından və deputatlar adından bu möhtəşəm Qələbəni xalqımıza bəxş etmiş Müzəffər sərkərdəmiz İlham Əliyevə, Azərbaycanın cəsur əsgər və zabitlərinə bir daha sonsuz minnətdarlığını ifadə etdi, qazilərimizə möhkəm cansağlığı, döyüşlərdə xəsarət almış hərbçilərimizə şəfa dilədi.

Spiker təəssüflə qeyd etdi ki, müharibədə itkilərimiz də olmuşdur. Birinci və İkinci Qarabağ müharibələrində, digər döyüş əməliyyatlarında Vətən və xalq yolunda canından keçmiş şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad olundu. Sahibə Qafarova Allahdan bütün şəhidlərimizə rəhmət dilədi.

Parlamentin Sədri bu ilin yaz və növbədənkənar sessiyalarının yekunları barədə deputatlara məlumat verdi. Qeyd olundu ki, 3 sessiyada 22 iclas keçirilib, 120 qanun və qərar qəbul edilib. Ölkənin ictimai-siyasi və iqtisadi həyatının mühüm məsələlərinə münasibət bildirilib. Milli Məclisin beynəlxalq fəaliyyəti sessiyadan sonrakı dövrdə də uğurla davam etdirilib. Bir sıra ölkələrə səfərlər həyata keçirilmiş, xarici ölkələrin təmsilçiləri Milli Məclisdə qəbul ediliblər. Nümayəndə heyətlərimiz üzv olduğumuz beynəlxalq təşkilatların fəaliyyətində yaxından iştirak ediblər.

Milli Məclisin beynəlxalq əlaqələri ilə bağlı ən mühüm hadisələrdən biri iyul ayının sonlarında Türkiyə Böyük Millət Məclisinin Sədri cənab Mustafa Şentopun və Pakistan Milli Assambleyasının Sədri cənab Əsəd Qeysərin Azərbaycana səfəri və iyulun 27-də Bakıda Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşünün keçirilməsi olub. Üç dost və qardaş ölkənin yeni üçtərəfli parlament əməkdaşlığı formatının əsası qoyulub. Parlament sədrlərinin birinci görüşünün yekununda Bakı Bəyannaməsi qəbul edilib.

Sahibə Qafarova iyul-avqust aylarında Milli Məclisdə Koreya Milli Assambleyasının Sədri Park Byonq-Soq, Fransa Milli Assambleyasının nümayəndə heyəti, Qırğızıstan Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev, Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkarimov ilə görüşlər keçirdiyini, görüşlərdə ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirə edildiyini deyib.

Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Numan Kurtulmuşun başçılıq etdiyi nümayəndə heyəti də Milli Məclisin qonağı olub. Bütün görüşlərdə 44 günlük Vətən müharibəsinin nəticələri haqqında məlumat verilib. Torpaqlarımızın 30 ilə yaxın erməni işğalı altında olması, erməni vandallarının işğal dövründə şəhər və kəndlərimizi viran qoyması, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarının heç bir nəticə verməməsi, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz gücü ilə təmin etməsi, habelə müharibədən sonrakı dövrdə Ermənistanın minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsi, bu səbəbdən hərbi qulluqçularımızın və dinc sakinlərin minalara düşərək həlak olması barədə məlumatlar rəsmi şəxslərin və nümayəndə heyətlərinin nəzərinə çatdırılıb.

Spiker bu dövrdə keçirilmiş görüşlər arasında AŞ PA-nın Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin üzvü, məruzəçi Pol Qavanilə görüşünü ayrıca qeyd edərək, deyib ki, çox tez-tez bu təşkilatda ölkəmizə qarşı qeyri-obyektiv və ədalətsiz münasibətin, yalan iddialara əsaslanan qərəzli yanaşmanın şahidi olmuşuq. "Bu mənada hesab edirəm ki, Azərbaycan həqiqətlərini Avropadakı həmkarlarımıza anladıb qəbul etdirmək üçün hər bir imkandan istifadə edilməlidir. Görüşdə mən məruzəçi Pol Qavan tərəfindən hazırlanan "Ermənistan və Azərbaycan arasında münaqişənin humanitar nəticələri" adlı hesabat haqqında danışaraq xüsusi vurğuladım ki, Ermənistan işğala məruz qalmayıb, Ermənistan ərazisində nə müharibə olub, nə də orada müharibə dağıntıları var. Bu gün Azərbaycanın bir çox şəhər və rayonlarında isə Ermənistanın işğalçılıq siyasətinin, terrorunun, Ermənistanın müharibə cinayətlərinin izlərinə rast gəlinir. Bu baxımdan hazırlanan hesabat obyektiv faktlara əsaslanmalı və AŞ PA ədalətli bir yanaşma ortaya qoymalıdır" deyə spiker vurğulayıb.

Sahibə Qafarova bu dövrdə Milli Məclisdə keçirilmiş mühüm görüşlər arasında Azərbaycanın bir sıra xarici ölkələrdə - Türkiyə, Pakistan, Polşa, Avstriya, Belçika, Latviya, Estoniya, Moldova və Koreyada səfirləri, Avropa Şurası yanındakı daimi nümayəndəliyinin rəhbəri, ABŞ-ın Los Anceles şəhərindəki baş konsulu ilə görüşləri qeyd edib.

Milli Məclisin Sədri bildirib ki, avqustun 6-da İran İslam Respublikasının yeni seçilmiş Prezidenti Seyid İbrahim Rəisinin andiçmə mərasimində iştirak etmək üçün bu ölkədə rəsmi səfərdə olub. Səfər çərçivəsində onun İran İslam Şurası Məclisinin Sədri Məhəmmədbaqer Qalibaf və İran parlamentinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə görüşü keçirilib. Azərbaycan nümayəndə heyəti səfər zamanı İran Prezidenti Seyid İbrahim Rəisi ilə də görüşüb.

Sentyabr ayının əvvəllərində Sahibə Qafarovanın rəhbərliyi ilə nümayəndə heyəti parlament spikerlərinin 5-ci dünya konfransında iştirak etmək üçün Avstriyada işgüzar səfərdə olub. Sentyabrın 13-də Milli Məclisin Sədri ölkəmizdə səfərdə olan Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Öz nitqində Sahibə Qafarova sentyabrın 15-də İslam Əməkdaşlığı Təşkilatının Ombudsmanlar Assosiasiyasının nümayəndə heyəti ilə görüşdüyünü deyib. Qeyd edib ki, Assosiasiyanın sədri, Türkiyənin baş ombudsmanı Şeref Malkoç, Türkiyə ombudsmanı Celile Özlem Tuncak və Pakistan ombudsmanının müşaviri Məhəmməd Cavid Qani Azərbaycana çox gərəkli bir missiya ilə gəlmişdilər.

Sentyabrın 27-dən 29-dək Sahibə Qafarovanın rəhbərliyi ilə parlament nümayəndə heyəti Qazaxıstan Respublikasında işgüzar və rəsmi səfərlərdə olub.

Sahibə Qafarova bildirib ki, sessiyalar arasındakı dövrdə Milli Məclisdə mühüm bir tədbir də baş tutmuşdur. "Vətən müharibəsinin birinci ildönümü: postmüharibə dövründə icra və qanunvericilik hakimiyyətləri arasında əməkdaşlığın prioritetləri" mövzusunda videokonfrans keçirilmişdir. Konfransda Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, Milli Məclisin, komitə və komissiyaların rəhbərliyi, həmçinin Prezident Administrasiyasının və Milli Məclis Aparatının əməkdaşları iştirak etmişlər.

Sonra plenar iclasın gündəliyi təsdiq olundu və gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı.

İlk olaraq Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il payız sessiyasının qanunvericilik işləri planı müzakirə olundu. Parlamentin komitə sədrləri Zahid Oruc, Musa Quliyev, Əhliman Əmiraslanov, Qənirə Paşayeva, Ziyafət Əsgərov, deputatlardan Musa Qasımlı, Azər Badamov, Fazil Mustafa, Əli Məsimli, Aydın Mirzəzadə, Razi Nurullayev, Sahib Alıyev, Jalə Əliyeva, Hikmət Məmmədov çıxış ediblər. Deputatlar qanunvericilik işləri planını məqbul hesab etdilər, bir sıra təkliflər səsləndirdilər.

Çıxışlarda Anım günündə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda keçirilən yürüşdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı xüsusi qeyd edildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər tarixi ədalətin bərpası kimi dəyərləndirildi. Dövlət başçısı İlham Əliyevin Azərbaycanın şanlı qələbəsindəki rolu və xidmətləri yüksək qiymətləndirildi.

Müzakirələrin yekununda Milli Məclisin 2021-ci il payız sessiyasının qanunvericilik işləri planı səsə qoyularaq qəbul edildi.

Gündəliyin ikinci məsələsi Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı ilə bağlı idi. Milli Məclisin Sədri Sahibə Qafarova dedi ki, ötən ilin sentyabr-noyabr aylarında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin Zəfər yürüşü xalqımızın qəhrəmanlıq tarixində yeni şanlı səhifə açıb. Əldə edilən parlaq Qələbə sayəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulub, dövlətimizin ərazi bütövlüyü bərpa olunub. Spiker öz əminliyini bildirdi ki, on illər, yüz illər keçəcək, ancaq 44 günlük Vətən müharibəsində xalqımızın göstərdiyi cəsarət, fədakarlıq heç zaman unudulmayacaq və bir daha sınaqdan çıxmış torpaq, Vətən məhəbbətinin şöləsi daim gur yanacaq, yeni-yeni nəsillərimizi qələbədən-qələbəyə aparacaq.

Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Milli Məclisin Bəyanat layihəsinin mətnini oxudu. Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı dinlənildikdən sonra səsə qoyularaq qəbul edildi.

Fasilədən sonra gündəlikdəki məsələlərin müzakirəsi davam etdirildi. Gündəliyin üçüncü məsələsi "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya qanununun layihəsi idi. Milli Məclisin Sədri diqqətə çatdırdı ki, Konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. Biz bu qanun layihəsinə yaz sessiyasının birinci iclasında birinci səsvermədə münasibət bildirmişik. İndi isə onu ikinci səsvermədə qəbul etməliyik.

Qanun layihəsini təqdim edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, bu, çox əhəmiyyətli bir qanun layihəsidir. Qanunvericilik təşəbbüsü hüququ qaydasında Azərbaycan Prezidenti tərəfindən təqdim edilən qanun layihəsi normayaratma fəaliyyətində kompleks və vahid yanaşma, sabitlik, sistemliliyin təmin edilməsi və bu sahədə səmərəliliyin artırılması məqsədilə hazırlanıb. Dəyişikliklər normayaratma fəaliyyətinin təkmilləşdirilməsini nəzərdə tutur.

Qanun layihəsi ikinci səsvermədən keçərək qəbul edilli.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu arasında məktublar mübadiləsi formasında bağlanmış Sazişin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədə məlumat verdi.

Qeyd olunan məsələyə parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxıldığına görə deputat Azər Kərimli komitənin rəyini bildirdi.

Qanun layihəsi səsə qoyularaq qəbul olundu.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini təqdim etdi. Bildirdi ki, Azərbaycan və Türkiyə strateji müttəfiqdirlər. İki ölkə arasında ən yüksək səviyyədə möhkəm münasibətlər qurulub. Bu gün Azərbaycan və Türkiyə əsgərləri birgə təlimlər keçirlər. Qeyd edilib ki,iki ölkə arasında hərbi əməkdaşlığın inkişafı regionda sülhün,təhlükəsizliyin və sabitliyin bərqərar olmasıbaxımından çox əhəmiyyətlidir. Adıçəkilən Anlaşma memorandumunun təsdiq edilməsi bu sahədə münasibətlərimizin dərinləşməsi üçün atılan mühüm addımdır. Sənəd Azərbaycanın milli maraqlarına tamamilə cavab verir.

Deputat Azər Kərimli qanun layihəsi barədə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyini diqqətə çatdırdı. Deputatlar Fəzail Ağamalı, Sahib Alıyev, Elman Nəsirov Azərbaycanla Türkiyə xüsusi təyinatlılarının təliminə dair Anlaşma Memorandumu barədə öz fikirlərini açıqladılar.

Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim etdi. Eyni mahiyyətə malik qanun layihələrinə əsasən, Azərbaycan Prezidentinin 2015-ci il 3 iyun tarixli 1255 nömrəli Sərəncamına əsasən yaradılmış Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidenti tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün malların idxalı 2016-cı il mayın 1-dən 5 il müddətinə ƏDV tutulmasından və gömrük rüsumlarından azad edilib. Həmin müddətin cari ildə bitməsini nəzərə alaraq və bu sahədə fəaliyyətin dəstəklənməsinin davam etdirilməsi məqsədilə ƏDV-dən və gömrük rüsumlarından azadolmanın daha beş il müddətinə uzadılması təklif olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul olundu.

Komitə sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verdi. Diqqətə çatdırıldı ki, vergi orqanları tərəfindən tətbiq edilən sanksiyalardan və cərimələrdən İqtisadiyyat Nazirliyinin hesabına daxil olan vəsaitin bir hissəsinin dövlət və ictimai əhəmiyyətli məqsədlərlə əlaqədar, o cümlədən "YAŞAT" Fonduna köçürülməsi üçün Vergi Məcəlləsinə dəyişiklik nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq qəbul olundu.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verdi. Bildirdi ki, nəzərdə tutulan dəyişiklik "Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə 1 fevral 2021-ci il tarixli qanuna uyğunlaşdırılması məqsədilə hazırlanıb. Həmin qanunda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dairəsinə şəhid ailəsinin üzvləri də aid edilmiş, peşə hazırlığının, işsiz şəxslərin özünüməşğulluğunun və sosial iş yerlərinin təşkili zamanı onlara da digər həssas qruplarla birlikdə üstünlük verilməsi təsbit edilir.

Musa Quliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd olundu ki, sənəd "Sosial müavinətlər haqqında" 2020-ci il 29 dekabr tarixli qanuna və Azərbaycan Prezidentinin 2020-ci il 30 dekabr tarixli Fərmanına əsasən hazırlanıb. Həmin qanunvericilik aktlarına əsasən, şəhid ailəsi üzvləri üçün nəzərdə tutulan müavinət Azərbaycan Prezidentinin təqaüdü ilə birləşdirilib və təqaüdün məbləği 300 manatdan 500 manata çatdırılıb. Şəhid ailəsi üzvləri üçün kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət təqaüdlə əvəz olunduğu üçün müvafiq dəyişiklik təklif olunur. Həmçinin mövcud qanunvericiliyə əsasən, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət təminatında olduqları üçün bu dəyişiklik təklif edilir.

Parlamentin komitə sədrləri Hicran Hüseynova, Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Əli Məsimli, Fəzail Ağamalı, Etibar Əliyev, Səttar Möhbalıyev, İlham Məmmədov, Şahin İsmayılov, Vahid Əhmədov qanun layihələri barədə öz qeydlərini diqqətə çatdırdılar.

Komitə sədri Musa Quliyev müzakirələrdə səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edildi.

İclasda "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov dedi ki, dəyişikliklər müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması məqsədilə hazırlanıb və onların məhkəməyə verilən iddia ərizələri üzrə və mənzilin alqı-satqısı zamanı dövlət rüsumu ödəməkdən azad edilməsini nəzərdə tutur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda diqqətə çatdıran komitə sədri Tahir Mirkişili bildirdi ki, təklif olunan dəyişiklik daxildə emal xüsusi gömrük proseduru altında malların yerləşdirilməsinə görə təminatın məcburi olaraq təqdim edilməsi tələbinin ləğv edilməsini, həmin prosedurun gömrük təminatının verilməsinin fakültativ halı kimi müəyyən olunmasını nəzərdə tutur. Bununla əlaqədar məcburi olaraq təminatın verilməsi ilə bağlı tələbi nəzərdə tutan 167.3.2-ci maddədən daxildə emal xüsusi gömrük proseduru çıxarılır və malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsinə təminat verilməsinin fakültativ (məcburi olmayan) halı kimi müəyyən edilməsinə dair yeni 167.3-1-ci maddə əlavə edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İclasda daha sonra "Valyuta tənzimi haqqında", "Kredit ittifaqları haqqında", "Banklar haqqında", "Poçt haqqında", "Mühasibat uçotu haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Kredit büroları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə də birinci oxunuşda ) müzakirə olundu. Bildirildi ki, layihə "Mühasibat uçotu haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2018-ci il 4 may tarixli qanundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb. Təklif olunan layihə maliyyə bazarı institutları tərəfindən mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib, təqdim və dərc edilməsi ilə bağlı məsələləri tənzimləyir. Bununla bağlı adıçəkilən qanunlara mühasibat uçotunun aparılması ilə bağlı yeni müddəaların daxil edilməsi, maliyyə bazarı institutlarının fəaliyyətində şəffaflığın və onların Mərkəzi Bank qarşısında maliyyə hesabatlığının artırılmasını nəzərdə tutan müddəaların təsbit edilməsi, bəzi dəqiqləşdirmə xarakterli düzəlişlərin edilməsi nəzərdə tutulub.

Qanun layihəsi birinci oxunuşda qəbul olundu.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim etdi. Qeyd olundu ki, nəzərdə tutulan dəyişiklik icbari tibbi sığorta ilə əhatə olunmayan və dövlət tibb müəssisələri üzrə əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərinin təsdiq edilməsinin hüquqi əsasının yaradılması məqsədi ilə hazırlanıb. Qanuna edilən əlavəyə əsasən, "Tibbi sığorta haqqında" qanuna uyğun olaraq xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan təsdiq edir.

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Daha sonra komitə sədri Əhliman Əmiraslanov Mülki Məcəllədə, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə birinci oxunuşda məlumat verdi. Bildirdi ki, qanun layihəsi səhiyyədə icbari tibbi sığortanın tətbiqinin maliyyə dayanıqlığının təminatı və icbari tibbi sığorta haqlarının müəyyən məsələləri ilə bağlı hazırlanıb.

Deputatlar Fəzail Ağamalı, Səttar Möhbalıyev, Etibar Əliyev sənəd barədə öz fikirlərini söylədilər.

Komitə sədri Əhliman Əmiraslanov səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar

## Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

"Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmış ərazisinin Ermənistan tərəfindən işğalına son qoyulmasını, dövlətimizin ərazi bütövlüyünün bərpasını təmin etmiş 44 günlük Vətən müharibəsinin başlanmasından 1 il keçir. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın əsarətdən azad edilməsi son iki yüz ilə yaxın dövrdə xalqımızın məruz qaldığı torpaq itkiləri, etnik təmizləmələr və deportasiyalar silsiləsinə son qoymuş və onun tarixində yeni dövr açmışdır.

Məlum olduğu kimi, Ermənistan Respublikasının heç bir tarixi və hüquqi faktlara söykənməyən əsassız ərazi iddiaları və təcavüzkarlıq siyasəti ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Respublikası ərazisinin 20 faizinin işğal olunmasına gətirib çıxarmışdır. Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazisində qəddarcasına etnik təmizləmə aparılmış, 1 milyon azərbaycanlı ata-baba yurdlarından qovulmuşdur. Azərbaycanlılara qarşı milli nifrət və düşmənçilikdən qaynaqlanan cinayət aktları həyata keçirilmiş, XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı, bir sıra digər soyqırım əməlləri törədilmişdir.

Dörd ilə yaxın davam edən Birinci Qarabağ müharibəsinin gedişində Ermənistan silahlı qüvvələri tərəfindən 20 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, 50 mindən çox adam yaralanmış və ya şikəst edilmişdir. 4750 nəfər əsir və itkin düşmüş, girov götürülmüşdür. 877 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. İşğal olunmuş ərazilərdə Azərbaycanın tarixi, milli və mədəni irsi amansızlıqla məhv edilmişdir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamədə, bir sıra digər nüfuzlu beynəlxalq təşkilatların aktlarında Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi təsdiq edilmiş, Ermənistan silahlı qüvvələrinin işğal etdikləri ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmiş, daimi yaşayış yerlərindən didərgin düşmüş insanların öz torpaqlarına geri dönməsi hüququ təsbit edilmişdir. Münaqişənin nizama salınması üçün vasitəçilik səyləri göstərən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin, yəni Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişilməlidir və məsələ tezliklə öz həllini tapmalıdır. Təəssüf ki, münaqişənin həll edilməsi üçün Minsk qrupunun və digər beynəlxalq təşkilatların göstərdikləri səylər Ermənistanın qeyri-konstruktiv və pozucu mövqeyi üzündən heç bir səmərə verməmişdir. Üstəlik, bölgədə sülh və sabitlik yaradılmasında marağı olmayan xarici qüvvələrdən dəstək alaraq, Ermənistan Respublikası aparılan danışıqlar prosesini pozmaq və özgə torpaqlarının işğalını əbədiləşdirmək üçün davamlı cəhdlər göstərmişdir.

Beynəlxalq təşkilatların qətiyyətsizliyindən istifadə edən Ermənistan tərəfi 2016-cı ilin aprel ayında, 2020-ci ilin iyul və avqust aylarında Azərbaycan Silahlı Qüvvələrinin ön mövqelərinə hücum etmiş və dinc yaşayış məntəqələrini iriçaplı toplardan, raket qurğularından, zirehli texnikadan və atıcı silahlardan atəşə tutmuşdur. Bu təxribatlara cavab olaraq Azərbaycan Respublikasının gördüyü tədbirlər Ermənistan silahlı qüvvələrinin canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilər verməsinə gətirib çıxarmışdır. 2020-ci il sentyabrın 27-də növbəti təxribatdan sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə etmiş və təcavüzkarı sülhə məcbur etmək, Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ilk günlərdən Ermənistan silahlı qüvvələrini ağır məğlubiyyətə uğratmışlar.

Döyüş meydanında aciz durumda qalan Ermənistan silahlı qüvvələri beynəlxalq hüquq normalarını və prinsiplərini, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı dəhşətli cinayətlər törətmişlər. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Mingəçevir, Bərdə, Tərtər, Qəbələ şəhərlərinə, Siyəzən, Xızı rayonlarına, digər yaşayış məntəqələrinə ballistik raketlər, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli mərmilər ilə edilən hücumlar müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdir.

Dinc yaşayış məntəqələrinə 227 raket və 30 minə yaxın mərmi atılmış, nəticədə 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilmiş, 450-dən çox insan yaralanmışdır. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər və çoxmənzilli yaşayış binaları dağıdılmış və ya onlara ciddi ziyan vurulmuşdur.

Lakin bu qanlı hücumlar və vəhşilik əməlləri Azərbaycanı öz məqsədindən geri döndərə bilmədi. O ağır günlərdə bütün xalqımız, o cümlədən Ermənistanın dövlət terrorizmi aktlarına məruz qalan dinc şəhərlərin sakinləri Ali Baş Komandanın ətrafında daha sıx birləşdilər.

Müharibə cinayətlərinin və insanlıq əleyhinə cinayətlərin qarşısının alınması üçün Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əməliyyatlar işğalçı qüvvələrə sarsıdıcı zərbələr endirilməsinə, onların minlərcə canlı qüvvəsinin, çoxlu sayda hərbi texnikasının və silahlarının məhv edilməsinə və ya qənimət götürülməsinə gətirib çıxardı. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Suqovuşan və Hadrut qəsəbələri, ümumən, 300-ə yaxın yaşayış məntəqəsi azad edildi.

Döyüş meydanında qazanılmış parlaq və möhtəşəm Qələbə siyasi müstəvidə əldə edilən uğurlarla möhkəmləndirildi. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanat 30 ildən artıq davam edən münaqişəyə son qoyaraq, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatını təqdim etdi. Bəyanatın müddəalarına uyğun olaraq, Kəlbəcər, Ağdam və Laçın rayonları dinc yolla Azərbaycan Respublikasına qaytarıldı.

Azərbaycan BMT-nin, digər beynəlxalq təşkilatların münaqişəyə dair sənədlərinin icrasını faktiki təmin edərək, ərazi bütövlüyünün bərpasına nail olmuş, Cənubi Qafqaz bölgəsində yeni geosiyasi reallıq yaratmışdır. Azərbaycanın əzəli və tarixi torpağı olan Qarabağın həyatında yeni dövr - bərpa və quruculuq dövrü başlanmışdır.

30 illik işğal dövründə vandalcasına viran qoyulmuş torpaqlarda yaşayış məntəqələrinin bərpası layihələri həyata keçirilir, infrastruktur obyektləri qurulur, hava limanları, yollar, körpülər, tunellər, digər obyektlər inşa olunur, elektrik, su xətləri çəkilir. Məcburi köçkünlərin mümkün qədər tez müddətdə doğma yurdlarına qayıtması üçün şərait yaradılır.

Regionda dinc həyatın sahmana salınması, davamlı sülhün təmin edilməsi üçün Azərbaycanın lazımi addımlar atdığı bir vaxtda, təəssüf ki, Ermənistanda bəzi dairələr və onları dəstəkləyən qüvvələr revanşist planlar qurur, hərbi məğlubiyyətin əvəzini çıxmaq, Azərbaycan torpaqlarını yenidən işğal etmək, bir daha regionu fəlakət girdabına sürükləmək xəyalları ilə yaşayırlar. Müharibə başa çatdıqdan sonra Azərbaycan Respublikasının hakimiyyət orqanları Ermənistan Respublikasına dəfələrlə müraciət edərək, ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə böyük sülh müqaviləsi imzalamağı təklif etmişlər. Lakin qarşı tərəf müxtəlif bəhanələr gətirərək sülh təkliflərini qəbul etməkdən yayınmışdır.

Ermənistan Respublikası Azərbaycanla dövlət sərhədinin delimitasiya və demarkasiya olunmamasından istifadə edərək sərhəddə təxribatlar törədir, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti məsuliyyət dairəsinə aid edilmiş Laçın dəhlizi vasitəsi ilə yaraqlıların və hərbi yüklərin daşınmasını təşkil edir, Azərbaycan Silahlı Qüvvələrinə qarşı müntəzəm təxribatlar törədir, müharibə başa çatdıqdan sonra Azərbaycan ərazisində yaxalanmış təxribatçıları hərbi əsirlər kimi qələmə verir, ölkəmizə qarşı qarayaxma kampaniyası aparır. Darmadağın edilmiş erməni ordusunun bərpası, təcavüzkar dövlətin müasir silahlar və hərbi texnika ilə təchiz edilməsi niyyəti elan olunmuşdur. Qarabağ ərazisində separatçılığın dirçəldilməsinə cəhdlər göstərilir. Üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq erməni silahlı birləşmələri Qarabağ ərazisindən hələ də tam çıxarılmamışdır.

Ermənistan tərəfi işğal olunmuş Azərbaycan ərazilərində yüz minlərcə tank və piyada əleyhinə minalar basdırmış və israrlı tələblərdən sonra minalanmış sahələrin kiçik bir hissəsinin xəritəsini vermişdir. Lakin məlum olmuşdur ki, həmin xəritə real vəziyyətin yalnız 25 faizini düzgün əks etdirir. Minalanmış bütün ərazilərin düzgün xəritələrini verməkdən imtina edilməsi Ermənistanın törətdiyi çoxsaylı müharibə cinayətlərindən biridir. Hərbi əməliyyatların başa çatmasından sonrakı dövrdə 159 insan, o cümlədən mülki şəxslər Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minaların partlaması nəticəsində həlak olmuş və ya yaralanmışlar.

Xüsusi narahatlıq doğuran cəhət budur ki, bəzi dövlətlər öz maraqlarını həyata keçirmək vasitəsinə çevirdikləri münaqişəyə son qoyulması ilə barışmaq istəmirlər. Bu dövlətlər öz bəyanatları və hərəkətləri ilə regionda sülh və sabitliyin bərqərar edilməsinə, əslində, mane olurlar. ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyətinin bərpa edilməsinə cəhdlər göstərilir, Qarabağda 25 min erməninin yaşadığı əraziyə ayrıca status verilməsi barədə iddialar irəli sürülür.

Unutmaq lazım deyil ki, Azərbaycan Respublikası münaqişəni öz gücü ilə həll etmiş və əvvəlki formatda vasitəçilik səylərinə, əslində, ehtiyac qalmamışdır. Digər tərəfdən, Azərbaycan qədim tolerantlıq ənənələrinə malik olan çoxmillətli unitar dövlətdir və burada bütün etnik qrupların nümayəndələri bərabərlik və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Bu ölkə bütün Azərbaycan vətəndaşlarının ümumi və bölünməz vətənidir. Qarabağda yaşayan ermənilər Azərbaycanın digər vətəndaşları ilə eyni hüquq və azadlıqlara malikdirlər və onlara hər hansı statusun verilməsindən söhbət gedə bilməz.

Azərbaycan Respublikasının Milli Məclisi ümid etdiyini bildirir ki, uzunmüddətli münaqişə başa çatdıqdan sonra Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında daimi sülhün bərqərar edilməsi, sivil dövlətlərarası münasibətlər qurulması, bu dövlətlərin ərazisində Azərbaycan və erməni xalqlarının nümayəndələrinin dinc yanaşı həyatının təmin edilməsi üçün yaranmış tarixi imkan lazımınca dəyərləndiriləcək. Azərbaycan Respublikası bölgənin bütün etnik qrupların nümayəndələrinin firavanlıq şəraitində yaşadıqları sülh, sabitlik və inkişaf məkanına çevrilməsi üçün özündən asılı olan bütün tədbirləri görməkdə davam edəcək".

# İqtisadiyyat Nazirliyində Türkiyə şirkətləri ilə müqavilələr imzalanıb

Sentyabrın 30-da Azərbaycan Respublikasının Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismara verilməsi ilə bağlı Türkiyənin "Eti Bakır A.Ş." və "Artvin Maden A.Ş." şirkətləri ilə müqavilələrin imzalanma mərasimi keçirilib.








AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısının "Azərbaycan Respublikasının Qaşqaçay, Elbəydaş və Ağduzdağ filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Sərəncamının icrasının təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər barədə məlumat verib. Qeyd edilib ki, bu gün imzalanan müqavilələr Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq təməllərinin möhkəmliyini, eləcə də daim inkişaf etməkdə olan əməkdaşlıq əlaqələrimizi səciyyələndirir. İşğaldan azad edilmiş ərazilərin inkişafı üzrə həyata keçirilən layihələrdə lazımi dəstəyin göstərilməsi ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə, iqtisadi əməkdaşlığın daha da dərinləşməsinə, habelə sonrakı dövrlərdə nəzərdə tutulmuş planların reallaşdırılmasına töhfə verəcək.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev işğaldan azad edilmiş torpaqlarımızın zəngin təbii resurslara malik olduğunu, buradakı yataqların istismara verilməsinin dağ-mədən sənayesinin inkişafında, yeni emal sahələrinin yaradılmasında əhəmiyyətini vurğulayıb, bu sahədə böyük potensialı qeyd edərək yeni yataqların tədqiqi işlərinin aparıldığını bildirib.

Türkiyənin "Eti Bakır A.Ş." və "Artvin Maden A.Ş." şirkətlərinin səhmdarı Mehmet Cengiz imzalanan müqavilələrin ikitərəfli iqtisadi əməkdaşlığa, işğaldan azad edilmiş Azərbaycan ərazilərində müəssisələrin açılmasına, iş yerlərinin yaradılmasına daha bir töhfə olduğunu qeyd edib.

Tədbir çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində iqtisadi quruculuq işləri, faydalı qazıntı yataqlarının geoloji öyrənilməsi və istismarına dair təqdimatlar keçirilib.

Sonda Azərbaycan Respublikasının İqtisadiyyat və Ekologiya və Təbii Sərvətlər nazirlikləri ilə Türkiyənin "Artvin Maden İşletmeleri A.Ş." şirkəti arasında Azərbaycan Respublikasında Elbəydaş və Ağduzdağ filiz yataqlarının geoloji öyrənilməsi və Azərbaycan Respublikasının İqtisadiyyat və Ekologiya və Təbii Sərvətlər nazirlikləri ilə Türkiyənin "ETİ BAKIR A.Ş." şirkəti arasında Azərbaycan Respublikasında Qaşqaçay filiz yatağının geoloji öyrənilməsi və faydalı qazıntıların çıxarılmasına dair müqavilələr imzalanıb. Sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və "Eti Bakır A.Ş." və "Artvin Maden A.Ş." şirkətlərinin səhmdarı Mehmet Cengiz imzalayıblar.

# Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində terrorla mübarizə mövzusunda növbəti taktiki-xüsusi təlim keçirilib

Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində terrorla mübarizə mövzusunda növbəti taktiki-xüsusi təlim keçirilib.







Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, təlimi Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev və Türkiyə Respublikası Silahlı Qüvvələrinin mənsubları izləyiblər.

Taktiki-xüsusi təlimin planı ilə tanışlıq zamanı bildirilib ki, əsas diqqət şəxsi heyətin binalarda antiterror əməliyyatlarının aparılması, əsir və girovların azad edilməsi bacarıqlarının təkmilləşdirilməsinə yönəldilib.

Təlimin ssenarisinə əsasən əhali arasında çaxnaşma yaratmaq məqsədilə şərti düşmənin təxribat-diversiya qrupunun üzvləri bir neçə mülki vətəndaşı əsir götürərək tərk edilmiş çoxmərtəbəli binada gizlənirlər.

Terrorçuların zərərsizləşdirilməsi və əsir götürülmüş mülki vətəndaşlarımızın azad edilməsi tapşırığını almış xüsusi təyinatlı qruplar helikopter və zirehli avtomobillərlə eyni anda binaya həmlə edirlər.

Antiterror əməliyyatlarının icrası zamanı yaralanan hərbi qulluqçumuza çevik şəkildə tibbi yardım göstərilir və yaralının təhlükəsiz şəkildə helikopterlə təxliyyəsi həyata keçirilir.

Müxtəlif üsul və vasitələrdən istifadə edərək binaya daxil olan xüsusi təyinatlı qruplar təxribatçıları zərərsizləşdirməyə davam edirlər.

Xüsusi təyinatlılarımız yaxın döyüş və atəş üsullarının tətbiqi ilə təxribatçıları qarşılıqlı əlaqədə fəaliyyət göstərmək imkanından məhrum edərək zərərsizləşdirirlər.

Şərti düşmənin təxribat cəhdinin qarşısını alan xüsusi təyinatlılarımız təxribatçıların əksəriyyətini məhv edir, müxtəlif silah nümunələrini ələ keçirir, terrorçuların bir neçəsini əsir götürür və mülki vətəndaşlarımızı sağ olaraq əsirlikdən azad edirlər.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin sonunda mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə Azərbaycan-Türkiyə dostluq əlaqələrindən və hərbi əməkdaşlığından danışan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev hazırda uğurla davam edən "Sarsılmaz qardaşlıq-2021" birgə döyüş atışlı taktiki təlimi ilə bərabər müxtəlif qoşun növləri və xüsusilə də xüsusi təyinatlı bölmələrlə keçirilən taktiki-xüsusi təlimlərdə hər iki qardaş ölkənin hərbi qulluqçularının yüksək peşəkarlıq, vətənpərvərlik və döyüş əzmi nümayiş etdirdiklərini diqqətə çatdırıb.

Sonda hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

# Türkiyəyə göndərilən daha 3 qazimiz sağalaraq Vətənə geri dönüb

Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 3 qazimiz sağalaraq Vətənə geri dönüb.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, həmin qazilər İdrisov Ərşad Rafiq oğlu, Misirzadə Rahib Mübariz oğlu, Əmənli Nurlan Şirzad oğludur. Onların Türkiyədəki müalicə proseduru uğurla yekunlaşıb, qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 43 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.

Allah qazilərimizə şəfa versin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 Çağrı mərkəzi fəaliyyət göstərir.

Müdrik dövlət siyasəti

## 1 Oktyabr Prokurorluq İşçilərinin Peşə Bayramı Günüdür

# Azərbaycan prokurorluğu dövlətçiliyin və qanunçuluğun keşiyindədir

Xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər salnaməsinin memarı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik siyasi kursun möhtərəm Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində uzun illərdən sonra ölkəmiz ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. 44 günlük haqq savaşında qazanılan möhtəşəm qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, ordumuzun qüdrətini və xalqımızın milli birliyini bir daha bütün dünyaya nümayiş etdirmişdir.

Qələbəyə doğru atılan addımların ilkin təməli Ulu Öndər Heydər Əliyevin apardığı uzaqgörən və düşünülmüş siyasətin təzahürü kimi dövlətçiliyin möhkəmləndirilməsi, güclü iqtisadiyyatın qurulması, ordu quruculuğunun əsaslarının yaradılaraq silahlı qüvvələrimizin peşəkar kadrlarla təchiz edilməsi ilə qoyulmuşdur.

Dahi şəxsiyyətin layiqli davamçısı cənab İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında qazanılmış qələbənin diplomatik müstəvidə davam etdirilməsi ilə tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılan Zəfər Azərbaycanın regionda və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirməklə ölkəmizin növbəti onilliklər üçün tərəqqisinə və qələbələrinə geniş imkanlar yaratmış, "Böyük Qayıdış"ın əsasını qoymuşdur.

Dövlət başçısının qeyd etdiyi kimi, "Ölkəmiz üçün yeni dövr başlayır, quruculuq dövrü, inkişaf dövrü... biz bütün şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik, Qarabağ bölgəsində cənnət yaradacağıq". Bu baxımdan dövlət başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə və digər azad olunmuş rayonlara mütəmadi səfərləri, həyata keçirilən nəhəng infrastruktur layihələri, Qarabağın "hava qapısı" Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Zəngilan və Laçın Beynəlxalq Hava limanlarının, həmçinin Füzuli-Şuşa, Bərdə-Ağdam, Zəngilan-Horadiz avtomobil yollarının inşası doğma torpaqlarımızın dirçəldilməsinin təminatı olmuşdur.

Eyni zamanda Azərbaycan dövləti və xalqı üçün əlamətdar olan bir gündə - iyunun 15-də Şuşa şəhərində imzalanan Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik haqqında müstəsna siyasi və tarixi əhəmiyyətə malik bəyannamə Qarabağ zəfərindən sonra qazanılan növbəti tarixi uğur olmaqla iki dost və qardaş ölkə arasında mövcud əlaqələri və əməkdaşlığı yeni mərhələyə yüksəltmişdir.

Xüsusi vurğulanmalıdır ki, torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, döyüşlər zamanı yaralanan qazilər, eləcə də müharibə iştirakçıları Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna qayğısı ilə əhatə olunmuşlar.

Dövlətimizin qüdrətlənməsinə, yeni növ koronavirus (COVID-19) pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq sosial yönümlü siyasətin reallaşdırılmasına, insanları narahat edən problemlərin aradan qaldırılmasına, bütövlükdə ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlara və görülən böyük işlərə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verməkdədir.

### Prokurorluq orqanları dövlətin əsas sütunlarından biridir

Ölkədə ictimai həyatın bütün sahələrini əhatə edən sistemli islahatlar, dövlət idarəçiliyində çağdaş yanaşmanı önə çəkən ardıcıl tədbirlər hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşməsinə zəmin yaradaraq prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmişdir.

Əminliklə deyə bilərik ki, Azərbaycan prokurorluğunun qanunun aliliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə xidmət edən bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik siyasəti, yüksək qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Prokurorluq orqanlarının ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun təmini, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin "Respublika prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir" sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Təsadüfi deyil ki, Ümummilli Liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə quruma ilk dəfə olaraq konstitusion status verilmişdir.

Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən cinayətkarlığa, korrupsiyaya və kriminal xarakterli bütün mənfi təzahürlərə qarşı mübarizənin yeni müstəviyə qaldırılması, bu sahədə işin təşkilinə məsul olan hüquq mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, maddi-texniki təminatın yaxşılaşdırılması və əməkdaşların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması üçün məqsədyönlü addımlar atılmışdır.

Ölkə rəhbərinin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi milli prokurorluq orqanlarının müasirləşməsi baxımından xüsusi önəmə malik bir addım olmuşdur.

Bu gün Azərbaycanda milli prokurorluq orqanlarının yaranmasının 103-cü ili tamam olmaqla prokurorluq işçiləri, prokurorluğun veteranları, bütün hüquq ictimaiyyəti üçün əlamətdar bir hadisə kimi böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dövlətimizin üzləşdiyi siyasi və iqtisadi tənəzzül, vətəndaş müharibəsi təhlükəsi prokurorluq orqanlarının da fəaliyyətinə təsirsiz ötüşməmiş, bu dövrdə cinayətkarlığın, insan hüquq və azadlıqlarının kütləvi şəkildə pozulması halları vüsət almışdır.

Yalnız Ümummilli Liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra həyata keçirilən təxirəsalınmaz və qətiyyətli tədbirlər sayəsində ölkəmizdə dövlət çevrilişi cəhdləri, separatizm təhlükəsi aradan qalxmış, cinayətkarlığa qarşı barışmaz mübarizə elan edilməklə ictimai-siyasi sabitlik əldə edilmiş, demokratik hüquqi dövlət quruculuğu prosesinə başlanılmışdır.

Azərbaycan prokurorluğunun öz xalqının və müstəqil dövlətçiliyin maraqlarına xidmət edən, konstitusion statuslu, yüksək dünya standartlarına uyğun təsisat kimi formalaşması Ulu Öndər tərəfindən hazırlanaraq həyata keçirilməyə başlanılmış, sonradan onun layiqli davamçısı, müdrik və uzaqgörən dövlət başçısı cənab İlham Əliyev tərəfindən yeni dövrün tələbləri nəzərə alınmaqla müasir müstəvidə uğurla reallaşdırılan hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində mümkün olmuşdur.

Sevindirici haldır ki, məhz Ümummilli Lider Heydər Əliyevin prokurorluğa və prokurorluq işçilərinə diqqətinin və yüksək dövlət qayğısının təzahürü olan 17 iyul 1998-ci il tarixli sərəncamı ilə milli prokurorluq orqanlarının yarandığı gün - oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilməklə qeyd olunmağa başlanmışdır.

### Müasirləşən prokurorluq orqanları

Dövlət başçısının dəstəyi ilə prokurorluqda yeni müstəvidə islahat tədbirləri davam etdirilməklə şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Ölkə rəhbəri tərəfindən mayın 1-də baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən səsləndirilən "Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq" sözləri prokurorluq orqanlarında beynəlxalq standartlara və milli dövlətçilik maraqlarına əsaslanmaqla müasir məzmunlu islahatların əsasını qoymuşdur.

Prokurorluğun ölkəmizin müntəzəm irəliləyişlərlə müşahidə olunan dayanıqlı və davamlı tərəqqisinə, cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə qısa müddət ərzində əsaslı struktur və kadr islahatları həyata keçirilmiş, funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə işin təşkilinə dair vahid mexanizmlər müəyyən edilmişdir.

Prezident İlham Əliyevin 10 iyun 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilməklə baş prokurorun yeni müavini ştatı təsis edilmiş, daha mobil və dinamik idarəetmə məqsədilə Baş Prokurorluğun idarə və şöbələrinin sayı 15-dən 18-ə çatdırılmış, bəzi idarələr ləğv edilmiş, həmçinin mərkəzi aparatın yeni, Xidməti araşdırmalar, Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmışdır.

Prokurorluq orqanları daim möhtərəm cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş, bu baxımdan dövlət başçısının fevralın 8-də Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirakı quruma göstərilən etimadla yanaşı, prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirmişdir.

Görülən işlərin davamı olaraq, hərbi prokurorluq orqanlarının fəaliyyətinin daha səmərəli təşkilini təmin etmək məqsədilə dövlət başçısının sərəncamı ilə Qubadlı, Kəlbəcər Hərbi Prokurorluğu və Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğu yaradılmışdır.

Bu günlərdə Qubadlı və Kəlbəcər hərbi prokurorluqlarının inzibati binalarının istifadəyə verilməsi işğaldan azad edilmiş ərazilərimizin yenidən həyata qaytarılmasına dair dövlət siyasətinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir.

Prokurorluqda aparılan müasir məzmunlu islahat tədbirlərinin davamı kimi qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətdə səmərəliliyin artırılması işində müstəsna önəmə malik cənab Prezidentin 7 may 2021-ci il tarixli fərmanı bir daha ölkə rəhbərinin quruma olan inam və etimadının göstəricisi olmuşdur.

### Prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülmüş işlər

Prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə, dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin icra edilməsinə, müasir məzmunlu islahatların davam etdirilməklə işin daha da təkmilləşdirilməsinə, möhkəm nizam-intizam yaradılmaqla bütün mənfi təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilmişdir.

Daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq ölkədə dayanıqlı ictimai-siyasi sabitlik qorunaraq dövlət maraqlarının müdafiəsi, cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılmaqla kriminogen durumun stabilliyi və bütün mənfi təzahürlərin qarşısının alınması təmin edilir.

Həyata keçirilmiş səmərəli birgə tədbirlərin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və xarakterində müsbət cəhətlər davam etmiş, xüsusən əvvəlki illərdə bağlı qalmış ağır və xüsusilə ağır cinayətlərin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş 5 qəsdən adam öldürmə cinayətinin peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılması təmin edilməklə təqsirli şəxslər məhkəmə məsuliyyətinə verilmişlər.

Ümumilikdə ölkə üzrə hazırkı dövrədək cəmi 10622 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 883-ü prokurorluq orqanlarında istintaq edilmişdir. Prokurorluq orqanları tərəfindən 571, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 8378 cinayət işinin ittiham aktları ilə məhkəmələrə göndərilməsi təmin edilmişdir.

İbtidai araşdırma mərhələsində cinayət işləri üzrə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 21 milyon 184 min manat məbləğində əmlak üzərinə həbs qoyulmuşdur.

Görülmüş işlərlə yanaşı, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi üçün ötən illərdən bağlı qalan cinayət işləri üzrə təqsirli şəxslərin müəyyənləşdirilməsi məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi, istintaq taktikası və metodikasının, kriminalistikanın müasir elmi-texniki nailiyyətlərindən daha səmərəli istifadə olunmasının təmin edilməsi, eləcə də artım tendensiyası qeydə alınmış cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi qarşıda duran vəzifələrdəndir.

Dünya ölkələrini təşviş və həyəcanda saxlayan koronavirus infeksiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında müdriklik və uzaqgörənliklə həyata keçirilmiş çoxşaxəli qabaqlayıcı tədbirlər, pandemiyanın iqtisadiyyata vurduğu zərbələr fonunda insanların sağlamlığı və sosial təminatının ön plana çəkilməsi ölkəmizi gözəgörünməz düşmənin ilk həmlələrindən xilas edə bilmiş, həyata keçirilən uğurlu vaksinasiya strategiyası nəticəsində əhalimizin artıq böyük bir hissəsi peyvənd olunmuşdur.

Ötən dövr ərzində həyata keçirilən tədbirlərə zidd olaraq qanunsuz hərəkətlərə yol vermiş şəxslər barəsində, o cümlədən maddi maraq müqabilində saxta vaksin sertifikatlarının verilməsi, aztəminatlı ailələrə ayrılmış yardım paylarının mənimsənilməsi, təyinatından kənar və ya ədalətsiz bölüşdürülməsi, yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən xüsusi karantin rejimində sərbəst hərəkət hüququ verən arayışların verilməsi faktları üzrə prokuror nəzarəti tədbirləri ilə cinayət işləri başlanmaqla zəruri tədbirlər görülmüşdür.



### Vətən müharibəsində prokurorluğun fəaliyyəti

Qürurla qeyd etməliyəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Dəmir yumruq" hərbi əməliyyatları zamanı cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmişlər.

Xüsusi vurğulamaq istərdim ki, ölkə rəhbəri cənab İlham Əliyevin 31 dekabr 2020-ci il tarixli sərəncamı ilə xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə 38 əməkdaşın yüksək dövlət təltiflərinə layiq görülməsi prokurorluğun kollektivinin böyük sevincinə səbəb olmaqla göstərilən bu yüksək etimad fəaliyyətimizi daha da yüksək tələblər səviyyəsində qurmağa, gündəlik işimizdə səmərəliliyin artırılmasına rəvac vermişdir.

Müharibənin gedişində qanunsuz erməni birləşmələrinin törətdikləri hər bir cinayət faktı üzrə döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün istintaq hərəkətləri həyata keçirilməklə zəruri tədbirlər görülmüşdür.

Xain düşmənin beynəlxalq konvensiyalarda təsbit olunan müharibə qaydalarını kobud şəkildə pozaraq cəbhə zonasından kənarda yerləşən şəhərlərimizi və kəndlərimizi, infrastruktur obyektlərini raket zərbələri, o cümlədən qadağan olunan silahlarla atəşə məruz qoyması, namərd hücumlarla onlarca dinc sakinin qətlə yetirilməsi ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə 75 cinayət işi başlanmaqla işğaldan azad edilmiş 7 şəhər, 11 qəsəbə və 519 kəndə baxış keçirilmiş, digər zəruri istintaq hərəkətləri həyata keçirilmişdir.

Bundan başqa, dövlət başçısının "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 29 oktyabr tarixli fərmanından və bu istiqamətdə tapşırıqlarından irəli gələn vəzifələrin icrasının təmin olunması diqqət mərkəzində saxlanmaqdadır.

Bu məqsədlə erməni vandalizmi nəticəsində talan edilmiş, dağıdılmış yaşayış məntəqələrinə, tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın, eləcə də atəşkəsin davam etdiyi dövrdə əldən çıxmış faydanın məbləğlərinin müəyyən edilməklə beynəlxalq məhkəmələrə müraciət olunması istiqamətində prokurorluq orqanları tərəfindən digər qurumlarla əlaqəli şəkildə müvafiq işlər davam etdirilir.

Eyni zamanda işğal olunmuş ərazilərdə xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı cinayət işləri üzrə, həmçinin əzəli torpaqlarımızda qanunsuz məskunlaşmanı həyata keçirən bütün təqsirli şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri aparılır.

Vətən müharibəsi zamanı Respublika Hərbi Prokurorluğu tərəfindən də Müdafiə Nazirliyi, Sərhəd Qoşunları və digər qurumlarla birlikdə zəruri tədbirlər görülmüşdür.

### Korrupsiyaya qarşı mübarizə diqqət mərkəzindədir

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi dövlət siyasətinin və strateji inkişaf konsepsiyasının prioritetlərinə uyğun olaraq ölkədə korrupsiyaya qarşı ardıcıl və sistemli mübarizə aparılır.

Bu sosial bəlaya qarşı əks-təsir mexanizmlərindən daha geniş istifadə edilməklə onun baş verməsinə səbəb olan və şərait yaradan halların aradan qaldırılması istiqamətində mühüm islahatlar davam etdirilərək bu sahədə həyata keçirilmiş kompleks tədbirlər dinamik iqtisadi inkişafı təmin etməyə imkan vermişdir.

Korrupsiyaya qarşı mübarizə prokurorluğun fəaliyyətinin ən önəmli istiqaməti olaraq bu sahədə səmərəliliyin artırılması və daha intensiv tədbirlərin həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilməklə işin effektivliyinin yüksəlməsinə nail olunmuşdur.

Korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanlarına inamın artmasının nəticəsi olaraq ötən ilin peşə bayramından hazırkı dövrədək olan müddətdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində vətəndaşların 9109, o cümlədən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş 4367 müraciətinə baxılmaqla, prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi, o cümlədən cinayət işlərinin başlanması təmin edilmişdir.

Bu müddət ərzində baş idarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən 34 əməliyyat tədbiri nəticəsində 71 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 115 cinayət işi başlanmışdır.

Qeyd edilən dövrdə baş idarə tərəfindən 404 şəxs barəsində 221 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmiş, 11 hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat aparılaraq, hüquqi şəxslər və onun rəhbərləri məhkəmə məsuliyyətinə verilmişdir.

Məhkəmələrə göndərilmiş işlər üzrə vurulmuş maddi ziyan 153 milyon 887 min manat təşkil etməklə ibtidai istintaq dövründə 11 milyon 301 min manatın ödənilməsi, həmçinin 77 milyon 715 min manat məbləğində əmlak üzərinə həbs qoyulmaqla ümumilikdə 89 milyon 16 min manat (57,8%) məbləğində ziyanın bərpası təmin olunmuşdur.

Bundan başqa, icraatına xitam verilmiş işlər üzrə 4 milyon 587 min manat məbləğində maddi ziyan ödənilməklə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 1 milyon 62 min manat məbləğində pul vəsaiti ödənilmişdir.

Korrupsiya ilə mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsi, digər ölkələrin uğurlu təcrübələrinin və əldə olunmuş nailiyyətlərinin öyrənilməsi, qarşılıqlı təcrübə mübadiləsinin, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, habelə antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və ümumilikdə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir.

Belə ki, 17-31 may 2021-ci il tarixlərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən ölkəmizin 5-ci raund pilot qiymətləndirilməsi prosedurunun növbəti mərhələsi kimi virtual müsahibələr keçirilməklə korrupsiyaya qarşı mübarizə strategiyası fonunda iqtisadiyyat, prokurorluq və məhkəmə orqanlarının fəaliyyəti də daxil olmaqla 13 fərqli mövzu üzrə müsahibələr aparılmış, ekspert heyətinin sualları müvafiq qurumların nümayəndələri tərəfindən cavablandırılmışdır.

Göstərilənlərlə yanaşı, yenidən formalaşdırılmış Baş prokuror yanında Elmi-Məsləhət Şurasının 17 iyun tarixli üçüncü iclası çərçivəsində şuranın Antikorrupsiya Təlim Mərkəzinin yaradılması bu sahədə mütəxəssislərin peşəkarlığının artmasına xidmət edəcəkdir.

Dövlət başçısı cənab İlham Əliyevin qeyd etdiyi *"Heç kimdə immunitet yoxdur və ola bilməz. Hər kəs bilməlidir ki, heç kim məsuliyyətdən canını, yaxasını qurtara bilməz"* fikirlərinə uyğun olaraq prokurorluq orqanları tərəfindən ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, sosial, iqtisadi və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan neqativ təzahürlərə qarşı qətiyyətli mübarizə davam etdiriləcəkdir.

### Ədalət mühakiməsində dövlət ittihamının rolu

Ümumbəşəri dəyərlərə və demokratik prinsiplərə əsaslanan məhkəmə-hüquq islahatları ölkəmizdə insan hüquq və azadlıqlarının təminatlı müdafiəsi mexanizminin əsasını qoymuşdur.

Sosial ədalətin bərpası, məhkumun islah olunması və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi daşıyan cəza-hüquq siyasətinə uyğun olaraq məhkəmələrin və prokurorluq orqanlarının işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsi prosesi sistemli olaraq davam etdirilir.

Bu baxımdan birinci, appelyasiya və kassasiya instansiyası məhkəmələrində ədalət mühakiməsi zamanı yalnız prokurorluq orqanları tərəfindən həyata keçirilən dövlət ittihamı funksiyası qurumun əsas fəaliyyət istiqamətlərindən olmaqla insan hüquq və azadlıqlarının təminatının mühüm vasitəsidir.

Dövlət ittihamçıları toplanmış sübutlar əsasında cinayət törətməkdə təqsirli bilinən şəxsləri ifşa etməklə dövlət tərəfindən həyata keçirilən qanunçuluq, ədalət və əmələ görə məsuliyyət prinsiplərinə əsaslanan cinayətkarlığa qarşı mübarizəyə dair siyasətin həyata keçirilməsində yaxından iştirak edirlər.

Cari il ərzində dövlət ittihamçılarının iştirakı ilə məhkəmələrdə 15950 şəxs barəsində 13762 cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilmiş, ümumilikdə 960 qərardan protest verilmişdir.

Qeyd etmək istərdim ki, istər Vətən müharibəsi zamanı, istərsə də sonrakı dövrdə ölkəmizə qarşı terrorçuluq və digər təxribat xarakterli hərəkətlərə yol vermiş diversant qrupun üzvlərinin təqsirləndirilmələrinə dair cinayət işləri üzrə dövlət ittihamının peşəkarcasına müdafiəsi aparılmaqla məhkəmə qarşısında ifşa olunmaları təmin olunmuşdur.

### Cinayət təqibindən kənar icraatlarda iştirak təmin edilir

Prokurorluq orqanlarının müasir dövrün tələblərinə uyğun olaraq qarşısında duran əsas vəzifələrdən biri də cinayət-prosessual fəaliyyətlə yanaşı, cinayət təqibindən kənar icraatlarda, xüsusilə inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətinin həyata keçirilməsindən ibarətdir.

Bu baxımdan inzibati və mülki icraatda insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti diqqət mərkəzində saxlanılmaqla hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası, xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması, həmçinin yetkinlik yaşına çatmayanların maraqlarının qorunması, ekoloji təhlükəsizliyin və ətraf mühitin mühafizəsinin hüquqi vasitələrlə təmin olunması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Bu sahədə inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla ötən bir il ərzində 97 şəxs barəsində inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilmiş, həmçinin mülki mühakimə icraatı qaydasında və yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmələrdə baxılmış işlər üzrə 10 valideynin valideynlik hüquqlarının məhdudlaşdırılmasına dair məhkəmələrdə iddialar qaldırılmış, qanunsuz rəftara, əzab və işgəncələrə məruz qalmaları ilə əlaqədar 8 uşaq sığınacaq və körpələr evinə yerləşdirilmişdir.

Eyni zamanda sosial şəbəkələrdə dövlət orqanlarının həyata keçirdiyi tədbirlərə kölgə salan təxribat xarakterli informasiyanın yayılması faktları araşdırılmaqla, həqiqəti əks etdirməyən həmin məlumatları ictimailəşdirən şəxslər barəsində qanunamüvafiq tədbirlər görülərək qanun pozuntusuna yol verməkdən çəkindirmək haqqında xəbərdarlıqlar edilmişdir.

### Cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi xüsusi müsadirənin təmini kimi

Prokurorluğun cəmiyyətin və dövlətin mənafeyinin qorunması məqsədilə mülki hüquqi vasitələrlə cinayət nəticəsində dəymiş ziyanın ödənilməsi, cinayət yolu ilə əldə edilmiş və xüsusi müsadirənin obyekti olan üzərinə həbs qoyulan bütün növ aktivlərin, o cümlədən, kriptovalyuta vəsaitlərinin izlənilməsi, aşkar edilməsi və bərpası məqsədilə Azərbaycan Respublikası və xarici ölkələrin məhkəmələrində iddia qaldırmaqla bu sahədə səmərəli nəticələrin əldə olunması əsas vəzifələrdəndir.

Bu sahədə aparılmış islahatların nəticəsi olaraq prokurorluq orqanlarında istintaq olunan cinayət işləri üzrə vurulmuş maddi ziyan, üzərinə həbs qoyulan əmlakların, pul vəsaitlərinin, qiymətli əşyaların cinayət işlərinin müxtəlif instansiyaları üzrə hərəkəti, xüsusi müsadirənin tətbiqi üçün hökmlərin icrası qaydasında xüsusi müsadirə edilmiş əmlakların satışı və dövlət büdcəsinə daxil olan vəsaitlərə dair məlumatları özündə əks etdirən elektron məlumat bazası yaradılmışdır. Cinayət işlərinin istintaqı zamanı ibtidai istintaq müddətində vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar vəsaitlərin elektron qaydada prokurorluğun depozit hesabına yerləşdirilməsinin tətbiq edilməsinə başlanılmışdır.

Ötən müddətdə xarici ölkələrdə yerləşən əmlakların müsadirə edilməsi məqsədilə Baş Prokurorluq tərəfindən zəruri tədbirlər görülməklə Aktivlərin Bərpası üzrə Kemden Qurumlararası Şəbəkəsinin (CARIN) İdarəetmə qrupunun ümumi illik yığıncağında ölkəmiz şəbəkəyə müşahidəçi qismində üzv qəbul olunmuş və artıq bir neçə cinayət işi üzrə CARIN vasitəsilə cinayət yolu ilə əldə edilmiş vəsait hesabına xarici ölkələrdə daşınmaz əmlakların müəyyən edilərək gələcəkdə müsadirə olunması istiqamətində işlərə start verilmişdir.

Həyata keçirilmiş tədbirlərlə təqsirləndirilən şəxslərə məxsus çoxsaylı daşınar və daşınmaz əmlaklar, bank hesabları müəyyən edilməklə həmin əmlakların üzərinə müvafiq məhkəmə qərarı ilə həbs qoyulması təmin edilmiş, həmçinin ilk dəfə olaraq məhkum edilmiş şəxslərin xaricdə olan əmlaklarının müsadirə edilməsi üçün həmin ölkələrin səlahiyyətli orqanlarına vəsatətlər göndərilmişdir.

### Kadr siyasəti

Gənclərə hərtərəfli diqqət və qayğının göstərilməsi, onların sosial-iqtisadi, elmi-mədəni və digər sahələrdə irəli çəkilməsi, potensiallarından daha geniş istifadə edilməsi ölkədə həyata keçirilən sosialyönümlü dövlət siyasətinin tərkib hissəsidir.

Yüksək ixtisaslı, peşəkar milli kadrların yetişdirilməsi, onların irəli çəkilməsi məsələlərinə hər zaman xüsusi əhəmiyyət verən Ümummilli Lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə" təsdiq edilərək prokurorluq orqanlarına işə qəbulun ən sivil və demokratik üsulu olan müsabiqə yolu ilə, şəffaf prosedurlar əsasında aparılması qaydaları müəyyən edilmişdir.

Bu qaydalar prokurorluğun kadr tərkibinin hərtərəfli, savadlı və yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvərliyi və dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsinə şərait yaratmışdır.

2002-ci ildən başlayaraq Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə prokurorluq orqanlarına qəbulla bağlı keçirilmiş 22 müsabiqədə 2021-ci ildə 100 nəfər olmaqla, ümumilikdə uğur qazanmış 1011 gənc hüquqşünas prokurorluq orqanlarına qulluğa qəbul edilmişdir ki, onlar da hazırda prokurorluq işçilərinin 78,5 faizini təşkil edir. Diqqətəlayiq haldır ki, müsabiqə yolu ilə qulluğa qəbul olunmuş işçilərin bir çoxu yuxarı təsnifat vəzifələrə irəli çəkilmiş, o cümlədən 92 nəfəri Baş Prokurorluqda idarə rəisi, rayon, şəhər və ərazi hərbi prokuroru vəzifələrinə təyin edilmişdir.

Gənc mütəxəssislərin qulluğa qəbulu istiqamətində tədbirlərin davamı olaraq cari ilin 31 may tarixində işə qəbul olunmaq arzusunda olan şəxslər üçün Baş Prokurorluq tərəfindən növbəti - 23-cü müsabiqə elan edilməklə hazırda sənəd qəbulu davam etdirilir.

Dövlət başçısı cənab İlham Əliyevin mayın 1-də baş prokuror vəzifəsinə yeni təyinatı ilə əlaqədar qəbul edərkən səsləndirdiyi *"Həm bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, həm də prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar"* tövsiyəsi əsas götürülməklə prokurorluğun kadr korpusunun keyfiyyətinin artırılması, perspektivli gənc mütəxəssislər hesabına yenilənmə, kadr siyasətinin günün tələbləri əsasında həyata keçirilməsi prioritet hədəflərdir.

### Beynəlxalq əməkdaşlığın inkişafı diqqət mərkəzindədir

Ötən dövrdə prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı həyata keçirilən tədbirlərlə yanaşı, beynəlxalq tərəfdaşlarla qarşılıqlı münasibətlərin inkişafına da xüsusi diqqət yetirilmişdir.

Bu müddətdə rəhbərlik etdiyim nümayəndə heyətləri Rusiya Federasiyası və Türkiyə Respublikasında işgüzar səfərlərdə olmuş, həmçinin Rusiya Federasiyası baş prokurorunun və Türkiyə Respublikası Ali Məhkəməsi baş prokurorunun rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə işgüzar səfərləri zamanı onların dövlət başçısı cənab İlham Əliyev tərəfindən qəbul edilməsi ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə hərtərəfli zəmin yaratmışdır.

Beynəlxalq səviyyəli görüşlərin, həyata keçirilən səfərlərin hər biri Azərbaycanın prokurorluq orqanlarının nüfuz dairəsini genişləndirmişdir. Prokurorluğun rəhbərliyi tərəfindən beynəlxalq təşkilatların, bir sıra xarici ölkələrin Azərbaycandakı səfirlərinin, insan hüquqlarının müdafiəsi sahəsində çalışan və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin qəbulu, qarşılıqlı münasibətlərin qurulması və inkişafı prokurorluğun insan hüquqlarının müdafiəsi və müstəqil dövlətimizin hüquqi əlaqələrinin möhkəmlənməsinə xidmət edən fəaliyyətinin əsasını təşkil etmişdir.

Qeyd etməliyəm ki, prokurorluğun təmsil olunduğu bütün beynəlxalq tədbirlərdə Ermənistanın ölkəmizə qarşı əsassız torpaq iddialarının əsl mahiyyəti, milli-etnik zəmində törədilmiş qırğınlar, terror aktları, torpaqlarımızın işğalını davam etdirməklə ötən ilin sentyabrında həyata keçirilmiş təxribatlar və buna cavab olaraq Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə başlamış əks-hücum əməliyyatları, işğaldan azad edilmiş ərazilərdə baş vermiş vandallıqlar barədə geniş məlumat verilmişdir.

Koronavirus pandemiyasının yaratdığı məhdudiyyətlərə baxmayaraq, ötən illərdə olduğu kimi, müxtəlif beynəlxalq təşkilatlarla - Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) və digərləri, eləcə də bir çox ölkələrin prokurorluq orqanları ilə əməkdaşlıq uğurla davam etdirilmiş, prokurorluq işçiləri videoformat rejimində çoxsaylı tədbirlərdə iştirak etməklə ölkəmizi təmsil etmişlər.

Prokurorluq orqanlarının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin nəticəsidir ki, cari ilin 4-5 may tarixlərində Niderlandın Haaqa şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin videokonfrans formatında 51-ci iclası zamanı 2024-cü ilin sentyabr ayında təşkilatın 29-cu illik konfransı və ümumi yığıncağının Bakı şəhərində keçirilməsinə dair təklif qəbul edilmişdir.

Ötən müddətdə cinayət işləri üzrə istintaqın obyektivliyinin və tamlığının təmin edilməsi məqsədilə 50-dən artıq dövlətə hüquqi yardım göstərilməsinə dair 273 vəsatət göndərilmiş, həmçinin pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq prokurorluq orqanları tərəfindən digər aidiyyəti qurumlarla birgə zəruri tədbirlər görülərək cinayət törətməklə istintaqdan gizlənmiş 45 şəxs ölkəmizə ekstradisiya olunmuşdur.

### Elmi-Məsləhət Şurasının fəaliyyəti mühüm əhəmiyyət kəsb edir

Prokurorluq orqanlarında aparılan islahatların tərkib hissəsi kimi prokurorluğun fəaliyyət istiqamətləri, o cümlədən ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasının, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquqyaradıcı və hüquq tətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarını müəyyən etmək məqsədilə yenidən formalaşdırılmış Baş prokuror yanında Elmi-Məsləhət Şurasının fəaliyyəti bu cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Prokurorluq işçiləri ilə yanaşı, hüquqşünas alimlər, dövlət qurumlarının əməkdaşları və digər mühafizə hüquq orqanlarının təcrübəli işçilərindən ibarət şura prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki köməklik göstərməklə yanaşı, ölkəmizin hüquq ictimaiyyəti, aparıcı elm və təhsil müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişafına öz töhfəsini verməkdədir.

Ötən dövrdə şuraya daxil olan qurumlar, eləcə də tərəfdaş ölkələrin tədris qurumları, akademiyaları arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində ciddi işlər görülməklə Baş Prokurorluqla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi arasında memorandumlar imzalanmışdır.

Belə ki, cari il iyulun 5-də Türkiyə Respublikasının Ədliyyə Akademiyası, sentyabrın 23-də isə Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası ilə tədris və elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında memorandumlar imzalanmış, hazırda Belarus, Özbəkistan, eləcə də digər dövlətlərin hüquq mühafizə orqanlarının tədris qurumları ilə müvafiq sənədlərin imzalanması istiqamətində işlər davam etdirilir.

### Prokurorluğun fəaliyyətində qanunçuluğun və şəffaflığın qorunması

Prokurorluq orqanlarında aşkarlığın və hesabatlılığın təmini qurumun müasir çağırışlara uyğun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində əsas hədəflərindən biridir.

Ölkəmizdə mövcud dayanıqlı ictimai-siyasi sabitlik, dövlətimizin qüdrətinin artması hər bir vətəndaşımızı, o cümlədən hüquq mühafizə orqanları əməkdaşlarının gündəlik fəaliyyətlərini daha səmərəli təşkil etməklə böyük əzm və vicdanla işləyərək yüksək nəticələr və uğurlar qazanmağa sövq edir.

Buna görə də prokurorluq işçiləri üzərinə düşən məsuliyyəti, cənab Prezident İlham Əliyevin yüksək etimadını dövlətçilik ideyalarına sədaqətlə, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə doğrultmağa çalışırlar.

Ümummilli Lider Heydər Əliyevin *"Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır"* sözləri, həmçinin dövlət başçısı cənab İlham Əliyevin məmur-vətəndaş münasibətlərinə, nümunəvi dövlət məmuruna dair tələb və tövsiyələri prokurorluğun fəaliyyətinin əsas meyarına çevrilmişdir.

Əminliklə deyə bilərəm ki, cənab Prezident tərəfindən səsləndirilən fikirlər prokurorluq işçiləri tərəfindən prioritet prinsip kimi qəbul edilərək xidməti fəaliyyət və xidmətdənkənar münasibətlərdə tətbiq edilir.

Prokurorluq işçilərinin fəaliyyətində yuxarıda qeyd olunan meyar və prinsiplərin bərqərar olmasında həyata keçirilən islahatlar çərçivəsində 30 iyul 2020-ci il tarixdə Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın qüvvəyə minməsi ilə normativ hüquqi baza sistemli hala salınmışdır.

İlk dəfə Baş Prokurorluğun strukturuna daxil olmayan, konkret vəzifələrin icrası üçün Ad hoc qurumlar olan Müsabiqə, Attestasiya, İntizam, Etik Davranış və Əmək Məsələləri komissiyaları təsis olunaraq funksiyaları təsbit edilmişdir.

Bununla yanaşı, Baş Prokurorluğun Kollegiya iclaslarının formatı dəyişdirilərək, onun prokurorluğun fəaliyyətinə dair ən mühüm məsələlərin real müzakirə olunub müvafiq qərarların qəbul edildiyi kollegial orqana çevrilməsi təmin edilmişdir.

Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın, etik davranış kodeksi və prinsiplərinin tələblərinin pozulmasına görə müvafiq intizam tənbehinin tətbiq oluna bilməsi hər bir əməkdaş tərəfindən normativ xarakterli hüquqi sənədlərin tələblərinə ciddi riayət edilməsinə real şərait yaratmaqla bir növ onun sanksiya mexanizmini müəyyən edir.

Baş Prokurorluğun yenilənmiş strukturunda birbaşa baş prokurora tabe olmaqla prokurorluq işçiləri barəsində icra və əmək intizamının, etik davranış, maraqlar toqquşmasının qarşısının alınması, şəffaflıq və korrupsiyaya qarşı mübarizə qaydalarının pozulması ilə əlaqədar yoxlama aparan Xidməti araşdırmalar idarəsinin fəaliyyəti xüsusi önəm daşıyır.

Təəssüflə qeyd olunmalıdır ki, ötən peşə bayramından keçən müddət ərzində həmin idarə tərəfindən 55 prokurorluq işçisi barəsində aparılmış xidməti yoxlamalarla öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilməyən, prokurorluq işçisinə yaraşmayan hərəkətlərə, xidməti intizamın kobud pozuntusuna yol verən və vəzifələrini layiqincə yerinə yetirə bilməyən 39 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 5 nəfər vəzifədən azad olunmaqla 24 nəfərə töhmət və ya şiddətli töhmət, 10 nəfərə sair intizam tənbehi tədbiri tətbiq edilmiş, həmçinin intizam məsuliyyətinə əsas verməyən pozuntular törətmiş digər əməkdaşların fəaliyyəti müvafiq qurumlarda müzakirə edilməklə nöqsanların təkrarlanmaması istiqamətində zəruri tədbirlər görülmüşdür.

### Digər fəaliyyət istiqamətləri üzrə görülmüş işlər

Prokurorluq orqanlarının fəaliyyətində mühüm yer tutan sahələrdən biri də vətəndaşlara layiqli xidmət göstərilməsi, onların qəbulu, müraciətlərinə tam və hərtərəfli baxılması olmaqla qurum tərəfindən vətəndaş məmnunluğunun təmin edilməsi xüsusilə diqqət mərkəzində saxlanılır.

Bu sahədə fəaliyyətin səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə yaradılmış "Çağrı Mərkəzi" fasiləsiz fəaliyyət göstərməklə vətəndaşlara ödənişsiz zəng etmək imkanı yaratmaqla daxil olmuş hər bir müraciət üzrə yoxlama aparılması təmin edilmişdir.

Tədbirlərin davamı olaraq, vətəndaşların prokurorluq orqanlarına müraciətlərini daha da asanlaşdırmaq və müraciətlərin baxılmasının gedişatını izləmək məqsədilə "Mobil vətəndaş" proqramı yaradılmışdır.

Eyni zamanda prokurorluq orqanlarında müraciətlərə baxılması qaydaları ilə bağlı vətəndaşların maarifləndirilməsinin həyata keçirilməsi məqsədilə mütəmadi olaraq izahedici video və fotolar hazırlanaraq ictimailəşdirilir, qurumun sosial şəbəkə hesablarında keçirilən "sual-cavab" sessiyalarında vətəndaşların sualları cavablandırılmaqla yanaşı, qeydə alınan müraciətlər üzrə yoxlamalar aparılır.

Ümumilikdə son bir il ərzində Baş Prokurorluqda 404 vətəndaşın qəbulu həyata keçirilmiş, o cümlədən 94 nəfər Baş Prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilmişdir ki, həmin qəbullar zamanı vətəndaşlardan daxil olmuş müraciətlərin hərtərəfli araşdırılması və qısa müddətdə qanuni həlli üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Bu sahədə xüsusən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə xüsusi diqqət göstərilməsi əsas vəzifələrdən hesab edilmişdir.

Son zamanlar ölkə ictimaiyyətini narahat edən intihar hadisələrinin minimuma endirilməsi və qarşısının alınması istiqamətində zəruri tədbirlərin görülməsi məqsədilə 23 iyun 2021-ci il tarixdə Baş Prokurorluğun təşkilatçılığı ilə müvafiq dövlət qurumları nümayəndələrinin iştirak etdiyi yüksək səviyyəli konfransın yekunu üzrə qurumlararası İşçi qrupun yaradılması qərara alınmışdır.

Həmin İşçi Qrupun ilk iclasında gələcək fəaliyyət istiqamətləri üzrə tədbirlər planı təsdiq edilərək icraya yönəldilmişdir. Hesab edirəm ki, nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi bu sahədə istədiyimiz nəticələri əldə etməyə imkan verəcəkdir.

Eyni zamanda insan hüquqlarının təmin olunması ilə bağlı məsələlər içərisində məişət zorakılığının qarşısının alınması vacib istiqamət kimi müəyyənləşdirilməklə zəruri qabaqlayıcı tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Bununla yanaşı, sintetik və təbii mənşəli narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, hazırlanması ilə bağlı cinayətlər üzrə ibtidai araşdırma və əməliyyat-axtarış fəaliyyəti üzərində prokuror nəzarətinin gücləndirilməsi qarşıda duran əsas vəzifələrdən biri hesab edilmişdir.

Bu sahədə cəza tədbirləri ilə yanaşı, xüsusilə gənclər arasında istehlakın təbliğ edilməsi hallarının qarşısının alınması istiqamətində maarifləndirmə işlərinin genişləndirilməsinin və digər zəruri tədbirlərin həyata keçirilməsinin vacibliyi diqqət mərkəzində saxlanmaqdadır.

Prokurorluq orqanlarında işləmək arzusunda olan, hüquqşünaslıq ixtisası üzrə təhsil alan gənclərin təcrübə qazanmaları, institusional bacarıqlarının artırılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili məqsədilə ictimai köməkçi qismində prokurorluq orqanlarında könüllü fəaliyyət göstərmələri də diqqətdə saxlanılmışdır.

Ötən dövrdə Baş Prokurorluğa müraciət etmiş 231 tələbənin müraciəti qeydiyyata alınmaqla 185 nəfər prokurorluğun müvafiq struktur qurumlarında fəaliyyətə qəbul olunmuşdur. Müraciət etmiş gənclərin əksəriyyəti Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinin, bir qismi isə xarici dövlətlərin ali təhsil müəssisələrinin tələbələridir.

*Sonda dövlət başçısını və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, prokurorluq orqanları bundan sonra da dövlətçiliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.*

**Kamran ƏLİYEV,**
***Azərbaycan Respublikasının baş prokuroru,***
***II dərəcəli dövlət ədliyyə müşaviri,***
***Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# Tarixə səs salan zəfər

Bu ay Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümü tamam olacaq. Belə bir əlamətdar hadisə ərəfəsində xalqımız qürurdoğuran günlərini yaşayır. Bir neçə gün əvvəl başlanmasının bir ili tamam olan və Azərbaycanın qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsi müstəqilliyimizin şərəf salnaməsinə çevrildi. Bu savaşdakı qalibiyyətlə bütün dünya öz haqqı uğrunda mübarizə aparmağa qadir güclü Azərbaycan dövlətini gördü. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı qələbə ilə vətənimizi bütün dünyaya həm də döyüş meydanında qalib dövlət kimi təqdim etdi.

## Şəhidlərin xatirəsi həmişə uca tutulacaq

Təəssüf ki, müharibə qurbansız başa çatmır. Bu müharibədə Azərbaycanın 3 minə yaxın igid oğlu canını qurban verərək şəhidlik zirvəsinə yüksəldi, minlərlə hərbçimiz yaralandı. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Dövlətimiz və xalqımız torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş vətən övladlarının ruhuna ehtiram göstərir, xatirələrini hər zaman uca tutur, şücaətlərini yüksək qiymətləndirir, adlarını əbədiləşdirir.

Prezident İlham Əliyevin sərəncamı ilə qəhrəmancasına döyüşmüş, bayrağımızı azad edilən torpaqlarımızda dalğalandırmış, canlarını Vətən uğrunda fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq müharibənin başlandığı tarix - sentyabr ayının 27-si Anım Günü kimi təsis olunub. Həmin gün şəhidlərimizin xatirəsi ölkəmizin dörd bir yanında elliklə yad edildi. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda keçirilən yürüş hər bir azərbaycanlını duyğulandırdı və qürurlandırdı. Ərazi bütövlüyümüz uğrunda şəhid olan igidlərimizin, itkin düşən hərbçilərimizin və Ermənistan tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki vətəndaşlarımızın fotolarından ibarət plakatlarla keçirilən yürüş şəhidlərimizə ehtiramın əbədiliyini nümayiş etdirdi.

Həmin gün təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə xidmət edən gözəl təşəbbüsdür. Memorial kompleksdə Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin azadlığı uğrunda mübarizə aparan əsgər və zabitlərin igidliyini, xalqın əzmini bir daha nümayiş etdirəcək.

Azərbaycan Ağsaqqallar Şurasının üzvləri də sentyabrın 27-də şəhidlərimizin anım mərasimlərində iştirak ediblər. Həmin gün şəhid məzarlarını ziyarət edən ağsaqqallar torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş vətən övladlarının xatirəsini ehtiramla yad ediblər. Azərbaycan Ağsaqqallar Şurası Anım Günü ilə bağlı yaydığı müraciətlə şəhidlərimizə bir daha Allahdan rəhmət, yaxınlarına səbir diləyib, qazilərimizin tezliklə şəfa tapmasını arzulayıb. Azərbaycan Ağsaqqallar Şurasının tədbirlər planına əsasən Zəfər gününə qədər bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.

## Prezident İlham Əliyev torpaqlarımızın azadlığı üçün tarixi şəraiti yetişdirdi

Ermənistanın 30 ilə yaxın müddət ərzində Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi ərazilərini işğal altında saxlaması çağdaş dövrümüzün ən böyük ədalətsizliklərindən biri idi. Torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt edilmiş, bir milyondan çox azərbaycanlı öz dədə-baba yurdlarından didərgin salınmış, qaçqın-köçkün həyatı yaşamaq məcburiyyətində qoyulmuşdu. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmış, qətliamlar törədilmişdi.

Azərbaycan xalqı bu işğalla barışmadı. Ulu Öndər Heydər Əliyev vaxtilə danışıqlar prosesində Azərbaycanın haqlı mövqeyini layiqincə təmin etdi, ölkəmizə qarşı təzyiqlərin qarşısını aldı. Bu siyasəti layiqincə davam etdirən Prezident İlham Əliyev ölkəmizə rəhbərliyinin ilk vaxtlarından bəyan etdi ki, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və respublikamız bütün vasitələrdən istifadə edərək torpaqlarımızı işğaldan azad edəcək.

Bu gün dönüb arxaya baxanda görürük ki, Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi 2003-cü ildən həyata keçirdiyi fəaliyyətlə məhz torpaqlarımızın işğaldan azad edilməsi üçün əlverişli zəmin hazırlayıb. 17 ildə Prezident İlham Əliyev olduqca sistemli və mükəmməl fəaliyyət həyata keçirib, atdığı bütün addımlarla gələcəkdə baş verə biləcək müharibədə Ermənistanı məğlub etmək üçün hərtərəfli hazırlıq görüb. Həm də möhtərəm Prezident bunları gizlətmirdi və daim bəyan edirdi ki, Ermənistan öz xoşu ilə torpaqlarımızı azad etməsə, Azərbaycan güc yolu ilə ərazilərimizi işğaldan azad edəcək. Anım Günü ilə bağlı xalqımıza müraciətində Prezident İlham Əliyevin dediyi kimi, biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik.

## Xalqımız bir daha öz rəhbərinin vətənpərvərliyini və yenilməzliyini gördü

Hərbi əməliyyatların ilk günündən Azərbaycan Ordusu öz missiyasını inamla, uğurla yerinə yetirməyə başladı. Ermənistanın işğal dövründə yaratdığı mürəkkəb müdafiə mövqeləri hərbçilərimizin peşəkarlığı və yenilməzliyi nəticəsində dərhal ələ keçirildi, işğal altında olan rayon və şəhərlərimiz, kənd və qəsəbələrimiz bir-birinin ardınca azad edildi. Elə bir gün olmadı ki, ordumuz ləngisin və ya döyüş tapşırığını yerinə yetirə bilməsin. 44 gün davam edən bu müharibədə şanlı Ordumuz özünə "məğlubedilməz" imici yaratmağa cəhd göstərən, yeni ərazilər işğal etməkdə iddialı olan Ermənistan ordusuna sarsıdıcı, onilliklər boyu özünə gələ bilməyəcəyi ağır zərbələr vurdu, onun 6 mindən artıq canlı qüvvəsini, milyardlarla dollar dəyəri olan hərbi texnikasını məhv etdi. Noyabr ayının 8-də Qarabağın tacı olan Şuşanın azad olunması Vətən müharibəsinin həlledici hadisəsi oldu. Məhz Şuşanın azad olunmasından sonra düşmən diz çökdü. Ermənistanın baş naziri N.Paşinyan Azərbaycanla döyüşməyin əhəmiyyətsiz olduğunu anlayıb Prezident İlham Əliyevin şərtləri əsasında kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Azərbaycan ictimaiyyəti hər gün İlham Əliyevin qələbə xəbərlərini gözlədi və dövlət başçısının hər müjdəsini bayrama çevirdi. Ali Baş Komandanın xalqa hər bir müraciəti tarixi hadisəyə çevrilərək, xalqımızı daha da ruhlandırdı, Ermənistan üzərində qələbəni daha da yaxınlaşdırdı. Həmin günlərdə Prezident İlham Əliyevə müharibəni dayandırmaq üçün çox təzyiqlər edildi, zənglər olundu. Lakin Azərbaycan Prezidentini öz yolundan heç kim və heç bir qüvvə saxlaya bilməzdi. Dövlət başçısı ilk gündən nə demişdisə, hansı şərtləri irəli sürmüşdüsə, müharibə elə də başa çatdı. Bu müharibənin gedişində cənab İlham Əliyev yalnız müdrik siyasi xadim, uzaqgörən dövlət rəhbəri deyil, həm də hərb işini gözəl bilən müzəffər Sərkərdə olduğunu göstərdi. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən hərbi əməliyyatlar dünya hərb tarixində çox böyük yeniliklər kimi yadda qaldı və hazırda bir çox dünya ölkələri bu təcrübədən örnək kimi istifadə edirlər.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə zəfərə qovuşduğumuz 44 günlük Vətən müharibəsində qardaş Türkiyə mənəvi-siyasi baxımdan həm dövlət, həm də millət olaraq bütün qəlbi ilə yanımızda oldu, tarixi ənənələrə sadiq qalaraq qələbə çalmağımızda mühüm rol oynadı. Müharibə başlanan gündən Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan ölkəmizə birmənalı və açıq dəstək ifadə edərək bildirdi ki, Azərbaycan tək deyil. Bu həm bizi ruhlandırdı, həm də müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri susdurdu.

Azərbaycan döyüş meydanında Ermənistanın darmadağın edilməsi ilə 30 ilə yaxın davam edən işğala son qoydu. Azərbaycan bölgədə yeni reallıqlar yaratdı. Ən böyük reallıq isə torpaqlarımızın azad olunmasıdır. Bu reallığın digər təcəssümü olan Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən sürətli bərpa və yenidənqurma işləri bir daha Azərbaycanın qüdrətini dünyaya nümayiş etdirməklə, müharibədə qazandığımız şanlı qələbənin quruculuq meydanındakı rəmzi ifadəsidir. Bu gün Şuşada, Kəlbəcərdə, Laçında işıq yanır, Ağdam yenidən qurulur, Füzuliyə təyyarə enir, Suqovuşanın suyu əkin sahələrimizin suvarılmasına yönəldilir. Azərbaycan nəinki Qarabağ və Şərqi Zəngəzurun, həmçinin bütün regionun inkişafını təmin edəcək layihələrin icrasını uğurla həyata keçirir. Yaranmış yeni iqtisadi inkişaf imkanlarından bəhrələnmək üçün bütün region ölkələri, o cümlədən Ermənistan da şans əldə edib. Bundan sonra ona verilən şansı düzgün dəyərləndirməsi, yaxud da dəyərləndirə bilməməsi Ermənistanın məsələyə yanaşmasından asılıdır. Bu ölkənin hərbi-siyasi rəhbərliyi unutmamalıdır ki, qələbəmizin rəmzi olan "Dəmir yumruq" həmişə yerindədir.

***Eldar QULİYEV,***
***Azərbaycan Ağsaqqallar Şurasının sədri,***
***Milli Məclisin deputatı, professor***



# Şərəf və qəhrəmanlıq salnaməsi

İkinci Qarabağ müharibəsini qələbə ilə başa vuran Azərbaycan dövləti ərazi bütövlüyünü bərpa etdi. Bu zəfər xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi oldu, tarixə milli qürurumuzun təntənəsi kimi yazıldı. 44 gün davam edən döyüşlər və qazanılan möhtəşəm qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətinin, Ali Baş Komandanı olduğu Ordumuzun qüdrətinin və xalqımızın milli birliyinin təntənəsi oldu.

Vətən torpaqlarının azadlığı uğrunda 44 gün davam edən bu savaş milli həmrəyliyimizin rəmzinə çevrildi, tariximizə qürur mənbəyimiz kimi həkk olundu. Möhtəşəm zəfər tariximizi, dövlətçilik irsimizi daha da şərəfləndirdi. Bu qələbə dövlətimizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Xalqımız öz haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi, məğlubiyyət damğasını üzərindən götürdü. Bu savaşın nəticəsində dünya bizi həm də qalib xalq kimi tanıdı.

Müharibə itkisiz olmur, həm də torpaq uğrunda ölən varsa, vətəndir. 44 günlük Vətən müharibəsində oğullarımız ölümün gözünə dik baxdılar, şəhadət zirvəsinə ucaldılar. İşğaldan azad olunmuş vətən torpaqlarımız şəhidlərimizin qanı ilə daha da müqəddəsləşdi.

Azərbaycan xalqı hər zaman mübariz övladlarının şücaətini yüksək qiymətləndirəcək, şəhidlərimizin xatirəsi daim uca tutulacaq. Prezident İlham Əliyevin sərəncamı ilə sentyabr ayının 27-nin Anım Günü kimi qeyd edilməsi də şəhidlərimizin ruhuna olan ehtiramın nümunəsidir. "İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq", - deyə Prezident İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqımıza müraciətində bildirib. Anım Günü ilə bağlı Prezident İlham Əliyevin müraciəti, Bakıda keçirilən yürüş, Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulması bir daha göstərdi ki, şəhidlərimizin adı həmişə uca tutulacaq, onlar ehtiramla yad ediləcək.

Dövlətimiz hər zaman Vətən uğrunda döyüşən, sağlamlığını itirən igid övladlarına, şəhidlərimizin ailələrinə xüsusi qayğı ilə yanaşıb. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstəriş və tapşırıqlarına əsasən bu kateqoriyadan olan insanların sosial qayğıları daim diqqət mərkəzində saxlanılır, onların aradan qaldırılması məqsədilə genişmiqyaslı layihələr həyata keçirilir. Şəhid ailələri və müharibə əlilləri üçün yaşayış komplekslərinin, şəhərciklərin inşa edilməsi, reabilitasiya mərkəzlərinin istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

İndiyədək bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin olunub. 2020-ci ildə 1572 mənzil verilib, bu il 3 minə yaxın mənzil veriləcək. Avqustun 25-də Prezident İlham Əliyevin "Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" imzaladığı sərəncam bu prosesin ardıcıl xarakter aldığını göstərir və bu kateqoriyadan olan vətəndaşların mənzil problemlərinin həllində müstəsna rol oynayır. Eləcə də indiyədək müharibə əlillərinə 7200 avtomobil verilib.

Müharibə əlillərinə, şəhid ailələrinə göstərilən diqqət və qayğı cəmiyyətimizdə böyük razılıqla qarşılanır. Onlar vətən uğrunda döyüşərək sağlamlıqlarını itiriblər, vətən uğrunda canlarından keçiblər. Buna görə bu qəbildən olan insanlara göstərilən qayğı həm də bütün Azərbaycan cəmiyyətinin ehtiramının ifadəsidir.

Torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş bütün şəhidlərimiz cənnətdə rahat uyuyurlar. Ona görə ki, əmanət qoyub getdikləri doğmalarının - valideynlərinin, övladlarının yanında qüdrətli Azərbaycan dövləti var... Bəli, şəhidlərin xatirəsi bizə nə qədər əzizdirsə, onların əzizlərinin, ailələrinin sosial rifahı, mənzil-məişət şəraiti də bir o qədər dövlətimizin diqqət mərkəzindədir. Bu sahədə ən gözəl nümunələri isə Azərbaycan Prezidenti cənab İlham Əliyev ortaya qoyur.

Artıq Dağlıq Qarabağ problemi yoxdur. Möhtərəm İlham Əliyevin "dəmir yumruğ"u problemə birdəfəlik son qoydu. Müharibənin başa çatmasından ötən hər bir gün Azərbaycanın şanlı qalibiyyətini dünyaya çatdırır. İndi dövlətimizin milli prioriteti işğaldan azad edilmiş ərazilərin bərpasıdır, erməni vəhşiliyinin qurbanı olmuş şəhər və kəndlərimizin yenidən qurulması, keçmiş məcburi köçkünlərin repatriasiyasıdır.

Azərbaycan Ordusu torpaqlarımızı azad etdikcə həm də bütün dünya erməni vəhşiliyinin şahidi olurdu. Kənd və şəhərlərimizin 30 il davam edən işğal dövründə dağıdılması hər birimizi göynətdi. İşğaldan azad edilmiş bütün ərazilərimiz erməni vandallığının qurbanı olub, şəhər və kəndlərimiz viran qoyulub, xalqımıza və dövlətimizə qarşı cinayət törədilib. Ağdam, Cəbrayıl, Füzuli şəhərlərindən, azad olunan rayonların əksər kəndlərindən əsər-əlamət qalmayıb. Tarixi abidələrimizə, milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə, təbiətimizə qəsd edilib.

Ermənistan bütün bu cinayətlərinə görə cavab verəcək. Dövlətimizin həyata keçirdiyi sürətli bərpa və yenidənqurma işləri isə düşmənin Qarabağ və Şərqi Zəngəzurda vurduğu yaraları tezliklə sağaldacaq. Ötən ilin noyabr ayından başlayaraq azad olunmuş torpaqlarımızın bərpası istiqamətində atılan hər bir addım, icra olunan hər bir layihə həm də qələbəmizi tərənnüm edir. Müharibənin başa çatmasından ötən on ay ərzində Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma layihələri sürətlə icra olunmaqdadır.

Prezident İlham Əliyev ötən ilin noyabrından bu ilin avqust ayına qədər işğaldan azad olunmuş ərazilərə 11 dəfə səfər edib. Bu səfərlər, ilk növbədə, dövlət başçısının azad olunan ərazilərimizin yenidən qurulmasına olan həssas münasibətindən xəbər verir. Hər bir səfər azad olunmuş Qarabağın və Şərqi Zəngəzurun dirçəlməsinə xidmət edən müxtəlif infrastruktur layihələrinin təməlinin qoyulması ilə yadda qalıb. Təsadüfi deyil ki, işğaldan azad edilmiş torpaqlarımız indi böyük inşaat meydanıdır. Hazırda Qarabağ və Şərqi Zəngəzurda 10 yeni avtomobil yolu, 3 hava limanı, dəmir yolu xətləri, su elektrik stansiyaları, yarımstansiyalar, su xətləri inşa olunur. Həmçinin ermənilərin dağıtdığı kənd və şəhərlərimizin smart konsepsiyalar əsasında bərpasına başlanılıb.

İndiyədək bəzi infrastruktur layihələri uğurla yerinə yetirilib. Bir neçə ay əvvəl Laçında Prezident İlham Əliyevin iştirakı ilə Güləbird elektrik stansiyası istifadəyə verilib. Bundan başqa, Şuşanın yenidən qurulması, tarixi-mədəni irsinin bərpası istiqamətində xeyli iş görülüb.

Bir müddət əvvəl Füzuli Beynəlxalq Hava Limanına ilk təyyarənin eniş etməsi torpaqlarımızın işğaldan azad edilməsinin və Qarabağdakı yenidənqurma işlərinin növbəti təcəssümü oldu. Əvvəldə qeyd etdiyim kimi, biz torpaqlarımızın azad ediləcəyinə əmin idik, həmin günün mütləq yetişəcəyinə inanırdıq. Amma 2020-ci ilin bu günlərində təsəvvür belə etmirdik ki, cəmi bir ildən sonra Bakıdan Qarabağa təyyarə ilə getmək mümkün olacaq. Vətən müharibəsində torpaqlarımızın azad edilməsi kimi tarixi missiyanı layiqincə yerinə yetirən möhtərəm Prezident İlham Əliyevin Qarabağda başlatdığı bərpa və quruculuq işləri tezliklə keçmiş məcburi köçkünləri öz doğma yurdlarına qaytaracaq.

Habelə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığıryolun əbədiləşdirilməsi məqsədilə tikilən, dövlət başçısı tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası tamamlanmaq üzrədir. Görünən odur ki, işğaldan azad olunmuş ərazilərin doğma sahiblərinin repatriasiyası sürətlə həyata keçirilərək, Qarabağ və Şərqi Zəngəzur şöhrətini qısa zamanda özünə qaytaracaq.

***Hadi RƏCƏBLİ,***
***siyasi elmlər doktoru, professor***

# Yüksək amal sahibləri

Həyatda hər kəsin öz amalı var. Kiçik yaşlarından kimsə mühəndis olmaq istəyir, bir başqası jurnalist, müəllim və sairə.

Belələri heç də başqa sahələrdən kənarda deyillər. Sadəcə olaraq sevib seçdikləri peşəni daha çox sevirlər. Elə əsas məsələ də bundadır. Sevgi insanın həyat yoludur. İnsan həmin yolla gedərək, həyatda daha faydalı fəaliyyət göstərəcəyi məqama yetişir.

Sevgilər çox müxtəlif olur. Onlardan yalnız biri, özü də ən müqəddəsi - Vətən sevgisi barədə danışmağa dəyər.

Mənfur qonşularımızın işğal siyasəti başlayanda qeyrətli oğullarımızın yurd, torpaq, Vətən sevgisi deyilən o müqəddəs amal kükrədi. Sədaqətli Vətən övladları - Əli və Bəxtiyar "uff" da demədən bu yolda öz canlarını fəda etdilər.

Əli və Bəxtiyar Ağdamın ilk möhürləri idilər. Onlar öz canlarından keçərək göstərdilər ki, Ağdam Ağdamdır ki, Ağdamdır!..

Onlar lap ilk vaxtlardan göstərdilər ki, ağdamlılar ölərsə də, torpağını verməz!

Onların ardınca 6000-dən artıq şəhidimiz vurdu o möhürü!

16 Milli Qəhrəmanımız da vurdu o möhürü!

4950 qazimiz də vurdu o möhürü!

40 000 nəfər döyüşçümüz də vurdu o möhürü!

Elə müharibə vaxtı ən çox küçə döyüşləri də Ağdamda getmişdir - 23 iyul 17:00-dək!

Göründüyü kimi, Birinci Qarabağ savaşında Ağdam rayonu əsl qəhrəmanlıq nümunəsi göstərmişdir!

Həyatın gedişatı elə gətirdi ki, mən bu məsum gənclərimizin birinin - Əlinin ailəsi ilə yaxınlıq etməli oldum. Rəhmətlik Kamal kişinin xəstəliyi ilə əlaqədar onlara gedib-gəlirdim. Hər dəfə o ailədə qonaq olanda bir halın şahidinə çevrilirdim ki, qəbri nurlu Əlinin atası Əli oğlu Kamal kişi də, anası Şəmistan qızı Fizzə xanım da, digər qardaş və bacıları da Vətən amalındaydılar, lap şəhidliyə qədər, ta ki, müqəddəs torpağımıza toxunulmasın...

Vəziyyət elə gətirdi ki, məsum övladlarını Vətən yolunda qurban verən ata-ana da, qardaş-bacılar da doğma yurdlarından didərgin düşdülər. Əzizlərinin dərdinin üstünə bir qaçqınçılıq dərdi də gəldi. Kamal kişi də, Fizzə xanım da bu dərdlərin girdabında boğularaq yorğan-döşəyə düşdülər. Tale elə gətirdi ki, onların müalicəsi ilə ən çox mən məşğul oldum. Qəribə hallar müşahidə etdim bu ailədə. Hansı müalicə edilirdisə də, yaxşılaşmaya çox çətinliklə nail olunurdu. Hansı vaxt ki beynəlxalq aləmdə haqq-ədalətə yaxın söhbətlər gedirdi, o gündən bu vaxtsız qocalmışlar bir çox hallarda lap dərmansız da yaxşılaşırdılar.

Bu dərdlərə dözməyən Kamal kişi qocalıq dövrünü görər-görməz vidalaşdı bu dünya ilə. Amansız dərd-qəm Fizzə Şəmistan qızını da salamat buraxmadı. Hər yoxlama zamanı Fizzə xanım torpaqlarımızın işğalına heç bir vəchlə dözə bilmədiyini söyləyirdi. Doğma yurdunun işğalının ona ciyərparəsindən də artıq təsir etdiyini ürək yanğısı ilə izhar edir, Ağdamın işğal gününü - 23 iyulu dərin hüznlə xatırlayırdı.

Elə 23 iyul hüzn günü - 2018-ci ilin həmin günü 1930-cu ildə Ağdam rayonunun səfalı Əlimərdanlı kəndində dünyaya göz açan müqəddəs ananın qiymətli ömrünə son qoydu...

Belə bir yüksək amallı insanın itkisi, əlbəttə, sarsıdır hamımızı. Lakin belə kədərlər nə qədər böyük olsa da, deyərdim ki, o müqəddəs valideynlər xoşbəxtdirlər. Çünki onlar - böyük amal sahibləri həyatda çox böyük bir irs qoyub getdilər.

Əvvəllər belə yazıları vərəqlərə qələmlə yazırdım. Yazılarımsa, oxunmaz qalırdı. Üzərinə axıtdığım göz yaşları mürəkkəbi qarışdırırdı. Lakin özüm qəmli-qəmli oxuyub, düzəlişlər edirdim. Elə indinin özündə də göz yaşları ilə yazıram, ancaq...

Ruhunuz şad olsun, Əli və Bəxtiyar! Ruhunuz şad olsun, Kamal kişi və Fizzə xanım!

Gözün aydın olsun, əziz millətim! Bu gün fəxarətli, qürurlu günlərimizi yaşayırıq. Ağdam azaddır və artıq "ruhlar şəhəri" deyil. Ağdamı azad görə bilməyənlərin ruhları şaddır.

Yenilməz sərkərdəmizin qətiyyəti sayəsində Əli və Bəxtiyarın, bütün şəhidlərimizin qanları yerdə qalmadı. "Dəmir yumruq" BMT-nin, ATƏT-in missiyalarını yerinə yetirdi!

Nəhayət, gözü aydın olsun bütün Qarabağımızın, o cümlədən Ağdamımızın ki, bu ağırlıqda müharibədə möhtərəm sərkərdəmizin çox düzgün siyasəti sayəsində istər bütün ölkəmizdə, istər bütün Qarabağımızda, xüsusilə də əvvəllərdən böyük itkilər vermiş Ağdamımızda son itkilər gözlənildiyindən xeyli az olmuşdur!

Ali Baş Komandanımızın diplomatik bacarığı sayəsində Ağdam bir güllə atılmadan düşməndən geri alınmışdır.

İndi biz fərəhdəyik, düşmənlərimiz kədər içində çabalamaqdadırlar!

***Asif AĞAYEV,***
***təqaüdçü həkim***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





# İlham Əliyevin qətiyyəti - Azərbaycanın Zəfəri

*Əvvəli 1-ci səh.*

Öz doğma yurd-yuvasından didərgin düşən yüzminlərlə vətəndaşımızın göynəyən yurd yarasının üzərinə su səpdi. İlham Əliyevin onları öz doğma torpaqlarına qovuşduracağı xoşbəxt günlərin lap yaxında olduğunun sevincini yaşadılar...

### Qarabağa doğru Zəfər yürüşünün qələbə müjdələri

2020-ci ilin 27 sentyabrında Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı və birbaşa mülki əhalini hədəfə alması isə səbrimizin son həddi oldu.

Ali Baş Komandan İlham Əliyevin Vətən uğrunda "İrəli!" əmri ilə mərd igidlərimiz mənfur düşmənə həddini bildirməyə, murdar ayaqlarını torpaqlarımızdan vurub atmağa yollandılar.

Elə ilk gündən düşmənin ön müdafiə xətti yarıldı, qısa zamanda bir neçə kənd və strateji əhəmiyyətli yüksəklik işğaldan azad edildi. Qələbəyə doğru əzmlə irəliləyən cəsur döyüşçülərimiz hər gün yeni-yeni yaşayış məntəqələrimizi azad etməyə, Qarabağı qarış-qarış, addım-addım düşməndən təmizləməyə başladılar.

Qarabağa doğru Zəfər yürüşünün qələbə müjdələrini isə Azərbaycan xalqına Müzəffər Ali Baş Komandan İlham Əliyev özü çatdırırdı...

Noyabrın 8-də isə şanlı Ordumuz Qarabağın baş tacı Şuşa şəhərini erməni tapdağından azad etdi. Və elə bu tarixi hadisə ilə də düşmənin beli qırıldı...

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Azərbaycan Ordusu düşmənin belini qıraraq qarşısında diz çökdürdü, onu yalvarmağa, təslim olmağa məcbur etdi.

10 noyabr gecəsi Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev doğma xalqını böyük Zəfər xəbəri ilə müjdələdi, müharibənin, 30 illik Qarabağ münaqişəsinin bitdiyi şad xəbərini verdi.

Bu tarixi qələbədən bir ay sonra Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı parlaq qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradında Ali Baş Komandan bir daha bəyan etdi ki, bu zəfər tarixi zəfərdir: "Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir "dəmir yumruq" yaradıb düşmənin başını əzdik".

### "...Hər zaman mənim gözlərimin önündə onlar idi..."

27 sentyabr 2021-ci ildə - Anım Günündə xalqa müraciətində Prezident İlham Əliyev bəyan etdi ki, müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm bizim qələbəmizlə razılaşıb, bunu qəbul edib: "Bu gün bölgədə, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəliyi formalaşdıran tərəf də Azərbaycandır".

Dövlət başçısı həmin gün xalqa müraciətində Azərbaycanın 44 gün ərzində erməni faşizminin başını əzdiyini bildirərək, bir daha qətiyyətlə vurğuladı ki, erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün: "Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

Ötən il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan tarixi ərazilərini bərpa etdi və indi o yerlərə həyat qayıdır, sürətli tikinti-quruculuq, bərpa işləri görülür.

Bu il sentyabrın 28-də Prezident İlham Əliyev Türkiyənin "Anadolu" Agentliyinə müsahibəsi zamanı da söylədi ki, burada həyata keçirilən bütün layihələr vətəndaşlarımız üçündür: "...Təbii, biz bunu, ilk növbədə, öz vətəndaşlarımız üçün edirik ki, bu bölgəni yenidən quraq və keçmiş məcburi köçkünlər tezliklə oraya qayıda bilsinlər..."

Bəli, bu illər ərzində yüzminlərlə məcburi köçkünün hər biri inanırdı ki, İlham Əliyev mütləq onları öz doğma yurdlarına qaytaracaq. Bu qəti inam isə hər zaman Prezidentdən gördükləri birbaşa diqqət və qayğıdan doğurdu. "Anadolu" Agentliyinə müsahibəsi zamanı Prezident İlham Əliyevin özünün də keçmiş məcburi köçkünlərlə bağlı duyğulanaraq ifadə etdiyi kimi: "...Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## ZƏFƏR gündəliyi

## 1 oktyabr

Azərbaycan Ordusunun əks-həmlə əməliyyatları uğurla davam edir. Sentyabrın 27-si səhər saatlarından sentyabrın 30-u saat 21.30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verib və bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilir.

Bu müddət ərzində düşmənin ümumi itkiləri belədir:

- 200-dək tank və digər zirehli texnika;
- 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 30 ədəd hava hücumundan müdafiə vasitələri;
- 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 5 silah-sursat anbarı;
- 110-dan artıq avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

❖ ❖ ❖

Düşmənin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Səhər saatlarından etibarən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulur.

Azərbaycan Müdafiə Nazirliyi Ermənistan tərəfindən tələb edir ki, ölkəmizin ərazisinin atəşə tutulmasını dərhal dayandırsın. Əks təqdirdə adekvat cavab tədbirləri görüləcək.

❖ ❖ ❖

Ermənistan ordusu təminatda ciddi problemlərlə üzləşir. Azərbaycan Ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verir.

Məlum olur ki, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşir. Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhədəki hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər.



❖ ❖ ❖

Bölmələrimiz tərəfindən düşmən işğalı altında olan Hadrut yaşayış məntəqəsindəki Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayının infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilir.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri düşmənin daha bir neçə hava hücumundan müdafiə vasitələri və yaylım atəşli reaktiv sistemlərini məhv edir.

❖ ❖ ❖



Belarus Prezidenti Aleksandr Lukaşenko Prezident İlham Əliyevə telefonla zəng edərək təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanır.

İlham Əliyev belaruslu həmkarına məlumat verərək bildirir ki, Ermənistanın sentyabrın 27-də səhər saatlarında başladığı hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli ağır artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində bu günə kimi hərbi qulluqçularımız, 17 mülki şəxs həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-dən çox ev dağıdılıb. Buna cavab olaraq Azərbaycan tərəfi əks-hücum əməliyyatlarını həyata keçirir.

Dövlət başçısı əlavə edir ki, artıq Ermənistan ərazisindən də Azərbaycan mövqeləri atəşə tutulur ki, bu da qəti şəkildə yolverilməzdir. Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur və hərbi təxribatlara rəvac verməklə yanaşı, danışıqlar prosesinə də böyük zərbə vurur.



# Zəfər davam edir

## Bu dəfə işğaldan azad olunmuş ərazilərimizin tikinti-quruculuq meydanlarında



Parlaq qələbəmizlə sonuclanan İkinci Qarabağ müharibəsinin başlamasından düz bir il keçir. Aradakı zaman məsafəsi artdıqca şanlı ordumuzun öz zəfər bayrağını sancdığı zirvə, müdrik xalqımızın bütün umu-küsülüləri unudaraq qələbəmizi labüd edən sarsılmaz milli həmrəyliyin ən uca nöqtəsinə yüksəlməsi daha aydın görünür, qəlbimizi qürurla doldurur.

Müharibənin hər günü qələbə ətirli xoş müjdələrlə dolu idi. Hər gün müzəffər Ali Baş Komandan İlham Əliyevin televiziya kanallarında verdiyi qələbə soraqlı xəbərləri hamı səbirsizliklə gözləyirdi. Bu ali və mötəbər mənbənin düşmən işğalından azad edilən kəndlər, şəhərlər barədə məlumatını dinlədikdən sonra qələbə təşnəsi olan insanlar böyük sevinclə bir-birinə zəng edir, gözaydınlığı verir, "davamı gəlsin" deyirdi. Nə böyük xoşbəxtlik idi, ilahi!

Amma nə edəsən ki, qələbə qurbansız olmur. Vətənimizin azadlığı, ərazilərimizin bütövlüyü naminə say-seçmə oğullarımızı, vətən sevdalı qəhrəman övladlarımızı qurban verdik. "Uf" demədən, cavan ömrünə acımadan vətən naminə sinəsini düşmən gülləsinə sipər edən şəhidlərimizin hər biri qəhrəmandır. Bir evin çırağı, bir ananın oğlu, bir körpənin atası, bir gəlinin əri, bir gözəlin gözaltısı, bir bacının qardaşı olan yaraşıqlı, boylu-buxunlu, qəhrəman əsgər balalarımız vətən yaşasın deyə şirin canlarından keçib əbədiyyətə qovuşdular.

Qədirbilən xalqımız zəfər müharibəsinin başladığı 27 sentyabr gününü hər il Anım günü kimi qeyd etməyə qərarlıdır. Bu Anım günündə biz itirdiklərimizə görə göz yaşları axıdıb, şəhidlərimizin müqəddəs ruhlarını incitmək, rahatsız etmək fikrindən uzağıq. Başımızın tacına çevrilən şəhidlərimizin adı, nəsillərə örnək olan əməlləri bizim üçün ali məhəbbət və ehtiramın dəyişməz ünvanıdır. İllər ötüb keçəcək, dünyaya yeni nəsillər gələcək, amma xalqımızın şanlı tarixinə çevrilən İkinci Qarabağ müharibəsinə, bu savaşı parlaq qələbə ilə başa vuran oğullarımızın dünyanı heyran qoyan qəhrəmanlıqlarına münasibəti dəyişməz qalacaq...

Bu əziz və müqəddəs gündə biz o tarixi günlərin qürurverici məqamlarını yada salıb qələbəyə töhfə verən hər kəsin əməlini minnətdarlıqla xatırlayırıq. Danışılası, söhbət açılası, qürur duyulası o qədər unudulmaz hadisələr var ki...

Zaman keçdikcə müharibə mövzusunda yeni-yeni əsərlər yazılacağı, filmlər çəkiləcəyi, nəğmələr bəstələnəcəyi şübhəsizdir. O dövrün ən böyük qəhrəmanı sən idin, bığ yeri yenicə tərləyən balaca əsgər balam. Çətin gündə, dar ayaqda vətən sənə oğul dedi. Dərdlərimizi unudub, bu yurdun daşında, qayasında mamır olub bitmədin. Ulu bir xalqın, uca bir millətin sinəsində əsrlərdən bəri qövr edən nisgili bayraq kimi başın üzərinə qaldırıb döyüşlərə atıldın. Şimşək kimi çaxan baxışlarınla, alovlu ürəyinlə, vulkan kimi kükrəyən qəzəbinlə dərələrdən sel kimi, təpələrdən yol kimi keçib düşmənin minbir məkrlə qurduğu, alınmaz hesab etdiyi istehkamları mətin addımlarınla tapdayıb keçdin. Bir tufan kimi, qasırğa kimi keçdin o yerlərdən. Qədəm qoyduğun hər qarış vətən torpağı sanki toxtadı, rahat nəfəs aldı. Şuşanın başı dumanlı dağları ayazıdı elə bil, Murova, Kirsə sarı yenə gün doğdu, Arazın, Həkərinin, Bərgüşadın, Tərtərçayın oxuduğu həsrət nəğmələri sənin hünərinlə azadlıq şərqilərinə çevrilibdi.

Gözün aydın, Qarabağım, hər qarışı cənnət aranım, dağım. Gec oldu, güc oldu. Erməni faşistlərinin tökdüyü nahaq qanların qisası artıqlaması ilə alındı. Düşməni iti qovan kimi qovduq yurdumuzdan. Bir şəhidimizin intiqamı üçün azı beş erməni silahlısı gəbərtdik.

Sağ ol, Müzəffər Ali Baş Komandan, yaşa, qəhrəman Azərbaycan əsgəri, var ol hər zaman, öz ordusuna arxa olan, o çətin günlərdə əsgərlə bir nəfəs alan qadir xalqım! Cəmi 44 gün ərzində biz bütöv Azərbaycan olaraq vətən sevgisinin, yurd məhəbbətinin kodlarını açıb bütün dünyaya nümayiş etdirdik. Müasir döyüş qaydalarını, yeni hərbi texnologiyaları savaş meydanında bacarıqla tətbiq edib bütün dünyanı heyran qoyduq. Şanlı tarixə çevrilən 44 günlük Zəfər salnaməsinin hər günü, hər anı qürurvericidir. Baldan da şirin olan qələbə vətənimizə, hər evə, hər ailəyə yeni ruh, yeni nəfəs, xoş ovqat gətirdi. Artıq tarixə qızıl hərflərlə həkk edilmiş o gündən bir il keçir. Amma hər sözün, hər söhbətin ana mövzusu yenə qələbədir. Beş il də, on il də keçəcək, hünər dolu, qəhrəmanlıq dolu qürurverici bu söhbətlər hər zaman aktual olacaqdır.



Nəyi, necə və nə zaman etməyi yaxşı bilən müzəffər Ali Baş Komandan, var olun! Var olun ki, Sizin rəhbərlik etidiyiniz ordu misli görünməmiş bir qəhrəmanlıqla Qarabağı azad etdi. Bu şərəfli missiya torpaqları 30 ildən bəri düşmən işğalında qalan ulu bir xalqı dünya qarşısında xəcalətdən, töhmətdən qurtardı. Siz əyilən qəddimizi düzəltdiniz, yenən başımızı dikəltdiniz. Siz üçrəngli bayrağımızı öz əllərinizlə Şuşaya, Ağdama, Laçına, Qubadlıya, Cəbrayıla, Zəngilana, Füzuliyə sancmaqla xalqımızın yenilməz olduğunu dünyaya nümayiş etdirdiniz. Müzəffər Ali Baş Komandan kimi Qarabağı işğaldan azad edən Prezident İlham Əliyev nə xoş ki, bu gün ölkənin baş memarı kimi düşmənin viran qoyduğu xarabalıqlar üzərində yeni və müasir Qarabağ qurur.

Bir il arxada qaldı. Amma Zəfər yürüşü davam edir. Qarabağda genişmiqyaslı abadlıq, quruculuq işləri gündən-günə vüsət alır. Dünən əlində silah düşməni doğma yurd yerlərimizdən qovan oğullarımız bu gün daş üstə daş qoyub min bir həvəslə yeni Qarabağ tikib-qurur. Əlləriniz var olsun, istəyiniz, arzunuz gerçəkləşsin!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



## Anım günü Zəfərimizin ideoloji cəbhədə davamıdır

Anım günü Vətən müharibəsində həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq paytaxtda keçirilən yürüş mahiyyət etibarı ilə düşmənə ideoloji cəbhədə endirilən ən ağır mənəvi zərbə oldu.

Ermənistanın siyasi elitası, mətbuatı, erməni maraqlarına xidmət edən KİV nə yazırsa, yazsın, nə deyirlərsə, desin, "əzabkeş, müdrik erməni xalqı"nı necə məsum və günahsız təqdim etmək istəyirsə, etsin, bu yürüş növbəti dəfə erməni nasist ideologiyasını, erməni faşizmini bütün çılpaqlığı ilə ifşa etdi. Bu tədbir zahirən hüznlü görünsə də, əslində, xalqımızın nikbinliyini, ordumuzun rəşadətini və bütün Azərbaycan vətəndaşlarının birliyinin əzəmətini nümayiş etdirən aksiya kimi tarixə düşdü. Bu baxımdan yürüşün fəlsəfəsi adi tədbirin çərçivələrinə sığmır.

Anım yürüşünə Ali Baş Komandan Vətən Müharibəsi Qəhrəmanı kimi misilsiz igidliklər göstərən şəhid Adil Asəm oğlu İbrahimlinin, birinci xanım Mehriban Əliyeva hələ heç bir yaşı tamam olmayan şəhid Narin Teymur qızı Xalıqovanın fotoları əks olunmuş plakatlarla qatıldılar.

Gənc kursantlar və hərbçilərimiz isə yürüşdə yalnız Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimizin və itkin düşən hərbçilərimizin yox, həm də erməni nasistləri tərəfindən qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla iştirak etdilər. Bu plakatlar erməni faşizmini bir daha ifşa etdi, erməni cəlladlarının dinc əhaliyə - qocalara, qadınlara və uşaqlara, hətta günahsız körpələrə qarşı döyüşdüklərini göstərdi. Eyni zamanda işğalçıların nə qədər qəddar və amansız olduğunu əyani olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bu baxımdan anım yürüşü, sözün əsl mənasında, məkrli erməni təbliğatını ifşa edən, özlərini dünyaya "qədim və mədəni xalq" kimi sırımağa çalışan erməni ideologiyasına qarşı aparılan savaş kimi zəruri siyasi aksiya sayıla bilər.

Neftçilər prospektindən başlayan yürüşün təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinədək davam etməsi isə erməni təbliğatına qarşı aparılan mübarizənin yeni mərhələyə yüksəldiyini göstərdi. Söz yox ki, burada nümayiş olunacaq ən kiçik detal belə, həm erməni millətçilərinə gözdağı, həm də erməni faşizmini ifşa edən əyani vasitə olacaq.

Ali Baş Komandan, Prezident İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciətində demişdir: "Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

Dövlət başçısı müraciətində Ermənistanın döyüş meydanında məğlub olarkən ən çirkin əməllərə əl atdığını, mülki şəxslərə qarşı hərbi təxribat törətdiyini, şəhər və kəndlərimizi daim atəş altında saxladığını, qadağan olunmuş silahlardan - ağ fosforlu bombalardan, ballistik raketlərdən istifadə etdiyini xatırlatmış və ardınca da bəyan etmişdir ki, Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi: "Bizi heç kim və heç nə dayandıra bilməzdi. Müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq. Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq".

Prezident 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərarinin olmadığı halda Ermənistan ordusunda xidmətdən yayınanların sayının 10 min nəfəri keçdiyini bildirərək xalqımızın milli və döyüş ruhunun qələbənin qazanılmasında əsas meyar olduğunu vurğulamışdır: "44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın".

Bu gün Azərbaycan Prezidentinin "dəmir yumruğ"u işğalçı Ermənistanın başı üstündə asılan Damokl qılıncıdır. Yəqin bu səbəbdəndir ki, Ermənistanın işğalçı siyasəti ifşa olunduqca siyasi rəhbərliyi sülhə alternativin olmadığını anlamağa başlayır. Artıq bu gün ermənilər arasında mövqeyini dəyişənlərin, reallıqları qiymətləndirməyə çalışanların sayı artır. Bir çox erməni ekspertləri açıq qeyd edirlər ki, 3 milyondan yuxarı əhalisi olan Ermənistanda indi heç milyon yarım adam qalmayıb. Bu üzdən ölkə rəhbərliyinin müharibəni davam etmək niyyətləri Ermənistanın dünya xəritəsindən birdəfəlik silinməsinə səbəb ola bilər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Şanlı tariximiz

Ötən il sentyabrın 27-də başlanan və Azərbaycanın hərb tarixinə əbədilik həkk olunan Vətən müharibəsinin birinci günü Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə ölkəmizdə Anım günü kimi böyük qürur hissi ilə qeyd edildi.

Anım günü münasibətilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dolğun və məzmunlu çıxışında Azərbaycanın tarixi torpaqlarının zaman-zaman qəsbkarlar tərəfindən nə məqsədlə işğal olunmasına, erməni-daşnak qüvvələri və onların havadarlarının dəstəyi ilə Dağlıq Qarabağın, ətraf rayonların və ölkəmizin Ermənistanla sərhəd qəsəbə və kəndlərinin hansı səbəbdən 30 ilə yaxın işğal altında saxlanmasına xüsusi aydınlıq gətirdi. Ötən əsrin 80-90-cı illərində Azərbaycanda yaşayan, bu ölkənin çörəyini yeyib, suyunu içən ermənilər yerli azərbaycanlı əhalisinə qarşı terror əməlləri həyata keçirmiş, günahsız insanların, qocaların, körpələrin həyatına son qoymuş, kəndləri və evləri dağıtmışdılar. 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin zəbt etdiyi Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı rayon, qəsəbə və kəndlərdə yaşayış evləri ilə yanaşı, xəstəxanalar, məktəblər, klublar, kitabxana və mədəniyyət sarayları, bir sözlə, bütün sosial obyektlər məhv edilmişdir. Ali Baş Komandan çıxışında qeyd etdiyi kimi, işğal altında olan ərazilərdə daha çox zərər çəkən dini abidələrimiz - məscidlər, türbələr və digər inanc yerləri olmuşdur. Ermənilər məscidlərin içərisində donuz və ev heyvanları saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdirmişlər. 66 məsciddən 65-i tamamilə məhv edilmişdir. Mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət dünya irsinə qarşı yönəlmiş təhdid idi.

Azərbaycan Prezidentinin kompromis təkliflərinə, tələb və tövsiyələrinə, beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymayan Ermənistan işğalçıları mənfur niyyətlərini davam etdirir, yeni ərazilər zəbt etmək istəyi ilə Azərbaycan kəndlərini atəşə tutur, insanları qorxu və təhlükə altında saxlayır, müxtəlif terror aktları törədirdilər. Sovet dönəmində hissə-hissə ermənilərə bəxşiş edilən torpaqlarımızın zəbt edilməsinə, eləcə də 30 il ərzində ermənilər tərəfindən milli dövlətçiliyimizə və azərbaycanlılara qarşı törədilən qanlı cinayətlərlə barışmayan xalqımız 27 sentyabr 2020-ci ildə Azərbaycan Prezidentinin əmri ilə bu haqsızlıqlara qarşı müharibəyə başladı. Zəfərə gedən yolun ilk günündən xalq Ali Baş Komandanın ətrafında sıx birləşərək 200 ilə yaxın davam edən ədalətsizliyə, haqsızlığa son qoymaq və öz dədəbaba torpaqlarını işğaldan azad etmək uçun ölüm-qalım savaşına qalxdı. Ali Baş Komandanın rəhbərliyi altında 44 gün ərzində Ermənistan silahlı qüvvələrinin 5-6 səddən ibarət istehkamları, canlı qüvvə və texnikaları məhv edildi, nəhayət, noyabrın 8-də Ermənistan silahlı qüvvələri təslimçiliklə barışıb ağ bayraq qaldırmaq məcburiyyətində qaldı.

Zəfərə gedən bu yolda Azərbaycan Ordusunun yüzlərlə zabit və əsgəri, hətta generalı belə şəhidlik zirvəsinə yüksəldi, minlərlə gənc qazi oldu. Azərbaycan xalqı şəhidlərimizi öz qəlbində əbədi yaşadacaq, qazilərimizə və bu müharibədə iştirak edən hər kəsə böyük ehtiram və hörmət bəsləyəcək. Ali Baş Komandanın dediyi kimi, II Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaqdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Zəfər salnaməmizin başlanğıc günü

Təqvimdə həmən gün - sentyabrın 27-sidir. O gün də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət etmişdi. "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".

Ali Baş Komandan İlham Əliyev müraciətində son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter aldığını vurğuladı və təxribat törədən Ermənistanın məkrli məqsədini bir daha diqqətə çatdırdı: "İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti".

Bu siyasət sonunda iflasa uğramalı, puç olmalı idi. Çünki tarixdən bəllidir ki, bütün işğalçıların sonu məğlubiyyətlə nəticələnir. Erməni qəsbkarları da nə qədər tarixi saxtalaşdırmağa cəhd göstərsələr də, həqiqəti ört-basdır etməyə çalışsalar da, buna nail ola bilməyəcəkdilər...

Ermənilərin özlərinə güclü havadarlar taparaq qədim Azərbaycan torpaqlarında vaxtilə Ermənistan adlı bir dövlət yarada biliblər. Ancaq bununla da qane olmayıblar. Hər dəfə ictimai-siyasi hadisələrin kəskinləşməsi məkrli erməni planının yenidən meydana çıxması ilə nəticələnib. Erməni qəsbkarları yenidən Azərbaycan torpaqlarını işğal emək üçün hər cür qəddarlığa əl atıblar. XX əsrin axırlarında da belə oldu. 1980-ci illərdə böyük sovet imperiyasının sonunun yaxınlaşdığını görən erməni işğalçıları yenidən əzəli Azərbaycan torpaqlarında təxribatlar törətməyə başladılar. Yenə də öz işğalçılıq siyasətlərini ən qəddar şəkildə həyata keçirdilər. Uşaq qatili olduqlarını, qocalara, qadınlara, əlillərə, xəstələrə rəhm etmədiklərini yenidən göstərdilər.

O zaman - 1990-cı illərin sonlarında erməni işğalçıları Azərbaycan torpaqlarının 20 faizini işğal edə bildilər. Bir milyondan çox azərbaycanlının dədəbaba yurdundan qaçqın düşməsinə səbəb oldular. Ancaq nə qədər yurdlarımızı dağıntılara məruz qoysalar da, istər tarixi-mədəni, dini abidələrimizi, istərsə də yaşayış və ictimai binalarımızı yerləyeksan etsələr də, həmin əraziləri özününküləşdirməyi bacarmadılar. O torpaqlardan qədim və əsl sakinlərinin izlərini silə bilmədilər. O yerlər otuz ilə yaxın öz doğma sakinlərinin yolunu gözlədi.

Hər bir azərbaycanlı əmin idi ki, bir gün Ermənistan silahlı qüvvələri öz layiqli cavablarını alacaqlar. Erməni qəsbkarlarının qanlarına qəltan etdikləri şəhidlərimizin qisası alınacaq və işğal bitəcək.

Həmin gün - 2020-ci ilin 27 sentyabrında Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin dediyi bu sözlər hər bir azərbaycanlının qəlbindən xəbər verdi: "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

O gündən düz bir il ötür. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev necə demişdisə, elə də oldu. Ötən il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi 44 gün davam etdi. 44 gün ərzində Azərbaycan övladları döyüş meydanlarında qəhrəmanlıq dastanı yazdılar. Azərbaycan Ordusu elə bir cəsarət, şücaət göstərdi ki, nəinki dostlarımız, düşmənlərimiz belə bunu etiraf etməli olurdular. Azərbaycan xalqı, Azərbaycan dövləti bütün dünyanı öz birliyi, bərabərliyi, qələbəyə inamı və əzmi ilə heyran qoydu. Nəticədə biz haqqımız olanlara çatdıq. Zəfər bizim oldu.

Artıq sentyabrın 27-si bizi qələbəyə çatdıran 44 günlük müharibənin ilk günü kimi tariximizə yazılıb. Anım günü xalqa müraciətində Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev dedi: "Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır. Keçən il dekabrın 2-də mənim sərəncamımla sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi təsis edilmişdir. İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq".

Dövlət başçısı İkinci Qarabağ müharibəsinin bizim şanlı tariximiz olduğunu, bu Qələbənin tarixdə əbədi qalacağını qeyd etdi. Bu gün qalib ölkənin Müzəffər Ali Baş Komandanı xalqa müraciətində hər bir azərbaycanlını qürurlandıran fikirləri dilə gətirdi: "Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

***Zöhrə FƏRƏCOVA***
***"Azərbaycan"***




# İqtisadi inkişaf və sosial rifah




## Sosial sahədə çevik və şəffaf xidmətləri təmin edən innovativ yeniliklərin tətbiq dairəsi genişlənir

Əlilliyin qiymətləndirilməsi üzrə elektron infrastruktur artıq hərbi səbəblərlə əlaqədar tibbi şəhadətləndirmə sistemini də əhatə edir. Son aylarda tətbiq olunan "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsistemi həmin şəhadətnamələrin təqdim edilməsi prosesinin elektronlaşmasına, nəticədə bu istiqamətdə fəaliyyətin xeyli çevikləşməsinə və tam şəffaflaşmasına imkan verib.



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin növbəti kollegiya iclasında bildirilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, sosial sahədə əhaliyə xidmətlərin müasir texnologiyalar üzərində, şəffaf və operativ şəkildə qurulması üçün son illərdə geniş islahatların aparıldığını vurğulayıb. Bu gün artıq nazirliyin 170 xidmətindən 105-nin elektron şəkildə, o cümlədən 44-nün proaktiv formada göstərildiyini bildirib. Daha 56 xidmətin elektronlaşdırılması, onlardan 20-dək xidmətin proaktiv formada qurulması işlərinin aparıldığını deyib.

"Elektron hökumət" portalında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə xidmətlərə təkcə bu ilin 8 ayında 10,3 milyon, e-sosial.az portalına 6 milyon 850 minə yaxın müraciət edildiyi, 130 minədək pensiya, müavinət, təqaüd təyinatının, 93 min sosial sığorta nömrəsinin açılmasının, 430 minə yaxın arayışın verilməsinin e-qaydada, proaktiv formada icra olunduğu bildirilib. İnformasiya bazalarının inteqrasiyası təmin olunan 31 qurumdan bu ilin 8 ayında nazirliyin informasiya bazalarına edilmiş sorğuların 86 milyondan çox olduğu qeyd edilib.

S.Babayev reabilitasiya xidmətlərinin keyfiyyətinin artırılması ilə bərabər, bu xidmətlərin şəbəkəsinin genişləndirilməsi işlərinin də davam etdirildiyini, bu il Qəbələ və Şəmkirdə uşaqlar üçün reabilitasiya mərkəzlərinin açılacağını diqqətə çatdırıb. Həmin müəssisələrin nizamnamələrinin, habelə əlilliyi olan şəxsin tibbi, peşə-əmək, psixoloji-pedoqoji reabilitasiyası və sosial bacarıqların inkişafı ilə əlaqədar kompleks tədbirləri əhatə edən Fərdi reabilitasiya proqramının və reabilitasiya tədbirlərinə dair qaydaların hazırlandığını bildirib.

Qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində görülən tədbirləri qeyd edən nazir 2018-ci ilin əvvəli ilə müqayisədə əmək müqavilələrinin sayında 30 faizə yaxın artım olduğunu, son 3 ildə əmək haqqı fondunun 82% artdığını deyib. O, ölkəmizdə himayədar ailə institutunun formalaşdırılması işlərinin davam etdirildiyini bildirib.

Nazirlik tərəfindən müvafiq fəaliyyət sahələri üzrə normativ hüquqi aktların hazırlanması və təkmilləşdirilməsi sahəsində fəaliyyətdən də bəhs olunub. Cari ilin ötən dövründə qurum tərəfindən aidiyyəti sahələrə dair 556-dək normativ hüquqi aktın layihəsinin hazırlandığı (3 il əvvəlki müvafiq illik göstəricidən (184 akt) 3 dəfə çox), onlardan artıq 243-nün təsdiq edildiyi bildirilib.

İclasda "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsisteminin tətbiqi, qeyri-formal məşğulluğun qarşısının alınması, yeni e-xidmət və e-təyinat sistemlərinin, altsistem və reyestrlərin hazırlanması sahələrində aparılan işlər, BMT-nin Əhali Fondu və Çexiyanın Karlov Universiteti ilə birgə icra edilən əhali proqnozlarının hazırlanması üzrə layihənin icrası, beynəlxalq əməkdaşlıq sahələrində aparılan işlər müzakirə edilib. Həmçinin Dövlət qulluğu və kadr məsələləri, Hüquq şöbələri tərəfindən cari ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsi aparılıb.



## İctimai-siyasi sabitlik, dinamik iqtisadi inkişaf və əlverişli biznes mühiti

### Azərbaycanı xarici şirkətlər üçün cəlbedici edən əsas şərtlərdir

*Əvvəli 1-ci səh.*

Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) təşkilatçılığı ilə keçirilən sorğuların nəticələri də ölkəmizdə xarici investisiya üçün əlverişli mühitin olduğunu təsdiqləyir. Belə ki, Ticarət Palatası tərəfindən "Azərbaycanda Xarici Biznes: Biznes Mühiti Sorğusu 2021" hesabatında ölkəmizdə aparılan iqtisadi islahatlar, biznesin inkişaf perspektivləri və münbit investisiya mühiti yüksək qiymətləndirilmişdir.

Onu da qeyd edək ki, bu hesabat hazırlanarkən Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlər arasında geniş sorğu aparılmış, onlardan Azərbaycandakı işgüzar mühitin vəziyyəti ilə yanaşı, işğaldan azad olunan ərazilərdə çalışmaq istədikləri də soruşulmuşdur. Məlum olmuşdur ki, Azərbaycanda çalışan xarici iş adamları işğaldan azad edilən ərazilərdə işləmək arzusundadır. Buradan çıxan nəticə odur ki, xarici sahibkarlar Azərbaycan dövlətinə inanır, yatıracaqları sərmayənin onlara gəlir gətirəcəyinə şübhə etmirlər.

Vurğulayaq ki, bu hesabat ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlər arasında cari ilin mart-iyul aylarında aparılan sorğunun nəticəsidir. Həmin sorğuda maraq doğuran əsas cəhətlərdən biri də biznes mühiti sağlam olan Almaniya, Böyük Britaniya, ABŞ, İsveçrə, Türkiyə kimi ölkələrin iş adamları arasında keçirilmişdir. Alınan müsbət cavablar onu göstərir ki, ölkəmizdə də iş adamları üçün həmin ölkələrdə olduğu kimi, eyni imkanlar yaradılır. Başqa sözlə desək, Azərbaycandakı biznes mühiti dünyanın inkişaf etmiş ölkələri səviyyəsindədir.

Azərbaycanda biznes mühiti ilə bağlı keçirilən sorğu həm də əhatəli olmuşdur. Belə ki, sorğuda Azərbaycanda fəaliyyət göstərən 30 ölkənin 270 şirkətinə dəyərləndirmək üçün 130 etibarlı və tamamlanmış cavab seçilmişdir. Sorğuda iştirak edən şirkətlərin strukturu da maraq doğurur. Həmin şirkətlərin 88 faizi arxalarında xarici dövlətlərin marağı dayanan iri şirkətlər deyil, mikro müəssisələr və KOB-lardır. Bu fakt onu göstərir ki, Azərbaycanda statusundan asılı olmayaraq bütün şirkətlər üçün fəaliyyət göstərməyə eyni imkanlar yaradılıb.

Şirkətlərin 67 faizi 10 ildən çoxdur ki, ölkəmizdə fəaliyyət göstərir və öz şəxsi biznes layihələrini həyata keçirirlər. Deməli, ölkəmizdə biznes mühitinin sağlam olması bu günün hadisəsi deyil. Digər maraqlı cəhət sorğuda iştirak edənlərin 68 faizinin Azərbaycan iqtisadiyyatında mövcud vəziyyətin sabit olmasını yüksək qiymətləndirməsidir. Sorğuda iştirak edənlər buna səbəb kimi vergi sistemində edilən müsbət dəyişikliklər və maliyyə sektorunda aparılan islahatları göstərib. Bu üzdən onlar ölkəmizdəki fəaliyyətlərini genişləndirmək və yeni sahələrə investisiya qoymaq fikrində olduqlarını bildiriblər.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xarici investorların da diqqətini cəlb edir. Onlar işğaldan azad olunan əraziləri biznes investisiyaları üçün əlverişli sahə kimi görürlər. Bu qiymətləndirmə ötən illə müqayisədə 50 faizdən 60 faizə qədər artıb. AHK-yə üzv şirkətlər işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq layihələrinə xüsusi maraq göstərirlər. Həmin şirkətlərin 61 faizi bu layihələrdə podratçı və ya subpodratçı kimi çıxış etmək istəyirlər. Bununla yanaşı, onlar dövlət-özəl tərəfdaşlığı çərçivəsində fəaliyyət göstərməyə də maraqlıdır. Sorğuda iştirak edən xarici şirkətlərin 43 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçiriləcək layihələrdə iştirak edəcəklərini, 22 faizi isə bu layihələrdə gələcəkdə iştirakın mümkünlüyünü bildiriblər. Sorğuda iştirak edən şirkətlərin 17 faizi tikinti, telekommunikasiya və informasiya texnologiyaları sahəsində çalışmağa üstünlük veriblər.

Məlumdur ki, 44 günlük Vətən müharibəsindəki qələbəmiz bölgədə yeni hərbi-siyasi reallıqlarla yanaşı, geniş iqtisadi imkanlar da yaratmışdır. Bu da təbiidir. Prezident İlham Əliyevin göstərişi ilə qələbədən dərhal sonra işğaldan azad edilən torpaqlarda quruculuq işlərinə başlanılmışdır. Bölgədə avtomobil yolları yenidən qurulur və hava limanları inşa edilir. Həmin ərazilərdə reallaşdırılacaq "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları xarici sahibkarlar üçün də yeni biznes və investisiya imkanları yaradır. İşğaldan azad olunan ərazilərin zəngin təbii sərvətləri, mineral resursları, kənd təsərrüfatı və heyvandarlıq sahələri, həmçinin bölgənin turizm potensialı xarici şirkətləri özünə cəlb edir. Ağdam Sənaye Parkının strateji əhəmiyyəti və azad edilmiş ərazilərdə yeni sənaye zonalarının yaradılması xarici şirkətlərin investisiya imkanlarını genişləndirəcək.

Məlumdur ki, Azərbaycan regionda həm də mühüm tranzit ölkəsi sayılır. "Şərq-Qərb", "Şimal-Cənub" marşrutları ölkəmizdən keçir. Bu səbəbdən, yeni Azərbaycanın tranzit potensialı xarici investorları cəlb edir. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası hesabına ölkəmiz tranzit mərkəzi olmaqla yanaşı, yükdaşımalar sahəsində potensialı olan dövlətlər üçün ucuz və qısa daşınma imkanları yaradır. Sadalanan bu amillər sayəsində respondentlərin 60 faizi Azərbaycanı əlverişli biznes məkanı kimi görür.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## BANM-in 33 tələbəsi Prezident təqaüdçüsü oldu

Bakı Ali Neft Məktəbi (BANM) 2021/2022-ci tədris ili üzrə Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş Prezident təqaüdçülərinin sayına görə rekorda imza atıb.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2021/2022-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında 29 sentyabr 2021-ci il tarixli sərəncamına əsasən, 102 nəfər Prezident təqaüdünə layiq görülüb. Onlardan 33 nəfəri BANM-in tələbəsidir. Bu, Azərbaycan təhsil tarixində ən yüksək göstəricidir. Bundan əvvəl heç bir ali məktəbdə bu sayda Prezident təqaüdçüləri olmayıb.

Prezident təqaüdçüləri arasında qəbul imtahanlarında ən yüksək bal toplayaraq Azərbaycan birincisi və I ixtisas qrupunun lideri Əbil Şəfiyev və II ixtisas qrupunun lideri Əflan Bədəlov da var. Qeyd edək ki, Əbil Şəfiyev 697,1 bal toplayaraq BANM-in Kimya mühəndisliyi ixtisasına, Əflan Bədəlov isə 691,2 bal toplayaraq ali məktəbdə yeni açılan Biznesin idarəedilməsi ixtisasına qəbul olunub.

## Sahibkarların problemləri öyrənilib

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən Gəncə-Daşkəsən iqtisadi rayonunda fəaliyyət göstərən biznes nümayəndələri ilə görüş keçirilib.

Tədbirin təşkilində əsas məqsəd sahibkarların fondun maliyyə dəstəyindən istifadəsi zamanı qarşılaşdıqları problemlərin müəyyən edilməsi və onların aradan qaldırılması istiqamətində tədbirlərin həyata keçirilməsi ilə bağlıdır.

Onlayn formatda keçirilən görüşdə Gəncə-Daşkəsən regionunda fəaliyyət göstərən müvəkkil kredit təşkilatlarının təmsilçiləri, KOB dostları və 50-dən artıq sahibkar iştirak edib.

Bu istiqamətdə növbəti görüşün Abşeron-Xızı iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarları əhatə etməsi nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, Sahikarlığın İnkişafı Fondu sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxışının təmin edilməsində güzəştli kredit və avadanlıq kreditini təmin edən, həmçinin pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyinin göstərilməsi və subsidiyaların verilməsini həyata keçirən əsas qurumlardan biridir.

## Payızlıq əkin mövsümünə hazırlıqla bağlı maarifləndirici təlimlər keçiriləcək

Dövlət Toxum Fondu ilə Əkinçilik Elmi-Tədqiqat İnstitutu arasında əldə olunmuş birgə razılığa əsasən bölgələrdə payızlıq əkinöncəsi fermerlərin maarifləndirilməsi istiqamətində təlim-seminarlar keçiriləcək.

Belə ki, oktyabrın 5-də Qobustan rayonunda, oktyabrın 7-də isə Tovuz rayonunda "Payızlıq əkinlərdə toxum seçimi və aqrotexniki qulluğun göstərilməsi" mövzusunda təlim-seminar keçiriləcək. Təlim bölgələrə uyğun sortların seçilməsinin əhəmiyyəti, toxumla yayıla bilən xəstəliklər və onlara qarşı mübarizə tədbirlərinin aparılması, istehsal olunan toxumun kondisiyaya çatdırılması və digər mövzuları əhatə edəcək.

Təlimdə həmçinin Dövlət Reyestrində qeydiyyatda olan sortlar və sertifikatlaşdırılmış toxumların tətbiqi, toxum istehsalı məqsədi ilə əkilmiş sahəyə aqrotexniki qulluğun göstərilməsi, müxtəlif bölgələrə uyğun arpa və buğda sortlarının əldə edilməsi, məhsuldarlığı və quraqlığa davamlılığı, növbəli əkin sisteminin tətbiqi mövzularında mütəxəssislər tərəfindən təlim iştirakçılarına ətraflı məlumatlar veriləcək.

Təlimlərdə fermerləri maraqlandıran suallar ətrafında müzakirələr aparılacaq.

## Yaponiyada keçirilən "Cosme Osaka" beynəlxalq sərgisində "AzRose" şirkətinin məhsulları böyük maraqla qarşılanıb

Yaponiyanın Osaka şəhərində açılan "Cosme Osaka" beynəlxalq kosmetika məhsulları sərgisində Azərbaycanı ilk dəfə "AzRose" şirkəti təmsil edir.




AZƏRTAC xəbər verir ki, Yaponiyanın üçüncü şəhəri sayılan Osakanın "İntex-Osaka" expo mərkəzində açılan sərgidə dünyanın müxtəlif ölkələrindən yüzlərlə şirkət iştirak edir. Koronavirus pandemiyasına baxmayaraq, builki sərgiyə minlərlə ziyarətçinin gələcəyi gözlənilir.

Qeyd edək ki, Azərbaycanda kənd təsərrüfatı sahəsinə investisiya yatıran Yaponiyanın "TET International Development Co. Ltd." şirkəti Zaqatalada fəaliyyət göstərən "AzRose" şirkəti ilə alqı-satqı barədə məxsusi müqavilə imzalayıb. Müqavilənin məqsədi "AzRose" şirkəti tərəfindən qızılgüldən istehsal edilən məhsulların Yaponiyada satışının təşkil edilməsidir. Azərbaycan şirkətinin məhsullarının Yaponiyada və ətraf ölkələrdə tanıdılması məqsədilə "TET International Development Co., Ltd." şirkəti Azərbaycan məhsullarını "Cosme Osaka" beynəlxalq sərgisində təqdim etmək barədə qərar qəbul edib. "Cosme Osaka" və "Cosme Tokyo" sərgiləri Yaponiyada iki ildənbir təşkil edilir və Asiya regionunda müxtəlif ölkələrin kosmetika üzrə məhsullarının nümayiş olunduğu ən böyük sərgilərdən biri hesab edilir.

Sərginin ilk günündə Azərbaycan şirkətinin stendi ziyarətçilərin böyük marağına səbəb olub. "AzRose" şirkətinin meydançasını həm istehsalçı, həm də alıcı şirkətlərin çoxsaylı nümayəndələri ziyarət ediblər. Bu işdə Yaponiya şirkətinin apardığı PR fəaliyyəti mühüm rol oynayıb.

"TET International Development Co., Ltd." şirkətinin prezidenti Taro Savada AZƏRTAC-a bildirib ki, "AzRose" şirkətinin böyük potensiala malik olan məhsullarını Yaponiyada təmsil etmək onun üçün böyük şərəfdir: "Bu məhsulları Yaponiya bazarına çıxarmaqda məqsədimiz şirkətin istehsal gücünü daha da artırmaq, Azərbaycanda yeni iş yerləri açmaqdır. Ümumiyyətlə, Azərbaycanın orqanik məhsullarına Yaponiyada olan böyük maraq bizi bu istiqamətdə daha həvəslə çalışmağa ruhlandırır. Düşünürük ki, Azərbaycan rəhbərliyinin bu istiqamətdə yeritdiyi siyasət bizim fəaliyyətimizə daha əlverişli şərait yaradır".

Azərbaycan məhsullarını böyük maraqla qarşılayan Yaponiyanın "Rose Terrase Co.Ltd." şirkətinin prezidenti Haruyuki Takaki isə deyib ki, o, artıq 21 ildir Yaponiyada qızılgüldən alınan məhsulların satışı ilə məşğuldur: "İndiyədək qarışdırılmamış qızılgül yağını mən Bolqarıstandan idxal edirdim. Bu gün isə ilk dəfə Azərbaycan məhsulu ilə tanış oldum. Azərbaycan adı son illər Yaponiyada demək olar ki, hamının dilindədir. Ölkənizin böyük potensiala malik gözəl bir yer olduğunu çoxları etiraf edir. Məni sərgiyə Yaponiyada tanınmış iş adamı Taro Savada dəvət edib. Burada həm Azərbaycanın böyük potensialı, həm də keyfiyyətli qızılgül məhsulları ilə tanış oldum. Sizdə hazırlanan efir yağı ISO-nun (Beynəlxalq Standartlaşdırma Təşkilatı) bütün standartlarına cavab verir. Niyyətim Azərbaycanın bu məhsulunu Yaponiyaya idxal etməkdir. Bundan əlavə, qarışdırılmamış qızılgül yağını Yaponiyada istehsal olunan ərzaq məhsullarında da istifadə etmək olar. Bu məhsulu böyük inamla restoranlara, şokolad və tort məhsulları istehsal edən fabriklərə təklif etmək mümkündür".

"TET International Development Co., Ltd." və "AzRose" birgə şirkətinin meneceri xanım Atsuka Matsumoto isə bildirib ki, "Cosme Osaka" beynəlxalq sərgisində ilk dəfə Azərbaycan məhsulunu təqdim edirlər: "Meydançada quraşdırılan stenddə Dəməşq qızılgülündən alınan məhsulları sərgi iştirakçılarına təklif edərək, məhsulun yetişdirilməsi, emal texnologiyaları barədə ətraflı məlumatlar veririk. Bu işdə yapon dilində hazırladığımız bukletlərdən, xüsusi videoçarxdan, məhsul nümunələrindən istifadə edirik. Gördüyünüz kimi, Azərbaycan məhsulunun keyfiyyəti sərgi iştirakçıları tərəfindən böyük maraqla qarşılanır və yüksək qiymətləndirilir. Azərbaycanın gözəlliklərini, keyfiyyətli məhsullarını Yaponiyada tanıtmaq üçün mümkün olan bütün vasitələrdən istifadə edirik. İnanırıq ki, Azərbaycan məhsulu həm Yaponiya, həm də ətraf ölkələrin bazarlarında öz layiqli yerini tutacaq".

Qeyd edək ki, sərgi oktyabrın 1-dək davam edəcək.

## Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti startaplara layihələrini investorlara təqdim etmək fürsəti verəcək

Oktyabrın 27-29-da Bakıda keçiriləcək Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti çərçivəsində startaplar üçün xüsusi tanıtım proqramı nəzərdə tutulur.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, İslam Əməkdaşlıq Təşkilatına üzv (OIC) ölkələrdən bir çox tanınmış dövlət rəsmilərinin və özəl sektor təmsilçilərinin iştirakı ilə keçiriləcək sammitin başlıca məqsədlərindən biri gənclərə startap layihələrini investorlara təqdim etmək fürsəti verməkdir. Bu məqsədlə sammit çərçivəsində OIC-ə üzv ölkələrdən 50-yə yaxın startapın təqdim olunacağı sərgi keçiriləcək. Startap layihələri qida, kənd təsərrüfatı, "yaşıl iqtisadiyyat", maliyyə texnologiyaları, oyun və onlayn tətbiqlər, ətraf mühit, yenilənən enerji, ağıllı texnologiyalar, hava nəqliyyatı, logistika və sair sahələri əhatə edəcək. Sərgiyə iştirakçı qismində qatılmaq istəyən Azərbaycan startapları oktyabrın 5-dək müraciət edə bilərlər:

https://www.icyforum.org/call-for-applications-azerbaiyan-investment-culture-summit/

Yalnız startap layihəsi təşkilat komitəsi tərəfindən seçilən startaplarla əlaqə saxlanılacaq.

Qeyd edək ki, Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti İslam Əməkdaşlığı Gənclər Forumu (ICYF) və KOBİA-nın birgə təşkilatçılığı, Azərbaycan Respublikasının İqtisadiyyat və Mədəniyyət nazirliklərinin dəstəyi ilə təşkil olunacaq. Tədbirdə Azərbaycan, Türkiyə və İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdən dövlət rəsmiləri, iş adamları, beynəlxalq təşkilatların nümayəndələri, investorlar, startaplar və gənclər təşkilatları iştirak edəcək. Üç gün davam edəcək tədbir çərçivəsində müxtəlif mövzularda panel iclaslar, sərgi və digər tədbirlər təşkil olunacaq.

## Özəl və dövlətə məxsus ixracatçı subyektlərin ixracla bağlı reytinqi tərtib edilib

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar-avqust aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın sentyabr sayında bildirilir ki, səkkiz ay üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda təmsil olunan şirkətlərə "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Local Garden" MMC, "Baku Steel Company" MMC, "P-Aqro" MMC, "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, Hidayətov Təyyar Hidayət oğlu, Cəfərov İlqar Südgül oğlu daxildir.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Marketinq və iqtisadi əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda yer alan şirkətlər sırasında Socar Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ASC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti var.

# Azərbaycan-Çin əməkdaşlığı inkişaf və tərəqqiyə xidmət edir



Qədim sivilizasiya mərkəzlərindən biri olan Çində tarixi abidələrin mövcudluğu burada mədəniyyətin yüksək inkişafını göstərir. Dünyaya bir sıra müdrik, dahi insanlar bəxş etmiş Çin xalqı özünün tarixi kəşf və ixtiraları ilə də öyünə bilər. Təsadüfi deyil ki, belə bir zəngin mədəniyyəti bu gün də ardıcıl inkişaf etdirən Çin xalqı bir sıra irimiqyaslı uğurlu iqtisadi layihələrə də imza atmışdır. Bu yeniliklər və inkişaf ölkə həyatının müxtəlif sahələrində özünü büruzə verir.

Hazırda dünyanın güc mərkəzlərindən birinə çevrilmiş Çin mühüm beynəlxalq problemlərin həllində də söz sahibi kimi çıxış edir. Beynəlxalq münasibətlər sistemində olduğu kimi, dünya iqtisadiyyatında da aparıcı yerlərdən birini tutur. Bu dövlətin milli ideyası əmək, zəhmət hesabına xalqın güzəranını, rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Hazırda ölkədə bazar iqtisadiyyatı quruculuğu uğurla həyata keçirilir və iqtisadiyyat özünün çoxukladlı xarakterini qoruyub saxlayır.

Dünya ölkələrinin Çin iqtisadiyyatına marağı gündən-günə artır. Bu ölkənin iqtisadiyyatına yatırılan xarici sərmayələrin həcmi 170 milyard dollar təşkil edir. Elə bu göstəriciyə görə Çin dünyada ikinci yerə çıxmışdır. Ölkə qapılarının xarici investisiya axını üçün açılması və xüsusi iqtisadi zonaların yaradılması sənaye fəallığının yeni dalğasının sahilboyu rayonlara, xüsusilə Cənubi Çinə keçməsinə təkan verdi. Xarici sahibkarların Çində investisiya fəaliyyəti ilə bağlı gözləntiləri və güvənləri ümumiyyətlə sabitdir. Vaşinqtondakı Peterson Beynəlxalq İqtisadiyyat İnstitutunun məlumatına görə, qlobal iqtisadi və maliyyə gərginliyinə baxmayaraq, bu il Çinə birbaşa xarici sərmayə axını artmaqda davam edəcək. Müqayisə üçün deyək ki, 2020-ci ildə Çinin qlobal birbaşa xarici investisiyalardakı payı rekord yüksək səviyyəyə - 25 faizə çatıb. Bu isə 2019-cu ilin göstəricisindən təxminən iki dəfə çoxdur.

Amerika müəssisələrinin təxminən üçdəikisi və AB şirkətlərinin 59 faizi Çində öz bizneslərini genişləndirməyi planlaşdırırlar. Həmçinin yapon müəssisələrinin 36,6 faizi də Çinə qoyduqları sərmayələri artırmağı planlaşdırırlar. Çin xarici aləmə açıqlığını genişləndirməyi, işgüzar mühiti optimallaşdırmağı və xarici səhmdarların və müəssisələrin Çində daha yaxşı inkişaf etməsinə köməyi davam etdirir.

Hazırda Çin dünyada koks, çuqun, polad və polad borular, alüminium, sink, qalay, nikel, televizor, radioqəbuledici və mobil telefon, yuyucu və toxuculuq maşınları, velosiped və motosiklet, saat və fotoaparat, gübrə, pambıq və ipək parçalar, sement, ayaqqabı, ət, buğda, düyü, darı, kartof, pambıq, alma, tütün, tərəvəz, barama və s. məhsulların ən iri istehsalçılarından biridir. Çin dünyada ən iri polad istehsalçısıdır. Ölkədə daş kömürün zəngin yataqları mövcuddur. Bu ölkə onun hasilatı üzrə dünyada birinci yeri tutur. Hazırda ağır sənayenin bəzi sahələri və milli strateji əhəmiyyətli məhsullar istehsal edən müəssisələr dövlətin mülkiyyətində qalır, ancaq yerdə qalan kompaniyalar özəl və ya xüsusi-dövlət birgə müəssisələrindən ibarətdir. Sənayenin başlıca dövlət sahələri - dəmir, polad, kömür, maşınqayırma, yüngül sənaye, silah və toxuculuq sənayesidir.

Çin həmçinin ayaqqabı, oyuncaqlar və elektronika avadanlıqları daxil olmaqla bir sıra istehlak mallarının ən iri istehsalçısına çevrilmişdir. O, həmçinin dünyada avtomobil istehsalının həcminə görə də öndə gedənlərdəndir. Hər il daxili və dünya bazarlarına 18 milyondan çox yerli markalı avtomobil çıxarılır. Müxtəlif sahələr arasında maşınqayırma və metallurgiya sənayesi ən yüksək üstünlük verilən sahələrdir. Son iyirmi il ərzində sənaye istehsalının həcmi ildə orta hesabla 10 faiz artmışdır.

2021-ci ilin yanvar-iyul aylarında Çində böyük internet şirkətlərinin həm gəlirlərində, həm də mənfəətlərində sürətli artım oldu. Bu şirkətlərin gəlirləri 26,3 faiz artaraq 137.34 milyard dollara çatdı. Hazırda internet sistemi sürətlə inkişaf edir. Ölkədə 872 milyon onlayn ödəmə sistemi istifadəçisi vardır. Bu da ölkədə internet istifadəçilərinin ümumi sayının 86,3 faizini təşkil edir.

Bu ilin ilk beş ayı ərzində Çinin məişət texnikası bölməsində sabit bir artım müşahidə olundu. Belə ki, yanvar-may ayları ərzində ölkədə 37,12 milyon soyuducu (artım 29,2 faiz) və 36,18 milyon paltaryuyan maşın (artım 37,3 faiz) istehsal edilmişdir.

2021-ci ilin yanvar-iyun ayları ərzində Çində plastik maddələr sənayesinin istehsal həcmi ötən ilin həmin dövrü ilə müqayisədə 18,2 faiz artaraq 38,84 milyon ton təşkil edib. İlin birinci yarısında ölkənin plastik məhsul istehsalçıları ümumilikdə 8,84 milyard dollar gəlir əldə ediblər.

Çində təbii qaza tələbat böyükdür. Bu ilin ilk yeddi ayında Çində təbii qaz hasilatının həcmi 120,2 milyard kubmetr təşkil edib. Bu da keçən ilin eyni dövrü ilə müqayisədə 10,7 faiz çoxdur.

Elə bir il olmur ki, ölkədə böyük bir layihə uğurla başa çatdırılmasın. Bu mənada Çin nəhəng tikinti meydançasını xatırladır. Bu yaxınlarda Şərqi Çinin Sindao şəhərində (Şandun əyaləti) "Szyaodun" beynəlxalq hava limanının istifadəyə verilməsi buna bir nümunədir. Belə ki, 2025-ci ilə qədər hava limanı ildə 35 milyon sərnişinə xidmət göstərə biləcək. 2045-ci ildə isə onun illik sərnişin axını 55 milyon olacaq. Bu ilin yayında ümumi uzunluğu 2.800 km olan Pekin-Urumçi ekspres yolu istifadəyə verildi.

Bir vaxtlar ərzaq məhsullarına olan daxili tələbatı ödəyə bilməyən bu ölkə indi hətta ərazicə ondan böyük olan Rusiyaya yeyinti məhsulları ixrac edir. Dünyada ən böyük quşçuluq, donuzçuluq, xırda və iribuynuzlu mal-qara (qoyun, keçi, öküz və at) təsərrüfatları Çində yerləşir. Bu ölkə həm də dünyada balıq ovunun həcminə görə birincidir.

Çin iqtisadiyyatının ən mühüm hissəsini kənd təsərrüfatı təşkil edir. Onun aparıcı sahəsi isə bitkiçilik təsərrüfatıdır. Hökumət kəndlilərin hərtərəfli dəstəklənməsi siyasətini yeridir, onların həyatını yaxşılaşdırmağa çalışır. Kəndlilər kənd təsərrüfatı, mal-qara kəsimi və xüsusi kənd təsərrüfatı vergisindən tam azad olunmuşlar. Eyni zamanda xüsusi maliyyə yardımlarının verilməsi qaydası müəyyən edilmişdir. Taxılçılara dövlət maliyyə yardımları və böyük miqdarda taxıl istehsal edən qəzalara ödənişlər artırılıb. Çin tərəvəz ixracatının və məhsul istehsalının həcminə görə dünyada birinci yeri tutur. Dünyada istehsal olunan meyvənin 17 faizi Çinin payına düşür.

Müasir Çin iqtisadiyyatının xarakterik xüsusiyyətlərindən biri onun xarici bazardan asılılığıdır. Belə ki, Çin ixracatın həcminə görə dünyada birinci yeri tutur. İxracat dövlətin valyuta gəlirlərinin 80 faizini təşkil edir. Sənaye və kənd təsərrüfatının ümumi məhsulunun 20 faizi xarici bazara çıxarılır. Dünya bazarına 50 min adda ixracat məhsulları göndərilir. Çinin əsas ticarət tərəfdaşları inkişaf etmiş kapitalist ölkələri, ilk növbədə, Yaponiya, ABŞ, Qərbi Avropa dövlətləridir. Onun xarici ticarət dövriyyəsinin 55 faizi onların payına düşür.

Son illər ÇXR-in Sədri Si Cinpinin rəhbərliyi altında ölkədə böyük planlar həyata keçirilir. Pekində keçirilən "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunun işində Azərbaycanın nümayəndə heyəti də iştirak etmişdi. 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqlar, Zəngəzur dəhlizinin açılması səyləri Çinin kəmər və yol təşəbbüsünün quru yolları istiqaməti üçün olduqca əhəmiyyətlidir.

Bu ilin birinci yarısında Çinlə "Bir kəmər, bir yol" boyunca yerləşmiş ölkələr arasında xarici ticarətin həcmi xeyli artmışdır. Bu dövrdə Çinin və adıçəkilən ölkələrin xarici ticarət dövriyyəsi 27,5 faiz artaraq təxminən 826 milyard dollar təşkil etmişdir. Çinin bu ölkələrdən idxalı 25,6 faiz artmış, xam neft, kənd təsərrüfatı məhsulları və mineral maddələrin idxalının artımı isə sabit səviyyədə qalmışdır.

2021-ci ilin ilk 8 ayı ərzində Sincan-Uyğur Muxtar rayonunda (Şimal - Qərbi Çin) yerləşmiş iki nəzarət-buraxılış məntəqəsindən Çin-Avropa marşrutları üzrə 8 mindən çox qatar keçib. Bu il Çin-Rusiya sərhədində yerləşən Mancouli /Mancuriya/ və Suyfenhe quru keçid məntəqələrindən isə Çin-Avropa beynəlxalq dəmir yolu yük daşımaları çərçivəsində hərəkət edən 3000-dən çox qatar keçmişdir. Bu ilin avqustunda isə 50 vaqondan ibarət olan 10.000-ci yük qatarı Çin-Avropa beynəlxalq dəmir yolu marşrutlarından biri üzrə Şensi əyalətinin (Şimal-Qərbi Çin) inzibati mərkəzi olan Siandan yola düşmüşdür. Malların çeşidi toxuculuq məhsulları, maşınlar, elektronika, avtomobillər və onlar üçün ehtiyat hissələri daxil olmaqla 9 kateqoriyaya qədər genişlənmişdir. 2021-ci ilin ilk beş ayında Çinin ümumi idxalı və ixracatı ötən ilin eyni dövrü ilə müqayisədə 28,2 faiz artmışdır.

Azərbaycan və Çin xalqları tarixboyu bir çox çətinliklərlə üzləşmiş və sərt sınaqlardan keçmişlər. Onların coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, xalqlar arasında tarixən dostluq əlaqələri mövcud olmuşdur. Bu münasibətlərin yaranmasında isə tarixi İpək yolu xüsusi rol oynamışdır. Hələ 2.500 il bundan öncə qədim İpək yolu vasitəsilə xalqlarımız arasında ticari və mədəni əlaqələr mövcud olmuşdur. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin XII əsrdə yazdığı əsərlərdə də öz əksini tapmışdır. Şair Çin xalqına olan hörmət və ehtiramını "Yeddi gözəl" poemasında "Çin gözəli"nin vəsfi ilə ifadə etmişdir.

Hazırda Çin özünün xarici siyasət kursunda Cənubi Qafqaza və onun aparıcı dövləti olan Azərbaycan ilə münasibətlərə ciddi əhəmiyyət verir. Təsadüfi deyil ki, Çin hökuməti Azərbaycanın dövlət müstəqilliyini rəsmən 1991-ci il dekabrin 27-də tanımışdır. 1992-ci ilin aprelində isə iki dövlət arasında diplomatik əlaqələr qurulmuşdur. 1994-cü ilin martında Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin Çinə rəsmi səfəri isə qarşılıqlı münasibətlərin inkişafında yeni səhifə açdı və iki dövlət arasında səkkiz müqavilə imzalandı. Çin və Azərbaycan şəhərləri (Dalyan və Bakı) qardaşlaşdılar.

İki ölkə arasında münasibətlərin hüquqi bazasını möhkəmləndirmək üçün Azərbaycan ilə Çin arasında 81 müqavilə imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005, 2008, 2015 və 2019-cu illərdə Çinə rəsmi səfərləri qarşılıqlı əməkdaşlığın inkişafına əhəmiyyətli təsir göstərdi. Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətləri iki ölkə arasında digər sahələrdə də qarşılıqlı əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradır. Bu əməkdaşlığı dostluq, tərəfdaşlıq kimi xarakterizə etmək mümkündür. Son illər həyatın müxtəlif sahələrində əlaqələr durmadan artır.

İki ölkə arasında mövcud fəal siyasi dialoq nəticəsində energetika, iqtisadi-ticari, rabitə-kommunikasiya, nəqliyyat-logistika, turizm və humanitar sahələrdə ciddi nailiyyətlər əldə edilməkdədir.

Çin hökumətinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsini Azərbaycan birincilər sırasında dəstəkləmişdi. Bu layihəyə daxil olan altı istiqamətdən üçüncüsü Çin, Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan, Türkiyə və Cənubi Avropa ölkələrini birləşdirir.

Çin hökuməti "Bakı-Tbilisi-Qars" dəmir yolunun istifadəyə verilməsini, bu yolun tikintisində Azərbaycanın rolunu, eləcə də "Bir kəmər, bir yol" layihəsinə verdiyi dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan Çinin Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. 2020-ci ildə iki ölkə arasında ticarətin həcmi 1,847 milyard dollar olub ki, bu da əvvəlki illə müqayisədə 15,4 faiz azdır.

2021-ci ilin yanvar-iyul aylarında Çin və Azərbaycan arasında ticarətin ümumi həcmi 700 milyon dollar təşkil etmişdir. Bu, ötən ilin həmin dövrü ilə müqayisədə 12,59 faiz azdır. Bununla belə Çin Azərbaycanın 4-cü ticarət tərəfdaşı olaraq qalmışdır.

Çinin Azərbaycandan idxalı 2021-ci ilin birinci yarısında 170 milyon dollar təşkil etmişdir. Bu da 2020-ci ilin birinci yarısı ilə müqayisədə 63,32 faiz azdır. Ona görə ki, idxal olunan xam neftin həcmi kəskin surətdə aşağı düşmüş və Çinin Azərbaycandan idxalının ümumi payında 80 faizdən çox təşkil etmişdir.

Azərbaycanın Çinə ixrac etdiyi məhsullar sırasında aşağıdakıları qeyd etmək olar: enerji daşıyıcıları (əsasən xam neft), ilkin formada etilen polimerləri, metanol, yod, tiofenləşmiş yağların sulfoturşuları, üzüm şərabları, biyan şirəsi və ekstraktı, qoyun yunu, iribuynuzlu heyvan dəriləri, meyvə şirələri, elektrikli qızdırma avadanlıqları, qlükozidlər, onların duzları və efirləri.

Çinin Azərbaycana ixracatı 2021-ci ilin birinci yarısında 530 milyon dollar təşkil etmişdir. Bu da 2020-ci ilin birinci yarısı ilə müqayisədə 58,47 faiz çoxdur.

Azərbaycanın Çindən idxal etdiyi məhsulların çeşidi daha çoxdur: mexaniki qurğular, onların hissələri, elektrik maşınları, aparatura və hissələri, qara metallar və onlardan məmulatlar, paltar və geyim ləvazimatları, plastik kütlələr və məmulatlar, ayaqqabılar, avtomobil şinləri, quru nəqliyyat vasitələri və onların hissələri, azqiymətli metallardan alətlər və ləvazimatlar, sintetik saplardan parçalar, keramika məmulatları, optik, tibbi, fotoqrafik və dəqiq cihazlar, lampalar, işıqlandırıcı avadanlıqlar və hissələri, şüşə və onlardan hazırlanan məmulatlar, mebel və onun hissələri, çemodanlar, portfellər, çantalar, alüminium və məmulatları, ətriyyat və gigiyenik vasitələr, qeyri-üzvi kimya məhsulları, pestisidlər, əczaçılıq vasitələri, digərləri.

Artıq Çinin Urumçi, Şanxay və Lucou şəhərlərində Azərbaycanın ticarət və şərab evləri fəaliyyət göstərir. Azərbaycanda Çin kapitalı ilə fəaliyyət göstərən 120-dək şirkət qeydiyata alınıb və onlar tikinti-quruculuq işlərində fəal iştirak edirlər. Azərbaycan tərəfindən Çin iqtisadiyyatına 1,7 milyard dollar, Çindən isə Azərbaycan iqtisadiyyatına 900 milyon dollardan artıq sərmayə yatırılıb. Ölkəmizdə dövlət vəsaiti hesabına icra edilən 600 milyon dollar dəyərində layihələrdə Çin şirkətləri iştirak ediblər.

Çin tərəfi TANAP qaz layihəsinin maliyyələşdirilməsinə 600 milyon dollar kredit ayırmışdır. Qarşılıqlı iqtisadi-ticarət əlaqələrinin prioritet istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsidir. Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun potensialından istifadə olunması Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycanın nəqliyyat-logistika potensialından istifadə edilməsini zəruri edir. Bununla belə əlaqələri genişləndirmək üçün potensial imkanlar hələ çoxdur. Təsadüfi deyil ki, iki dost ölkəni bir sıra beynəlxalq layihələr bir-birinə möhkəm bağlayır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Çin bu problemin sülh yolu ilə həll edilməsi üçün səylərini göstərməyə hazır olduğunu bildirib və BMT-nin müvafiq qətnamələrini hər zaman dəstəklədiyini ifadə edib. Azərbaycan da Pekinin vahid Çin siyasətinə hörmət edir və Tayvanı Çinin vahid hissəsi kimi qəbul edir.

Çin pandemiya ilə mübarizə sahəsində Azərbaycana da böyük dəstək verir. Bu il aprelin 24-də Çin hökuməti tərəfindən verilən COVID-19 koronavirusuna qarşı peyvəndlər Bakıya gətirilmişdir.

Çin hökuməti Azərbaycan Prezidentinin BMT Baş Məclisinin COVID-19-la bağlı xüsusi videokonfransını çağırmaq təşəbbüsünü dəstəkləyib. Çinin Azərbaycandakı səfiri xanım Qo Min qeyd etmişdir ki, epidemiyanın ilk yayıldığı günlərdə Çində də tibbi ləvazimat çatışmazlığı yaşanırdı. Belə bir vaxtda Azərbaycandan - Sumqayıt şəhər bələdiyyəsi təcili olaraq 100 min qoruyucu tibbi qapaq, 80 min cərrahi maska, 150 min cüt tibbi əlcək, 4 ton tibbi spirt və epidemiya əleyhinə digər vasitələri toplayaraq Çinin Sian və Myanyan şəhərlərinə göndərdi. Bu yardım onların tibbi ləvazimat çatışmazlığını bir qədər yüngülləşdirdi.

Çin tərəfi də Bakıya ümumilikdə 10 milyon yuan həcmində nuklein turşusu test reaktivləri, süni nəfəs aparatları, tibbi maskalar, qoruyucu geyimlər, gözlüklər, temperatur dəyişikliyini ölçmək üçün cihazlar və s. göndərərək əhaliyə faydalı yardım göstərmişdir.

Hazırda təhsil sahəsində də mübadilələr aparılır. Bakı Dövlət Universiteti, Xəzər Universiteti və Azərbaycan Dillər Universitetində Çin Mərkəzlərinin açılması və fəaliyyəti müsbət hal kimi dəyərləndirilir. Bu il iyunun 12-də Bakıda Çinin respublikamızdakı səfiri xanım Qo Minin iştirakı ilə Azərbaycanın ali təhsil müəssisələrinin tələbələri arasında "Çin Körpüsü" adı altında Çin dili üzrə 20-ci regional müsabiqə keçirildi. Tədbir COVID-19 pandemiyası ilə əlaqədar olaraq onlayn formatda dörd universitetdən gəlmiş səkkiz tələbə arasında aparıldı.

Eyni zamanda Çin universitetlərində təxminən 500 azərbaycanlı tələbənin təhsil alması təqdirəlayiq haldır. Təhsil Nazirliyi dövlətlərarası razılaşmalara əsasən hər il Çinə təhsil almaq üçün 50-dək tələbə göndərir. Eyni zamanda BDU nəzdində Konfutsi mərkəzi də fəaliyyət göstərir. Çinli magistr və doktorantlar ölkəmizdə çinşünas kadrların hazırlanmasında mühüm işlər görürlər.

Hazırda Çinin müxtəlif universitet və ali təhsil ocaqlarında onlarca azərbaycanlı tələbə, magistr və doktorant təhsillərini davam etdirməkdədir. Eləcə də Çinin bir neçə universitetində Azərbaycan dilini tədris edən xüsusi bölmələr açılıb. Bu gün iki dövlət arasında hərbi təhsil sahəsində əlaqələr də yüksək səviyyədədir.

Azərbaycan-Çin münasibətləri öz tarixinin ən məhsuldar dövrünü yaşayır. Hər iki ölkə iqtisadi tərəqqi yolunda inamla irəliləyir. İrimiqyaslı layihələrdə birgə iştirak etmələri hər iki ölkəni bir-birinə daha da yaxınlaşdırır. Qarşılıqlı etimadın artması münasibətləri əməkdaşlıq səviyyəsindən tərəfdaşlıq səviyyəsinə yüksəltməyə imkan verir. Dünyanın iqtisadi cəhətdən qüdrətli dövlətlərindən biri olan Çin ilə Azərbaycanın əməkdaşlığı hər iki ölkə xalqlarının mənafeyinə tamamilə uyğundur və o, təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Avropa-Asiya əlaqələri sistemində mühüm rol oynayır.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# Moldovanın portalı Azərbaycan Prezidentinin "Anadolu" Agentliyinə və "France-24" telekanalına müsahibələrinə geniş yer ayırıb










Moldovanın nüfuzlu "noi.md" xəbər portalı Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "Anadolu" Agentliyinə və Fransanın "France-24" televiziya kanalına müsahibələri ilə bağlı geniş məqalələr dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalələrdə Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi fikirlərə daha çox diqqət ayırıb. Məqalələrdə Prezident İlham Əliyevin sitatlarına istinadla qeyd edilir ki, İkinci Qarabağ müharibəsindən sonra Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan və Türkiyə münasibətlərini daha da yüksək səviyyəyə qaldırdı. Əgər bütün qonşular Türkiyə ilə Azərbaycan kimi münasibətlər qursaydılar, o zaman dünyada heç bir savaş, heç bir müharibə olmazdı.

Digər bir məqalədə vurğulanır ki, Azərbaycan bölgədə sülhün tərəfdarıdır.

"Biz strateji nöqteyi-nəzərdən gələcəyə barış prizmasından yanaşırıq. Çünki mən istəyirəm ki, bir daha müharibə olmasın. Hər halda biz müharibə başlamayacağıq, əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa. Əgər görsək ki, Ermənistanda bizə qarşı hər hansı bir təhdid yaranır, biz o təhdidi məhv etməliyik. Bu, bizim legitim hüququmuzdur. Ancaq bu təhdid olmasa, bizim başqa fikrimiz yoxdur. Qarabağda 25 min erməni yaşayır, onlar da bu işlərdə iştirak edə bilərlər - həm inşaat işlərində, həm də bərpa işlərində. Eyni zamanda gələcəkdə biz onların yaşadıqları yerlərdə, kəndlərdə onlar üçün şərait yaradarıq", - deyə məqalədə Azərbaycan Prezidentinin fikirləri yer alıb.

# *Aleksandr LUKAŞENKO:* "Azərbaycan Belarusu ardıcıl və təmənnasız dəstəkləyən qardaş ölkədir"

"Azərbaycan Belarusu ardıcıl və təmənnasız dəstəkləyən qardaş ölkə və strateji tərəfdaşımızdır".

AZƏRTAC BELTA-ya istinadla xəbər verir ki, bu fikri sentyabrın 30-da Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Ülvi Baxşəliyevin etimadnaməsini qəbul edərkən söyləyib.

Belarus Prezidenti etimad və etibara görə ölkəsi adından və şəxsən öz adından bütün Azərbaycan xalqına, dostu, Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

# "Azərbaycanın təcrid siyasəti Ermənistana yeni böyük zərbələr vurmaqda davam edəcək"

## İlham Əliyevin səsləndirdiyi son bəyanatdan qorxuya düşən ermənilər həyəcan təbili çalırlar

Bu gün Ermənistanın bir dövlət olaraq varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, əvvəlcədən razılaşdırılmış sülh müqaviləsinin imzalanmasından asılıdır. Əks halda Ermənistanın indiki çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaq.

Bunu əslində bütün dünyada, o cümlədən Ermənistanın özündə kifayət qədər aydın sezirlər. Ermənistanın "4rd.am" saytı yazır ki, İrəvan qonşu ölkələrin hamısı ilə münasibətlərini normallaşdırmasa, hakimiyyətdə kimin olmasından asılı olmayaraq ölkədə hansısa iqtisadi tərəqqidən danışmaq mümkün deyil. Sayt bu mənada Nikol Paşinyanın hakimiyyətə gəlişi zamanı və postmüharibə dönəmində verdiyi vədlərin yerinə yetirilməsinin mümkünsüz olduğunu, cəmiyyətdə baş nazirə inamın sürətlə əriyib getdiyini də xüsusi olaraq diqqətə çatdırır.

Bu fonda BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı zamanı səsləndirdiyi "Azərbaycan təkcə Ermənistanın işğalçı qüvvələrini deyil, həm də erməni faşizmini məğlub edib. Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik" fikirləri erməni ictimaiyyətində təşvişə yol açıb.

Siyasi ekspert Andranik Minosyan deyir ki, Ermənistanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib: "İlham Əliyev bizim siyasi rəhbərliyimizi tənqid etməkdə, Ermənistana uğursuz dövlət deməkdə tam haqlıdır. Ölkədə sosial-iqtisadi tənəzzül dərinləşir, yüksək səviyyədə verilən vədlərə baxmayaraq, maddi rifah halı çox aşağıdır. Müharibədən qalib ayrılan Azərbaycan bu mənada iqtisadi inkişafını da əsas gətirərək açıq bəyan edir ki, Ermənistanla müqayisədə çox irəlidədir. Əslində, real vəziyyət və beynəlxalq qiymətləndirmələr də bunu göstərir. Hər halda İrəvanın məsələyə indi daha ayıq başla baxması, sülh danışıqlarına getməsi lazımdır. Əks halda Azərbaycanın təcrid siyasəti Ermənistana yeni böyük zərbələr vurmaqda davam edəcək".

"İravnuk" qəzeti isə yazır ki, Azərbaycan rəhbəri faktiki mövqeyini ortaya qoymaqla Ermənistana yenidən xəbərdarlıq edir: "Bundan əvvəl də İlham Əliyev bildirib ki, Azərbaycanın istəkləri təmin edilməsə, sülh danışıqlarına gedilməsə, həyata keçirilən təcrid siyasəti davam etdiriləcək. Özü də bu məsələdə Azərbaycana dəstək verənlərin sayının artması Ermənistan üçün yaxşı heç nə vəd etmir. Çox təəssüf ki, Ermənistan Azərbaycana qarşı savaşda bu məsələ ilə bağlı hansısa ciddi mövqe ortaya qoya bilmir".

Hərbi ekspertlər isə vurğulayırlar ki, İrəvanın diqqət verməli olduğu məqamlardan biri də Azərbaycanın hərbi gücüdür. Armen Qriqoryan bildirib ki, sonuncu müharibədə gördük ki, Azərbaycan hərbi cəhətdən indi özünü daha rahat hiss edir. Azərbaycandan fərqli olaraq erməni ordusunda vəziyyət getdikcə ağırlaşır, hərbçilərə lazımi diqqət yetirilmir.

Ermənistanda belə səpkidə şərhlərin sayı kifayət qədərdir. Bütün bunlar növbəti dəfə əsl həqiqətlərin nədən ibarət olduğunun artıq erməni cəmiyyəti tərəfindən də dərk olunduğunu aydın nümayiş etdirir.

Bu arada Ermənistanın hüquq mühafizə orqanları, xüsusilə İstintaq Komitəsi son günlər Müdafiə Nazirliyinin əməkdaşlarını və nazirliyin istefaya göndərilmiş yüksək vəzifəli şəxslərini sorğuya çağırır. "Joxovurd" qəzeti yazır ki, sorğu zamanı konkret olaraq 44 günlük müharibədə məğlubiyyətin günahkarları barədə suallar verilir: "Bundan əlavə, sorğuya çağırılan yüksək vəzifəli şəxslərə əsasən Araik Arutyunyanın (qondarma qurum rəhbəri - red.) məğlubiyyətdə günahının olub-olmaması barədə suallar verilir. Bununla yanaşı, onlardan Arutyunyanın məğlubiyyətə səbəb olacaq hansısa addımlar atıb-atmaması da soruşulur. Qeyd etmək lazımdır ki, müdafiə ordusunun keçmiş komandanı Cəlal Arutyunyanın əleyhinə kifayət qədər çox sayda ifadələr verilib".

Qeyd olunur ki, baş prokurorluğun nəzarəti altında araşdırılan 2 mindən çox hərbi işin 41-i artıq məhkəmələrə göndərilib. 800-dən çox adam 44 günlük müharibə zamanı cinayət törətməkdə təqsirləndirilir. Bununla yanaşı, 7 yüksək vəzifəli hərbçi müxtəlif hərbi cinayətlər törətməkdə günahlandırılır. Onlardan yalnız silahlı qüvvələrin baş qərargah rəisinin müavini Andranik Makaryanın adı məlumdur. General Andranik Makaryan xidməti vəzifəsinə səhlənkar yanaşmaqda ittiham olunur. Ona qarşı irəli sürülən cinayət əməli müharibə ilə əlaqədardır. Makaryan isə öz növbəsində bu iddiaları qəbul etmir.

Məhkəməyə göndərilən cinayət işlərinin yarıdan çoxu, yəni 25-i müharibə zamanı qanunsuz silah-sursat daşımaqla bağlıdır. 28 nəfər bu cinayəti törətməkdə təqsirli bilinir. Bununla belə 7 cinayət işi xidməti ərazini özbaşına tərk etməklə bağlıdır. Daha 9 nəfər isə fərarilikdə günahlandırılır. Təqsirləndirilən şəxslərin əksəriyyəti əsgərlərdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Dünya olduğu kimi

# Acı içkidən şirin təama çevrilən şokolad

**Şokoladın tarixi 4000 il əvvələ gedib çıxır. Tarixi mənbələrə görə, şokolad ilk dəfə Meksikada içki kimi istifadə edilib.**



Şokoladın, daha dəqiq desək, kakao ağacının vətəni Cənubi Amerika- Meksikadır. Zaman keçdikcə kakao ağacı Afrikada da əkilib.

Şokolad Mərkəzi Amerikanın tropik meşələrində kakao toxumlarının əkilməsi və daha sonra bir pasta halına gətirilməsi ilə istehsal olunmağa başlayıb. İlk şokolad indiki şokoladlardan çox fərqli olub. O, maye şəklində acı içki olub. İnsanlar bu içkini "çokolatl" adlandırırdılar. İlk dövrlərdə "çokolatl"ın mistik bir xüsusiyyətə sahib olduğuna inanılır, onun insanları xoşbəxt etdiyi deyilirdi.

Mayyalılar isə kakaoya heyran idilər. Onlar kakaonun xoşbəxtlik və əmin-amanlıq gətirdiyinə inandıqları üçün ona ibadət edirdilər. Həmin dövrlərdə şokolad hər kəsə təqdim edilməyən çox dəyərli bir içki idi. "Çokolatl"ı yalnız müqəddəs mərasimlərdə krallar, əsgərlər, ruhanilər və əyanlar içə bilərdilər.

Soyuq və acı içki olan "Çokolatl" Avropada qaynar və şirin içkiyə çevrildi. Şokoladın bugünkü hala gəlməsində ispanlar mühüm rol oynadılar. Onlar bu içkiyə şəkər qatmaqla onu şirin içkiyə çevirdilər. Şokoladın Amerikadan Avropaya və oradan dünyaya yayılması da ispanların sayəsində mümkün olub.

İspaniya Avropada yalnız ona məlum olan şokoladın hazırlanması sirrini uzun müddət gizli saxlayıb. Lakin bu, İspaniya kralı III Fillippin qızı Anna ilə Fransa kralı XIII Lüdovik evlənənə qədər sirr kimi qalıb. Zaman keçdikcə Avropada şokolada olan tələbat artıb və koloniya ölkələrində onun istehsalı sürətlənib.

Hollandiyalı kimyaçı Coenraad Johannes van Houten tərəfindən icad edilən kakao maşını uzun müddət aristokratların və zadəganların yeməyi olan şokoladın istehsalında inqilaba səbəb olur. 1828-ci ildə icad edilən maşın kakao yağını qovrulmuş kakao toxumlarından ayıraraq qarışımları bərk şokolad halına gətirir.

İstehsal genişləndikdən sonra şokoladın qiyməti ucuzlaşır və o, adi insanlar üçün də əlçatan olur.

## Şokoladın xammalları tropik ölkələrdə bitir



**Şokoladın hazırlanması üçün xammal verən kakao ağacları tropik ölkələrdə - Cənubi və Mərkəzi Amerikada, Qərbi Afrikada, Asiya adalarında - Seylonda, Yavada bitir. Əkilən 1 hektar sahədə 600-700 kakao ağacı bitir. Bir ağacdan ildə 3 kq-dan çox kakao paxlası toplamaq olur.**

Kakao ağacının meyvələri müəyyən dərəcədə böyük xiyarlara bənzəyir. Onların uzunluğu 30 santimetrə çatır, çəkisi isə 300-500 qram olur. Kakao paxlalarının toxumları acı büzüşdürücü dada malik olur. Dadın yaxşılaşdırılması üçün aparılan fermentasiya prosesindən sonra kakao tozunun hazırlanması üçün xammal yaranır.

## Dünyanın ən böyük şokolad plitkası

**İlk şokolad plitkası 1842-ci ildə Böyük Britaniyada istehsal edilib. Dünyanın ən böyük şokolad plitkasını Böyük Britaniyanın "Thorntons PLC" şirkəti hazırlayıb. Onun hazırladığı şokolad plitkasının çəkisi demək olar ki, 6 ton (5 792,5 kq) olub.**



O, 2011-ci ildə İngiltərənin Derbyshire bölgəsindəki Alfreton şəhərində yaradılıb. Dörd metr eni və dörd metr uzunluğu olan bu böyük şokolad öz ölçü və çəkisinə görə "Ginnes Rekordlar" Kiabına daxil edilib. Şokolad şirkətin 100 illiyində nümayiş olunub. O, 75 min ədəd adi "Thorntons" şokoladlarının ekvivalenti hesab edilib.

## Ən böyük şokolad heykəllər

Dünyanın ən böyük şokolad heykəli 10.488 kq ağırlığındadır. O, 2018-ci ildə Braziliyanın şokalad istehsalçısı tərəfindən 13 günə hazırlanıb. Heykəlin sahəsi 15 kvadratmetr, hündürlüyü 2,40 metr olub.



Heykəl evi düzəldilib. Lakin maraqlı hal odur ki, istehsalçı yalnız evin xarici görünüşünə deyil, daxili dizaynına da xüsusi diqqət yetirib. Evin içində şokoladdan stol, stul, odun sobası, tavalar, qaşıq, bankalar, fincanlar, yazı makinası, qələm və s. yaradılıb.

Şokoladdan hazırlanmış digər böyük heykəl isə dovşanı təsvir edən heykəl olub. Braziliyada 2017-ci ildə hazırlanmış bu dovşanın hündürlüyü 4,52 m, eni 2,11 m, uzunluğu 1,76 m olub. Dovşanı 9 mütəxəssis birlikdə 8 günə ərsəyə gətirib. Dünyanın daha sonrakı böyük şokolad heykəli ABŞ-da hazırlanıb. Bu heykəl Meksikanın Chichen Itza şəhərindəki Kukulkan piramidasını təsvir edib.

## Dünyanın ən böyük şokolad muzeyləri

**Dünyanın bəzi ölkələrində şokoladsevərlər üçün şokolad muzeyləri də fəaliyyət göstərir. Dünyanın ən böyük şokolad muzeyi olan "Lindt Şokolad Evi" İsveçrənin Kilçberg şəhərində yerləşir. Burada dünyanın ən hündür - uzunluğu 9 metr olan şokolad çeşməsi var. Muzey ziyarətçiləri 9 metr hündürlükdən axan şokolada çox maraqla baxırlar.**



Cənubi Koreyadakı Şokolad Muzeyi dünyanın ikinci ən böyük şokolad muzeyi hesab edilir. Yerli vulkanik daşla tikilən bu muzey memarlığı və məzmunu ilə ziyarətçiləri əsla peşman etməyən bir məkan sayılır.

Almaniyadakı Köln Şokolad Muzeyini şokoladın yaranma tarixini göstərən ən böyük muzey saymaq olar. Muzeydəki 3 metr uzunluğunda şokolad çeşməsi də ziyarətçilərin xüsusi diqqətini çəkir.

Dünyanın ən məşhur şokolad muzeylərindən biri İspaniyadadır. İspaniya şokoladın Avropaya daxil olduğu ilk ölkə kimi buradakı muzey ziyarətçilərində xüsusi maraq doğurur. Muzeydə şokoladdan hazırlanmış çoxlu heykəllər var.

Şokolad muzeyləri Fransanın Strasburq şəhərində, ABŞ-ın Pensilvaniya ştatında da var.

## Dünyanın ən bahalı şokoladları

**Danimarkalı məşhur aşpaz Fritz Knipschildt tərəfindən 1999-cu ildə yaradılan "Knipschildt Chocolatier" şirkətinin istehsal etdiyi "Knipschildt- 70 faiz Valrhona" tünd şokoladı dünyanın ən bahalı şokoladıdır.**




Bu şokoladlar 2600 dollara satılır. Onlar yalnız sifariş əsasında hazırlanır. Bu şokoladın əsas tərkib hissəsi bahalı kakaolar, vanildir. Şokolada mükəmməl dad vermək üçün ona trüffle yağı, şəkər və krem də əlavə edirlər. "Knipschildt- 70 faiz Valrhona"nı satın alındıqdan sonra 7 gün ərzində yemək lazımdır.

Dünyanın bahalı şokoladları arasında İngiltərənin "Cadbury" şirkəti tərəfindən hazırlanmış "Wispa Gold" da var. Yeməli bir qızıl yarpağa bükülmüş lüks şokolad lolan "Wispa" dünyada ikinci ən bahalı şokoladdır. O, 1600 dollara satılır.

İtaliyanın "Amedei" şokolad istehsalçısı tərəfindən hazırlanan tünd "Amedei Porcelana" şokoladı da dünyanın ən bahalı şokoladlarındandır. Bu şokolad genetik cəhətdən təmiz olan, xüsusi olaraq, Venesuelada kiçik plantasiyalarda yetişdirilən kakao dənəsindən hazırlanır.

## İlk südlü şokolad



**1875-ci ildə isveçrəli iş adamı Daniel Peter bir çox uğursuz eksperimentlərdən sonra komponentlərin sırasına quru süd əlavə etməklə ilk südlü şokolad düzəltməyə nail oldu.**

Tezliklə o, tərəfdaşı - dünyanın ən böyük qida və içki şirkəti olan Nestlenin qurucusu olan şirniyyatçı Anri Nestle ilə birlikdə südlü şokoladın istehsalını təşkil etdi. Daha 4 il sonra digər isveçrəli şokolad istehsalçısı Rodolf Lindt ilk olaraq şokoladın kütləyə qarışdırılmasını mümkün edən, onun keyfiyyətini artıran maşın icad etdi. Bu kəşflər isveçrəli qənnadı ustalarına şokoladdan istifadə etməyə imkan verdi.

Yeri gəlmişkən, qeyd edək ki, şokoladın bərk formasının alınması onun maye formasını sıxışdırdı. Bu kəşflər avropalıların öz rasionlarını dəyişməsinə və maye şokolad əvəzinə bərk şokoladlardan istifadə etməsinə səbəb oldu.

## Qiymətin bahalaşması boykota səbəb olub

Tarixdə ilk şokolad boykotu 1947-ci ildə baş verib. Kanadalı uşaqların bu boykotuna səbəb şokoladın qiymətinin 5 qəpikdən 8 qəpiyə qalxması olub.

Dünyada Beynəlxalq Şokolad Günü iyulun 7-də qeyd edilir. Həmin günün bu tarixdə qeyd olunması şokoladın Avropaya 1550-ci ilin həmin günündə gətirilməsi ilə izah edilir.

1941-ci ildə əsgərlərin özləri ilə apardıqları şokoladlar əridikləri üçün əriməyən şokoladın axtarışına başlanılıb. Bu zaman da rəngli draje tərzi şokoladlar yaradılıb.

2013-cü ildə Belçikada şokolad pullar istehsal edilib.

Şokolad ümumilikdə 600 fərqli daddan ibarətdir.

Dünyada şokoladın təxminən 50 faizi Amerikada istehlak olunur.

## Şokoladı ən çox yeyən xalqlar



**Dünyada şokoladı ən çox isveçrəlilər yeyir. Hər bir isveçrəli ildə 19,4 kilo şokolad istehlak edir. İsveçrəlilər ev üçün bazarlıqlarını hər bir zaman şokoladla tamamlayırlar. Bu ölkə həm də dünyanın ən böyük şokolad ixracatçısıdır.**

İldə adambaşına 17,8 kilo şokolad istehlak edən almanlar isə dünyanın ən çox şokolad yeyən ikinci xalqıdır. Qərbi Avropanın şokolad bazarının dörddə biri Almaniyadadır.

İrlandiyalılar adambaşına ildə 17,4 kilo şokolad istehlak etməklə dünyada ən çox şokolad yeyən üçüncü xalq olublar. İrlandiyalılar şokolada insana zövq verən şirniyyat məhsulu kimi baxırlar.

İngilislər ildə adambaşına 16,8 kilo şokolad yeyirlər. Yeni bir araşdırmaya görə, İngiltərədəki hər 6 nəfərdən biri (təxminən 8 milyon adam) hər gün şokolad istehlak edir. İngiltərə əhalisinin 73 faizi sadə şokalad yeyir. Buna görə də sadə şokolad ingilislər arasında ən populyar şokolad seçimidir.

Şokolada müalicəvi məhsul kimi baxan isveçlilər il ərzində adambaşına orta hesabla 14,6 kilo şokolad istehlak edirlər. Yeri gəlmişkən, qeyd edək ki, qadınların şokolad yemək istəyi kişilərdən daha çox olur. Aparılan araşdırmaya görə, qadınlar tünd şokoladı, daha kiçik porsiyalarla yeməyi sevirlər.

## Çinlilərin şokoladdan uzaq durmasının səbəbi

Son araşdırma göstərib ki, çinlilər ildə orta hesabla 100 qram şokolad istehlak edirlər. Dünyanın aparıcı şokolad istehsalçıları onilliklər əvvəl Çinə ayaq basıblar. Lakin çinlilər hələ də şokolada çox maraq göstərmirlər. Bu, əsasən, Çinin ənənəvi yemək mədəniyyəti ilə bağlıdır. Birincisi, Çin kulinariyasında şəkərli desertlər heç vaxt öndə olmayıb. Digər tərəfdən, ənənəvi Çin tibb fəlsəfəsi həddindən artıq şəkər istehlakına qarşı çıxır.

Bu gün çinlilər qırmızı şərab və ya ətir kimi zərif şokoladları da hörmət göstərdikləri, əlaqə yaratmaq istədikləri şəxslərə hədiyyə olaraq verirlər.

Çinin özünün demək olar ki, yerli şokolad markası yoxdur. Tianjin Qi Shi Lin şokoladı Çinin şimalında bir müddət populyar olsa da, o, heç vaxt satışda davamlı artım sürəti əldə edə bilməyib.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*

## Sağlıq olsun

# Xoş əhvali-ruhiyyə yaradan dad

**Uşaq-yaşlı, qadın-kişi - demək olar ki, A-dan Z-yə hər kəsin vazkeçilməz bir ağız dadı var. Bu şokoladdır. Hətta insan onu gördükdə, qoxusunu hiss etdikdə belə özünü xoşbəxt sayır. Şokolad və şokoladlı məhsullar dünyadakı ən populyar desertlər sırasında yer alırlar. Statistik rəqəmlər hər il istehlakçıların şokolad məhsullarına milyardlarla pul xərclədiyini göstərir. Bu ləzzətli qida həm dadına, həm də ruhi və fiziki sağlamlığa göstərdiyi inanılmaz faydalarına görə də təamlar sırasında insanların seçimində ilk sıraları tutur.**



Şokoladların tərkibi təbii və qarışıq olur. Təbii şokolad yalnız kakao çəyirdəyi (yağı) və şəkərdən alınır, qarışıq şokoladın istehsalında isə bu iki əsas inqrediyentdən əlavə süd, qəhvə, qoz və digər qida məhsullarından istifadə edilir.

Mütəxəssislər bildirirlər ki, şokoladın orqanizmə faydasının sirri onun tərkibindəki kakao yağındadır. Əsl kakao çəyirdəklərindən hazırlanan şokolad faydalı vitaminlər (B1, B2, B3, B5, B8 və E), alkaloidlər, bol minerallar (maqnezium, sink, dəmir, manqan, kalsium, mis, kükürd, kalium) və antioksidantlarla zəngindir.

### *Hər dərdin dərmanı*

Kakaonun müalicəvi və qidalandırıcı xüsusiyyətləri hələ antik dövrlərdə məlum olub. Qədim Mayyalar, Asteklər və Meksika sakinləri kakao ağacının hər qismini, toxumunu, yarpağını, qabığını, yağını, çiçəyini təsirli dərman kimi istifadə ediblər.

Kakao yalnız təkbaşına deyil, başqa tibbi bitkilərlə də qarışdırılaraq müalicəvi vasitə kimi istifadə olnub.

Yeni dünyanı kəşf edən avropalılar da asteklərin bitkilərin kimyəvi təsiri və dərmanlar haqqındakı geniş məlumatlarını mənimsəyiblər. Eyni zamanda bu xalqın kakaodan hazırladıqları duru içkini sadəcə dini rituallarda istifadə olunan və xoş hiss bəxş edən bir nəsnə kimi yox, eyni zamanda zehni və fiziki narahatlıqları aradan götürmək üçün gərəkliliyini müşahidə ediblər. Məlum olub ki, asteklər şokoladdan xəstəliklərin çarəsi kimi yararlanıblar. Yerlilər kakao toxumlarından yağ əldə ediblər. Soyuyunca bərkiyən və sarımtıl bir rəng alan kakao yağını yanıqlar, kəsiklər üçün və müxtəlif dəri xəstəliklərinin müalicəsində məlhəm olaraq, eyni zamanda dəriyə qulluq məhsulu kimi istifadə ediblər.

Avropalıların Amerikada şokolad haqqındakı bir başqa müşahidəsi isə insanın enerjisini artırması və ayıq saxlaması olub. Onların bu barədəki qeydlərində Astek əsgərlərinin bütün gün yalnız şokolad yeyərək hərəkət etdikləri əksini tapıb.

Mayyalar isə dini rituallar zamanı da maye hala saldıqları kakaodan istifadə ediblər. Bəzən isə duru şokoladı psixoaktiv maddələrlə qarışdırıblar.

Bütün bunlarla yanaşı, Amerikanın qədim sakinləri duru şokolad içənlərin daha uzun yaşadıqlarına inanıblar. Bu içkilər daha çox kral ailəsinə məxsus olub.

Avropalılar əldə etdikləri tibbi məlumatlara əsasən, şokoladdan əvvəlcə bir qida kimi yox, dərman kimi istifadə ediblər və hazırkı şokolada oxşayan məhsulları da ilk dəfə əczaçılar hazırlayıblar. 1816-cı ildə fransız əczaçı Jean-Antoine Brutus Menier dərmanların pis dadını itirmək üçün onların üzərinə şokolad çəkib.

Başqa bir fransız əczaçı isə vanilli, səhləbli, dəmirli, maqneziumlu və sair kimi şokoladlı dərmanlar hazırlayıb.

Tarixi qaynaqlarda Osmanlı xanədanındakı apteklərdə tibbi şokoladların hazırlandığı göstərilib.

### *Xərçəngin düşməni*

Müasir dövrdə də aparılan elmi araşdırmalar şokoladın sağlamlığa müsbət təsirlərini təsdiq edib. Məlum olub ki, şokolad qan təzyiqini aşağı salır, qanda HDL xolesterol səviyyəsini yüksəldir, ürək-damar xəstəliklərindən qoruyur, iltihab əleyhinə təsir göstərir, beyin-qan axınını stimullaşdırır, antidepresantdır, yüksək antioksidant təsirə malikdir.

Ürəyə şəfaverici təsir göstərən bu qida tərkibindəki antioksidantlar sayəsində xərçənglə mübarizə aparır. Belə ki, kakao qırmızı şərabla müqayisədə iki, yaşıl çayla müqayisədə isə üç qat daha çox antioksidanta sahibdir.

Alman İnsan Qidalanma İnstitutu tərəfindən aparılan və təxminən 19 min yetkin insanın pəhriz vərdişlərini araşdıran bir araşdırmada hər gün 7,5 qram şokolad yeyənlərin qan təzyiqinin aşağı olduğu, infarkt və insult riskinin yüzdə 39 faiz olduğu müəyyən edilib.

Şokoladın tərkibində fenetilamin (PEA) var. Fenetilamin isə sinir sistemini stimullaşdırdığı, ağrıları rahatlaşdırdığı üçün insan özünü yaxşı hiss edir. Eyni zamanda şokolad beyindəki endorfin və serotonin hormonlarını artıraraq xoşbəxtlik hissi yaradır.

### *Bu hal şokoladı insan orqanizmi üçün təhlükə mənbəyinə çevirir*

Türkiyəli dietoloq Hilal Konak məlumat verir ki, hazırda bazarlarda bir çox şokoladdakı kakao nisbəti olduqca aşağıdır və çoxlu qatqılar ehtiva edir. Bu hal isə həmin məhsulları insan orqanizmi üçün təhlükə mənbəyinə çevirir. Şokoladın faydalarından yararlanmaq üçün doğru miqdarda və uyğun çeşidi istehlak etmək məsləhətdir. Ən azı 70 faiz kakao tərkibli tünd şokoladı həftədə 2-3 dəfə yemək olar: "Məlum olduğu kimi, şokolad beyində serotonin hormonunun ifraz olunmasına kömək edir ki, bu da özünüzü xoşbəxt hiss etmənizə səbəb olur. Amma şokolad yemək asılılığa çevrilə bilər. Bu halda dərhal şokolad yemək vərdişindən qurtulmaq lazımdır. Şokolad yeməyə uzun müddət ara verməklə və ya tədricən istehlak miqdarını azaltmaqla buna nail ola bilərsiniz".

Dietoloq qeyd edir ki, lazım olduğundan çox yeyilən şokolad insanda artıq çəkiyə səbəb olur: "Şokolad kofein ehtiva edir və turş bir quruluşa malikdir. Buna görə mədə və bağırsaq sağlamlığına zərər verə bilər. Bundan əlavə, şokolad, yemək borusu ilə mədə arasındakı əzələlərin yumşalmasına səbəb olduğu üçün reflü və ülser kimi xəstəlikləri olan insanlar şokolad yeməməlidirlər.

Həkimlər miqren xəstələrinə də çoxlu şokolad yeməyi qadağan edirlər. Səbəb onun tərkibindəki bəzi maddələrin miqren ağrısını tətikləməsi ilə izah olunur.

Böyrək xəstəliyi olan insanlar yüksək kalium tərkibinə görə şokolad istehlakını məhdudlaşdırmalıdırlar".

**Diqqət:**

## Ağ şokoladın fəsadları



**Tərkibində kakao olmayan, lakin içərisindəki kakao yağı sayəsində şokolad ləzzəti verən ağ şokolad kakao tozu ilə hazırlanan şokoladlardan daha az vitamin və mineral ehtiva edir. Bu şokoladın tərkibi əsasən süd və yağdan ibarət olur.**

Yağ tərkibi yüksək olan bu şokolad bir neçə parçadan çox istehlak edildikdə bədənə ciddi ziyan vurur. Xüsusilə pis xolesterolun artmasına səbəb olaraq ateroskleroz və ürək xəstəlikləri kimi ciddi sağlamlıq problemlərinə yol açır. Tərkibindəki yağ enerjiyə çevrilsə belə, bu, uzunmüddətli olmur və bədənin müəyyən yerlərində yağ kütlələrinin əmələ gəlməsinə səbəb olaraq sürətli çəki artımına yol açır. Mütəxəssislər hətta 100 qram ağ şokolad istehlak etməyin 600 kalori almağa səbəb ola biləcəyini vurğulayırlar. Eyni zamanda ağ şokolad diabet xəstələri üçün də çox təhlükəli bir desertdir.

Ağ şokolad qaraciyərin yağlanmasına və dəridə sızanaqların əmələ gəlməsinə səbəb ola biləcək problemlərə də zəmin hazırlayır.

**Faydalı:**

## Acı şəfa

**Kakaonun ən saf forması olan tünd şokolad, endorfin və serotonin hormonunu ifraz edən güclü bir qidadır. Acı şokolad olaraq bilinən tünd şokolad yüzdə 80 faiz antioksidant ehtiva edir.**



Alimlər bədəndə sərbəst radikalların yığılmasının qarşısını alan tünd şokoladın xərçəng xəstəliklərinin qarşısını alan keyfiyyətli təbii bir dərman olduğu qənaətindədirlər. Tünd şokoladın olduqca faydalı olduğunu ortaya çıxaran elmi araşdırmalar bu məhsulun xolesterolla əlaqəli ürək-damar xəstəliklərini 60 faiz azaltdığını təsdiqləyib. Tərkibindəki flanovol maddəsi sayəsində qanda zərərli hüceyrələrin sayını azaldır, beyinə gedən sinir hüceyrələrinin sağlamlığını qoruduğu üçün stres və depressiya riskini iki dəfə azaldır. 150 qram tünd şokolad bədənə 13 qram pəhriz lifi, dəmir ehtiyacının 72, maqneziumun 63, misin 94 faizini verir. Eyni zamanda orqanizmi ehtiyac duyduğu kalium, fosfor, sink və selenium maddələrinin 45 faizi ilə də təmin edir.

Tünd şokolad bədəni toksinlərdən təmizləməyə dəstək verir, tərkibindəki nitrit maddəsi damarların sərtləşməsinin qarşısını alır və daha rahat qan axını üçün şərait yaradır. Eyni zamanda nitrit maddəsi qan təzyiqinin yüksəlməməsini təmin edir.

Bu məhsul aşağı qlisemik indeksə malik olduğu üçün insulin müqavimətini azaldır, beləliklə, qan şəkərini nəzarətdə saxlayır.

Acı şokolad xüsusilə qışda quru öskürək üçün də faydalıdır. Əridilərək isti formada istehlak edildikdə öskürəyə səbəb olan infeksiyanı azaldır, daha rahat nəfəs almanı təmin edir.

Psixiatrlar isə stres və sıx depressiya altında olan xəstələrinə tünd şokoladı antidepresant dərman olaraq tövsiyə edirlər.

**Elmi araşdırma:**

## Uzun ömrün sirri

**Şokoladla bağlı aparılan elmi araşdırmalar bu qidanın beyin fəaliyyətinə və yuxuya olan müsbət təsrini aşkar edib.**

ABŞ-ın Vaşinqton Universitetinin alimlərinin yeni araşdırması zamanı aşkar olunub ki, şokoladın istehlakı bağırsaqlar üçün də olduqca faydalıdır.

Heyvanlar üzərində aparılmış araşdırmalar göstərib ki, şokoladın tərkibində olan aminturşusu triptofan bağırsaqlarda iltihabın xeyli azalmasına səbəb olur.

Alimlər sübut ediblər ki, şokolad insanların bağırsaqlarına da eyni təsiri göstərir. Bundan əlavə, şokoladın istehlakı orqanizmdə immun hüceyrələrinin 50 faiz artmasına gətirib çıxardır.

Harvard Universitetində 8000 şəxs üzərində aparılan bir araşdırma isə şokoladın ömrü uzatdığını ortaya qoyub. Şokolad yeyənlərin ömrünün ən az bir il uzandığını söyləyən mütəxəssislər bunu qidanın içindəki antioksidant maddələrlə əlaqələndirirlər.

Nəzərə almaq lazımdır ki, burada yalnız keyfiyyətli təbii tünd şokoladdan söhbət gedir.

## Bilirik?

- 450 qram şokolad hazırlamaq üçün təxminən 400 ədəd kakao çəyirdəyi lazımdır;
- Bir damcı şokolad insana 50 metr yeriyəcək qədər enerji verir;
- Şokoladdakı yüksək dozada kofein və şəkər, uşaqlarda hiperaktivliyə və dövri hiperaktiv davranışlara səbəb ola bilər;
- Şokolad ağıza antibakterial təsir göstərir və bu səbəbdən dişləri çürüməkdən qoruyur;
- Şokoladın ətri əsnəmə vəziyyətini təmin edən teta beyin dalğalarını artırır;
- Şokoladdakı yağ doymuş yağdan fərqli olaraq, xolesterol ehtiva etmir;
- Şokoladın ərimə temperaturu 34 dərəcədir. Buna görə də ağızda asanlıqla əriyir; Bazarlarda çox qarşılaşmasaq da, şokoladın ağ, qara və qəhvəyi rənglərdəki növlərindən başqa, sarı rəngdə olan növləri də var.

**Yaşam:**

## Susuzluğun çarəsi

Şokolad südü 1700-cü illərin əvvəllərində Yamaykada icad edilib və irlandiyalı botanik Hans Sloan tərəfindən istehsal olunub. Yerli əhali kakaonu "kakao paxlası" adlandırıb. Onlar susuzluqlarını yatırmaq üçün bu paxlaları südlə qarışdırıb kakao içkisi əldə ediblər.

Kakao südü, sağlamlıq üçün faydalı ola biləcək kalsium, protein və D vitamini kimi vacib qidalar ehtiva edir. Bu içki sümüklərdəki əsas mineral olan kalsiumla zəngindir.

Kakao südü gərgin bir məşqdən sonra əzələlərin bərpasına yardımçı olur. Bunun səbəbi karbohidratlar və zülallarla zəngin içkilərin məşq zamanı itirilən şəkər, maye və elektrolitləri bərpa etməyə təsirlidir.

Bu faydalı xüsusiyyətləri ilə yanaşı, şokolad südü kalori və şəkər baxımından yüksək nisbətə malik olduğu üçün kilo atrımı yarada bilər və müəyyən xroniki xəstəliklər riskini yüksəldər.



Uşaqlarda da kakao südü qəbulu yaxından izlənilməli və həddindən çox qəbulunun qarşısı alınmalıdır. Əks təqdirdə bu onlarda piylənmə, diş çürüməsi və digər sağlamlıq problemlərinə yol açar.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## “Bakı Dəmir Beton-8” ASC-nin səhmdarlarının nəzərinə!

“Bakı Dəmir Beton - 8” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - “Cəmiyyət”) qeyri-qənaətbəxş və zərərlə fəaliyyət göstərməsi ilə əlaqədar Cəmiyyətin Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq ləğv edilməsi məsələsinin müzakirə edilməsi məqsədilə Cəmiyyətin növbədənkənar ümumi yığıncağının keçirilməsi barədə “Foton” MMC-nin 12 avqust 2021-ci il tarixli yazılı tələbinin və Cəmiyyətin Müşahidə Şurasının 13 avqust 2021-ci il tarixli növbədənkənar iclasının qərarının icrası olaraq səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması zərurəti yaranmışdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağının iclası **10 noyabr 2021-ci il saat 11:00-da** “Bakı Dəmir Beton - 8” Açıq Səhmdar Cəmiyyətinin yerləşdiyi Bakı şəhəri, Dərnəgül qəsəbəsi, Ə.Rəcəbli küçəsi, 11/33 ünvanında keçiriləcək.

Cəmiyyətin növbədənkənar ümumi yığıncağının gündəliyinə çıxarılması təklif edilmiş məsələlər aşağıdakılardır:

1. “Bakı Dəmir Beton-8” ASC-nin (VÖEN: 1000063211) (bundan sonra “Cəmiyyət”) ləğv edilməsi;
2. Kəmaləddin Nağı oğlu Dadaşovun Cəmiyyətin direktoru vəzifəsindən azad edilməsi;
3. Ənvər Həsən oğlu Nağıyevin, Fərid Rafiq oğlu Əhmədovun, Kamal Əli oğlu Muradovun, Kərim Məhiş oğlu Kərimovun və Səadət Fərəməz qızı Zamanovanın Cəmiyyətin Ləğvetmə komissiyasının üzvləri təyin edilməsi və onlara qanuni təmsilçiyə aid bütün səlahiyyətlərin həvalə edilməsi;
4. Səsvermənin nəticələrinin müəyyən edilməsi üçün sayı üç nəfərdən az olmayan hesablama komissiyasının yaradılması;
5. Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə Cəmiyyətin ləğv edilməsi və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc edilməsi;
6. Cəmiyyətin ləğv prosesində olması barədə məlumatın mövcud qanunvericiliyə uyğun olaraq hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsinə ərizə ilə müraciət edilməsi;
7. Ləğvetmə komissiyasının Cəmiyyətin ləğvi ilə bağlı qanunvericiliklə nəzərdə tutulmuş qaydada aşağıdakı tədbirlərin görülməsi üçün səlahiyyətli edilməsi:

- dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbuat orqanlarında Cəmiyyətin ləğv edilməsi və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında məlumatların dərc edilməsi;
- kreditorların aşkar edilməsi və debitor borcunu alınması üçün tədbirlərin görülməsi, habelə hüquqi şəxsin ləğvi haqqında bütün məlum kreditorlara bildirişlərin göndərilməsi;
- dövlət büdcəsinə məcburi ödənişlər və büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları üzrə borcların olub-olmamasının müəyyən edilməsi;
- kreditorların tələblərinin irəli sürülməsi üçün müddəti bitdikdən sonra aralıq ləğvetmə balansının təsdiq edilməsi və səhmdarlara göndərilməsi;
- kreditorlar ilə hesablaşmalar başa çatdıqdan sonra ləğvetmə balansının və qalıq əmlakın səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi və qalan əmlakın təsdiq edilmiş bölünmə planına uyğun olaraq Cəmiyyətin səhmdarlarına təqdim edilməsi;
- qalan əmlakın bölünməsindən sonra təsdiq olunmuş ləğvetmə balansının, qalıq əmlakın bölünməsi planını əks etdirən hesabatın, həmin əmlakın səhmdarlara təqdim edilməsini təsdiq edən sənədin və mövcud qanunvericiliklə nəzərdə tutulmuş digər sənədlərin hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına göndərilməsi;
- Cəmiyyətin ləğvi ilə əlaqədar məsələlərin vergi, qeyri büdcə fondları, bank və digər təşkilatlarla həlli üçün bütün digər təşkilati-hüquqi tədbirlərin görülməsi.

***“Bakı Dəmir Beton-8” ASC***

Təkrar

## “Azərişıq” ASC İSO/İEC DİS9798-2 təhlükəsizlik standartına əsasən 3 mərhələli şifrələnmə yolu ilə RS-485 informasiya mübadilə xəttinə malik və təmassız idarəetmə sistemi ilə təchiz olunmuş mövcud 0,4 kV elektrik şəbəkə xəttində gərginliyi ölçən elektron cihazın satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**LOT-1:** İSO/İEC DİS9798-2 təhlükəsizlik standartına əsasən 3 mərhələli şifrələnmə yolu ilə RS-485 informasiya mübadilə xəttinə malik və təmassız idarəetmə sistemi ilə təchiz olunmuş mövcud 0,4 kV elektrik şəbəkə xəttində gərginliyi ölçən elektron cihazın satın alınması

**İştirak haqqı - 350 manat**
**“Azərişıq” ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - **Emil Əliyev** (telefon: 440-39-93, daxili (29-18))
emil.aliyev@azerishiq.az

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təklifin qüvvədə olma tarixindən ən azı 30 bank günü çox qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək təqdim olunmalıdır.);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tələb olunan sənədlərin əsli və ya əsli olmadıqda surəti notarial təsdiq olunmuş formada təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir ( https://etender.gov.az/ ).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 oktyabr 2021-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **28 oktyabr 2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **29 oktyabr 2021-ci il saat 15:00-da** Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Ötən ay “Horadiz” və “Göytəpə” sərhəd dəstələrinin əməkdaşları 28 kiloqramdan çox narkotik vasitənin ölkəmizə keçirilməsinin qarşısını alıblar

Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədlərinin etibarlı mühafizəsi, narkotik vasitələrin, psixotrop maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini uğurla davam etdirir.



DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, sentyabr ayı ərzində Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının “Horadiz” və “Göytəpə” sərhəd dəstələrinin əməkdaşlarının sayıqlığı nəticəsində 28 kiloqram 240 qram çəkidə narkotik vasitəyə, 1620 ədəd psixotrop və güclü təsirli dərman preparatlarına bənzər maddələrin, eləcə də silah-sursatın dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Dövlət sərhədinin gücləndirilmiş mühafizəsinin təmin edilməsi üzrə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 6-da Biləsuvar şəhəri, sentyabrın 15-də isə Cəbrayıl rayonunun Əmirvarlı və Cəlilabad rayonunun Kövüzbulaq kəndləri istiqamətində dövlət sərhədinin yaxınlığında ümumi çəkisi 18 kiloqram 140 qram narkotik vasitəyə bənzər maddələr (15 kiloqram 515 qram heroin, 375 qram marixuana, 310 qram metamfetamin və 2,300 kiloqram növü bilinməyən dərman) aşkarlanaraq götürülüb.

Sentyabrın 30-da saat 03:40 radələrində Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının ərazisində xidmət aparan sərhəd naryadı tərəfindən dövlət sərhədinin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində pozulmasına dəlalət edən əlamətlər aşkarlanıb. Sərhəd zastavası dərhal “Silaha” komandası ilə qaldırılıb, ərazi qapadılıb. Keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ərazidə əlində bağlama ilə hərəkət edən bir şübhəli şəxs saxlanılıb.

Araşdırma zamanı həmin şəxsin əvvəllər dəfələrlə məhkum edilmiş Bakı şəhər sakini 1976-cı il təvəllüdlü Ağayev Asif Ağacəfər oğlu olması müəyyənləşdirilib. Onun əlindəki bağlamaya baxış zamanı içərisində 10 kiloqram 100 qram çəkidə narkotik vasitəyə bənzər maddələr (9,100 kiloqram heroin, 300 qram metamfetamin, 700 qram marixuana və 1620 ədəd güclü təsirli dərman preparatları), 9 millimetr kalibrli “AKREP 2004 Magnum” markalı tapança, bir güllə darağı və iki güllə aşkarlanaraq götürülüb.

Faktlarla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 23 iyul 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş açıq tenderlərdə Tender komissiyasının qərarına əsasən nəticələri:

“Müasir öyrənmə nəzəriyyələrinin tədris prosesinə tətbiqi üzrə ixtisasartırma təlimi (distant)” xidmətlərinin satın alınmasına dair keçirilmiş açıq tenderin qalibi “Təhsildə İnnovativ Texnologiyalar Əlavə Təhsil Mərkəzi” MMC olmuş və 30 sentyabr 2021-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır;

“Məktəb fəaliyyətinin təşkili və planlaşdırma üzrə ixtisasartırma təlimi (distant)” xidmətlərinin satın alınmasına dair keçirilmiş açıq tenderin qalibi Odlar Yurdu Universiteti olmuş və 30 sentyabr 2021-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır;

“Uşaq psixologiyasının əsasları üzrə ixtisasartırma təlimi (distant)” xidmətlərinin satın alınmasına dair keçirilmiş açıq tenderin qalibi “Psixologiya Elmi-Tədqiqat İnstitutu” MMC olmuş və 30 sentyabr 2021-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# “Vətən müharibəsi - qələbənin simaları” fotomüsabiqəsi başlayır

Heydər Əliyev Mərkəzi, “Regional İnkişaf” İctimai Birliyi (RİİB), Medianın İnkişafı Agentliyi (MEDİA), Media Təhlil Mərkəzi (MTM) və Azərbaycan Fotoqraflar Birliyinin (AFB) təşkilatçılığı ilə “Vətən müharibəsi - qələbənin simaları” adlı fotomüsabiqə başlayır.




AZƏRTAC xəbər verir ki, məqsəd 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın işğaldan azad olunması zamanı yaşanmış hadisələri, zabit və əsgərlərimizin döyüş tapşırıqlarını yerinə yetirərkən qəhrəmanlıqlarını fotolar vasitəsilə geniş ictimaiyyətə bir daha çatdırmaqdır.

Münsiflər heyəti müsabiqəyə təqdim olunan fotoları peşəkar və həvəskar çəkiliş kateqoriyaları üzrə aşağıdakı nominasiyalara uyğun qiymətləndirəcək:

- Qələbənin simaları;
- Müharibə dağıntıları;
- Müharibə xatirələri;
- Ziyarətçilərin baxış və bəyənmələri üzrə (qaliblər sosial mediadakı bəyənilmələrin sayı ilə müəyyən ediləcək).

Qaliblər qiymətli hədiyyələrlə təltif olunacaq.

Müsabiqəyə təqdim edilən bütün fotolar müsabiqə müddətində “Instagram”da “foto.musabiqe” səhifəsində paylaşılacaq.

Müsabiqənin yekununda - noyabrın 8-də Heydər Əliyev Mərkəzində seçilmiş fotolardan ibarət sərgi təşkil olunacaq.

Müsabiqədə iştirak etmək istəyən şəxslər fotoları 2021-ci il noyabrın 1-dək **fotomusabiqe@mtm.az** e-mail ünvanına göndərməlidir. Əlavə məlumatı “Regional İnkişaf” İctimai Birliyinin “150” Çağrı mərkəzi və ya +99412 5050150, +99412 5056001 telefon nömrələri ilə əlaqə saxlamaqla əldə etmək olar.

**Fotomüsabiqənin şərtləri:**

- Hər bir fotonun həcmi 5 MB-dən artıq olmamalıdır.
- Fotolar JPG formatda təqdim edilməlidir.
- Bir iştirakçı bir neçə foto təqdim edə bilər.
- Zərurət yarandıqda münsiflər heyəti tərəfindən fotonun ilkin variantı tələb edilə bilər.
- Təqdim olunan fotoların üzərində müəllifin imzası və loqo yerləşdirilməməlidir.
- Fotolar üzərində heç bir halda fotoredaktə edilməməlidir.
- Müsabiqəyə yalnız Vətən müharibəsi dövründə çəkilmiş fotolar təqdim olunmalıdır.
- Fotoda əks olunmuş şəxslərin razılığı iştirakçı tərəfindən alınmalıdır.
- Fotolardan kommersiya məqsədilə istifadə olunmamalıdır.
- Fotolar göndərilərkən iştirakçının adı, soyadı və atasının adı (fotonun müəllifi iştirakçı özü olmadığı təqdirdə müəllifin adı, soyadı və atasının adı), doğum tarixi, fotonun adı, çəkildiyi yer (müəyyən etmək mümkün olduğu təqdirdə), əlaqə nömrəsi, yaşayış və e-mail ünvanları qeyd olunmalıdır.
- Fotoların son qəbul tarixi: 1 noyabr 2021-ci il.
- Səsvermənin son tarixi: 7 noyabr 2021-ci il.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 07 sentyabr 2021-ci il tarixdə keçirilmiş “Eşitmə və nitq qabiliyyəti olmayan sağlamlıq imkanları məhdud uşaqlar (və ya şəxslər) üçün kütləvi informasiya vasitələri vasitəsilə surdoloji maarifləndirmə xidmətlərinin aparılması” adlı müsabiqənin qalibi “Uşaq və Gənclərin İnkişafına Dəstək” İctimai Birliyi, “Əlilliyi olan şəxslərə diqqət və qayğının artırılması məqsədilə təbliğat kampaniyasının aparılması” adlı müsabiqənin qalibləri fiziki şəxs İsmayılov Hafiz Telman oğlu, “Azərbaycan Qadınlarının Haqlarını Müdafiə Mərkəzi” İctimai Birliyi, “İnklüziv Cəmiyyət Naminə” Əlilliyi olan Şəxslərə Dəstək İctimai Birliyi, “Əlilliyin düzgün dərk edilməsi istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi” adlı müsabiqənin qalibləri fiziki şəxs Cəfərqulu Ceyhun İsmayıl oğlu, “Əlil Sahibkarlar Təşkilatı” İctimai Birliyi, “Görmə imkanları məhdud şəxslər (və ya uşaqlar) üçün müyəssər formatlı nəşrlərin hazırlanması” adlı müsabiqənin qalibləri “Qayğıya Ehtiyacı Olan Şəxslərə Sosial Dəstək” İctimai Birliyi və “Vətəndaş Cəmiyyətinin Regionlarda İnkişafına Dəstək” İctimai Birliyi olmuşdur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 10 sentyabr 2021-ci il tarixdə keçirilmiş “Sosial məsuliyyət platforması” adlı təkrar müsabiqənin qalibi “Educators.Pro” MMC olmuşdur.

***Tender komissiyası***

# Penitensiar xidmət Milli Məclisin sabiq deputatının vəfatı ilə bağlı məlumat yayıb

Ədliyyə Nazirliyinin Penitensiar Xidməti kütləvi informasiya vasitələrinin sorğularına cavab olaraq bildirib ki, Milli Məclisin sabiq deputatı, vəzifə cinayətinə və dələduzluq əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunmuş Cəbrayılov Rəfael Kamil oğlu sentyabrın 30-da müalicə aldığı xəstəxanada vəfat edib.

Penitensiar xidmətdən AZƏRTAC-a bildiriblər ki, Bakı Ağır Cinayətlər Məhkəməsində haqqında işinə baxılan R.Cəbrayılovun hüquqlarını müdafiə edən vəkili koronavirus infeksiyasına yoluxduğu üçün məhkəmə təxirə salınıb. Bundan sonra R.Cəbrayılovdan COVID-19 infeksiyasına qarşı test nümunələri götürülüb və nəticəsi pozitiv çıxıb.

Cəzaçəkmə müəssisələrində könüllü olaraq aparılan kütləvi vaksinasiyadan qəti imtina etmiş 1958-ci il təvəllüdlü, xroniki şəkərli diabetin kəskinləşməsindən və arterial hipertoniyadan əziyyət çəkən R.Cəbrayılov müvafiq müalicə tədbirlərinə cəlb olunub. Lakin xroniki xəstəlikləri ilə əlaqədar təhlükəli risk qrupuna daxil olması nəzərə alınaraq sentyabrın 28-də müalicəsini davam etdirmək üçün “Yeni Klinika”ya yerləşdirilib.

Aparılan müalicə tədbirlərinə baxmayaraq, R.Cəbrayılov vəfat edib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Dövlət İttihamının Müdafiəsi üzrə İdarəsinin prokuroru Zəfər Ramazanova atası

**AKİF MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Vüqar Muradova anası

**NÜŞABƏ MUSTAFAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və komitənin kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5609
Sifariş 1787
Qiyməti 40 qəpik